# SON QƏRAR



ETİBAR HƏSƏNZADƏ

İKSAD
Publishing House

# ETİBAR HƏSƏNZADƏ

# SON QƏRAR

ANKARA 2020

İKSAD
Publishing House

Copyright © 2020 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of
brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law.
Institution of Economic Development and Social
Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksad.net

It is responsibility of the author to abide by the publishing ethics rules.

Iksad Publications – 2020©
ISBN: 978-625-7954-37-2
Cover Design: İbrahim KAYA
January / 2020
Ankara / Turkey
Size = 14,8 x 21 cm

# *Ş E İ R L Ə R*

## AZƏRBAYCAN

Vətən, mənim varlığımsan,
Qürurumsan, vüqarımsan,
Sən Qafqazın baş tacısan,
Qüdrətinlə ucalırsan.

Torpağına qurban, Vətən,
Müqəddəsdir adın sənin.
Bayrağımız göylərində,
Dalğalansın, Vətən, sənin.

Sən əzəli, sən əbədi
Bir sevgimsən, ilk eşqimsən.
Könlümün ən gözəl səsi,
Nəğməsisən, doğmaVətən.

Gözəlliklər məskənisən,
Gülüstandır hər bir yanın.
Tanrıdan bir əmanətsən-
Səcdəgahım, qibləgahım.

Təkrarsızdır təbiətin,
Atlas kimi çəmənlərin,
Zümrüd kimi meşələrin,
Nazla baxan Göy göllərin.

Dəli, dolu, gur çayların,
Buz kimidir bulaqların.
Sazlı, sözlü oylaqların,
Tamaşadır yaylaqların.

Sərvət dolu bu dağların
Əzəmətli, vüqarlıdır.
Neft yatağı mavi Xəzər
Şöhrətindir, vüqarındır.

Torpağımız yoğrulubdur
Şəhidlərin al qanından.
Satılmazdır, bölünməzdir,
Hər qarışı - bir Vətəndir.

Sönməz odun qəlbimdədir
Adın hər an dilimdədir.
Torpağının tam cövhəri
Canımdadır, qanımdadır,
Azərbaycanım mənim.
11.04.2019.

## BÖYÜK ZƏFƏRİN BAŞLANĞICI

Aprel döyüşləri tariximizdir,
Göstərdik dünyaya qələbəmizi.
Göstərdik düşmənə qüdrətimizi.
Hər zaman sarsılmaz birliyimizi.

Azad oldu Talışdakı yüksəkliklər,
Seysulan, Lələ təpə, Cocuq Mərcanlı
Gülüstan, Qazaxlar, Madagizin yolları.
Yüksəldi orda Azərbaycan bayrağı.

İyirmi iki ildir keçilməyən
“Ohanyan xətti”keçilən oldu.
İllərdir qələbəyə həsrət xalqa
Qələbə badəsi içilən oldu.

Muradlar, Samidlər, Şükürlər kimi
Aprel şəhidləri tarix yazdılar.
Qəlblərdə silinməz izlər qoyaraq,
Torpaqlara azadlığı yazdılar.

Dördgünlük döyüşlər bir başlanğıcdır
Gün gələcək, Qarabağı alacağıq
Bilirəm ki, Zəfər nəğmələrilə
Bayrağı, Xankəndində asacağıq.
29.08.2018.

## ZƏFƏR MARŞI

Afrin səlnaməsin yazaq zəfərlə,
Tarixlər yazılsın zəfərimizlə.
Türk oğlu əyilməz yağı düşmənə,
Səs salaq aləmə şöhrətimizlə.

Düşmən əlimizdən dad-haray çəkər,
Rəşadət, şücaət, qeyrət bizimdir.
Düşmənin başına od-alov tökək,
Döyüş meydanında meydan bizimdir.

Türk oğlu düşməni silər Afrindən,
Afrində yüksələn bayraq bizimdir.
Düşmənə məhşəri göstərər Məhməd,
Şərəflə çəkilən adlar bizimdir.

Qiyamət qoparaq biz düşmənlərə.
Etibar qələbə nəğməsi yazsın.
Bizim qüdrətimiz dillərə dastan.
Ellər şənimizə dastanlar yazsın.
02.03.2018.

GÖZLƏ, BİZİ QARABAĞIM

Sinən çalın-çarpaz dağlı,
Gələmmirik, yolun bağlı.
Ürəyimiz sənə bağlı,
Dözəmmirik ayrılığa,
Gözlə bizi, Qarabağım.

Qaçqınlıq və didərginlik
Ölümdən də ağır bizə.
Bu nə zülüm, bu nə sitəm,
Cəhənnəmdir həyat bizə,
Gözlə bizi, Qarabağım.

Nədən boynu bükük qaldın?
Sən bizlərdən incik qaldın.
Oğulların gələr deyə,
Min ümidlə nəfəs aldın.
Gözlə bizi, Qarabağım.

Baxma belə küskün-küskün,
Gələcəkdir bir gün O gün.
Dağılacaq buludların,
Gələcəkdir övladların.
Gözlə bizi, Qarabağım.

Uzun illər sənsiz qaldıq,
Çaylarına, dağlarına,
Çəməninə, çiçəyinə
Bulağına həsrət qaldıq
Gözlə bizi, Qarabağım.

Qarabağsız günümüz nə?
Gəlib keçən ömrümüz nə?
Həllolunmaz müşkülün nə?
Həlli vardır bu müşkülün.
Gözlə bizi, Qarabağım.

Biz səninçün can verərik,
Torpağına can verərik.
Azadlığın nəfəsindən
Nəfəsinə pay verərik.
Gözlə bizi, Qarabağım.

Qalmayıbdır artıq dözüm,
Şanlı ordum-dərdə çözüm.
Çox yaxında gələcəyik,
Səni azad edəcəyik.
Gözlə bizi, Qarabağım.

Etibaram, sənə sözüm:
Qələbəni görəcəksən.
Görəcəksən
Bayrağımız dalğalanır
Xankəndinin üzərində.
Gözlə bizi, Qarabağım.
02.03.2019.

## ŞANLI URFA

Hər tərəfin uca dağlar bəzəmiş,
Asta axan Fərat çayın  özüdür.
Gül-çiçəkli çəmənzarlar bir aləm,
Urfa elə gözəlliyin özüdür.

Şöhrətin yayılmış bütün cahana.
Salamlarım, hörmətlərim sənindir.
Sən elmin, zəhmətin öz vətənisən,
Ürək dolu sevgilərim sənindir.

Tarixə düşmüsən peyğəmbərlərlə,
Peyğəmbərlər ilə məğrursan Urfa.
Məkkədən, Mədinədən, Qüdsdən sonra,
Dördüncü şəhərsən, sən Şanlıurfa.

Çox övliyaların məzarı səndə,
Məscidlər şəhəri, sən Şanlıurfa.
Hər daşında tarixin izləri var,
Üç səmavi dinin məskəni-Urfa.

Sinəndə nə qədər yaraların var,
Haqq üçün savaşan oğulların var.
Uğrunda can verən şəhidlərin var,
İgidlər yurdusan, sən Şanlıurfa.

Yadellinin işğalından qurtardın,
"İstiklal Madalyasın" köksünə taxdın.
Bayrağını yüksəklərə qaldırdın,
"Qurtuluş"dan ad aldın- Şanlıurfa.

Gün gələr qonağın olaram sənin,
Şəninə nəğmələr yazmaq istərəm.
Seyr edib hüsnünün gözəlliyini,
Mən də səni gəzib, görmək istərəm.
08.09.2018.

## AZƏRBAYCAN

Misilsiz hüsnünlə, təbiətinlə,
Dövlətin, sərvətin, həm qüdrətinlə,
Sazınla, sözünlə, həm söhbətinlə
Qafqazın zinəti- sən Azərbaycan.

Nə qədər övladın tərki vətəndir,
Bayrağın şəhidə axı kəfəndir.
Yetər bu əsarət, axı nədəndir
Bitməyir dərdlərin, can Azərbaycan?

Həsrətdən ağlayan o oylaqların,
Sinəsi qanayan o torpaqların,
De, kimə qalıbdır buz bulaqların
Ürəkdən yaralı, can Azərbaycan.

Viranə torpaqda açmır güllərin,
Daha nəğmə demir şux bülbüllərin.
İstərəm oxusun gənc "bülbüllərin"
Qarabağ elində -can Azərbaycan.

Qarabağ dərdlidir, səs ver səsinə,
Qoymayaq torpağı biz özgəsinə.
Viranə qalmış yurd axı Vətəndir,
Qəlbimdə döyünən can- Azərbaycan.
10.04.2017.

D A Ş K Ə S Ə N

Dağlar qoynunda gözəl şəhərdir,
Azərbaycan Uralıdır Daşkəsən.
Torpağının üstü də,altı da xəzinədir,
Vətənimin zinətidir Daşkəsən.

Dəmirin, kobaltın, zəyin, qızılın,
Saya gəlməz sənin bütün sərvətin.
Təbiətin, bulaqların, göllərin,
Bu dağlara yaraşıqdır güllərin.

Dağlarda məskun tarixi abidələr,
Yola salmış neçə illər, qərinələr.
Meydan oxuyur illərə abidələr,
Sən tarixin özüsən gözəl Daşkəsən.

Narzanın,turşsuyun çox şəfalıdır,
Yaylaqların, oylaqların səfalıdır.
Dillərə dastan Xoşbulaq yaylağıdır,
Sən Odlar yurdunun tacı-Daşkəsən.

Bitkilərin çox dərdlərin dərmanıdır,
Dağların yaraşığı zirvədə dumanıdır.
Axan çaylar dağların qan damarıdır,
Möhtəşəmdir təbiətin Daşkəsən.

Aşıqların nəğmə qoşar şəninə,
Qız-gəlinlər çiçək taxar telinə.
İgid şəhidlərin zəfər taxar elinə,
Sən igidlər oylağısan Daşkəsən.
03.01.2014.

## VƏTƏNIMI İSTƏYİRƏM

Birisi sual vermiş:
"Hardan başlanır Vətən?"
Cavab tapmıram, nədən?
Baş açmıram sərhəddən.

Araz adlı sərhəddin
O tayında Təbrizdən?
Yoxsamı Borçalıdan?
Bəlkə Qarabağımdan?
Yoxsamı İrəvandan?

Mən sərhəddi bilinməyən,
Beynimizdən silinməyən,
Parçalanıb tükənməyən,
Çox dərdləri çəkilməyən
Vətənimi istəyirəm.

Qurban sənə doğma Vətən,
Bir xəbər ver dərdlərindən.
Qan ağlayan ellərindən
Xəbər verən istəyirəm,
Vətənimi istəyirəm.

Vətənə sevgi ilə yazıb-yaratmış,
Şeir-sənət dünyasında ad almış,
Neçə-neçə sənətkarlar yaratmış,
Bu torpağın cövhərini istəyirəm,
Vətənimi istəyirəm.

Torpağımız babalardan əmanətdir,
Torpaq üçün candan keçmək səadətdir,
Ömrümüzdən ömür vermək rəşadətdir,
Vətən üçün şəhid olmaq istəyirəm
Vətənimi istəyirəm.
20.02.2014.

ÜZEYİR DÜNYASI

(Şeir Gəncə Dövlət Filarmoniyasında Üzeyir Hacıbəyliyə həsr olunmuş tədbirdə yazılmışdır)

Üzeyir Dünyasının qonağı oldum,
Bənzərsiz bəstələr ruhuma hakim.
Durduğun zirvəyə kim çatar ki, kim?
Möhtəşəm əsərlər qəlblərə hakim.

Yaşadım səninlə sənin Dünyanı,
Nə ağrı - acılar, sevgilər varmış.
Çağlandı hisslərim ruhunla birgə,
Səndə nə dünyalar, aləmlər varmış.

“Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,
Nalə tərkin qılmazam ney tək kəsilsəm bənd-bənd”.
Musiqi və sözlər bir ruhdamı bənd?
Heyrətdə qalmışam, ruhunuza bənd.

Bu gün bu zaldasan, bilirəm, Ustad!
İstərəm baş əyim ruhun önündə.
Xoş gəldin bu sənli günlərimizə,
Səslənir bəstələr sənin önündə.

Nə böyük duyğular yaşamış ustad,
Söz tapıb yazmağa qələmim aciz.
Qərblə Şərq birləşmiş bir musiqidə,
Bu sənət zirvədir, Etibar aciz.
18.09.2019.

DEDİN AHƏSTƏ

Gördüm qızlar içində, ay boyu bəstə,
O gündən oldum, ay qız, dərdindən xəstə.
İstədim verəm sənə güllərdən dəstə,
Yox, yox olmaz söyləyib, güldün ahəstə.

Düşündüm ki, neyləsəm xoşuna gələr,
Bəlkə, elə xoşbəxtlik başıma gələr.
Dayandım yol üstə ki, qarşıma gələr,
Görüb, yolun dəyişdin, güldün ahəstə.

Misralarda səsləndim bütün qəlbimlə,
Şeirdən gül bağladım sənə təbimlə.
Verdim dəstə-dəstə üstə qəlbimlə,
Oxudun, razıyam mən, dedin ahəstə.

Sevincdən hisslərim tüğyana gəldi,
Axdı gözəl duyğular dilimə gəldi.
Söylədikcə incilər gözünə gəldi,
Etibar, davam et sən, dedin ahəstə.
16.05.2017.

## T A L A N

Qəlbimdə ağrılar, eşqimdir bəlam,
Yorğunam sevgindən, sən isə yalan.
Nə qədər gözləyim, müddəti yox ki,
Cavabsız sevgidən bu könlüm talan.

Bəlalı sevgindən başımda duman,
Baxdım gözlərinə qəlbimdə güman.
Sənin heç insafdan xəbərin yox ki,
Sənsiz keçən həyat talandır, talan.

Bir gəldin, bir getdin, gedişin yaman,
Arxanca baxmaqdan gözlərim nalan.
Geriyə bir kərə baxmağın yox ki,
Sanki, getdiyin yol olubdur talan.

Varlığım səninlə olubdur tamam,
Sənsiz bu həyatı var deyə sanmam.
Etibaram, səndən dönməyim yox ki,
Nə qədər etsən də ömrümü talan.
08.07.2016.

## SƏNİN DEYİLMİ

Bu həsrət səninmi, yoxsa mənimmi?
İkimizin adına, de mən çəkimmi?
Sən çəkmə, qəlbini bu həsrət yıxar,
Qəlbindəki surətim sənlə deyilmi?

Aramızda məsafə baxışlar qədər,
De, baxım üzünə axı nə qədər?
Qəlbimdə atəşlər məhşərə qədər,
Danışan baxışlar bəsin deyilmi?

Bu dilsiz söhbətlər bir dastan qədər,
İkimizin sevgimiz ömrümüz qədər.
Əllərim çatmır ki, baxışlar qədər,
Danışan ürəklər bəsin deyilmi?

Tələsmə, bu həsrət bir vaxta qədər,
Zamanı gəlincə ayrılıq bitər.
Aradan keçsə də, fəsillər, illər,
Etibarın sevgisi sənin deyilmi?
27.11.2015.

SƏNDƏN ÖTƏRİ

Bu gün duyğuluyam səhərdən bəri,
Hisslərim çağlayır qəlbimdən bəri.
Nola bir baxasan mənə ötəri,
Ürəyim ağlayır səndən ötəri.

Gəlmirsən mən tərəfə o gündən bəri,
Bilsən, deməmişəm sənə nələri.
Qəlbimdən tökülən odlu sözləri,
Nola deyə biləm sənə ötəri.

Yaşaya bilmirəm acı günləri,
Sənə verəmmirəm gözəl gülləri.
Bir yada salsaydın ötən günləri,
Axtarardın məni, hərdən ötəri.

Etibar unutmaz sənli günləri,
Gözlərinin söylədiyi sözləri.
Gözləyirəm dönəcəyin günləri,
Yazaram yenə də səndən ötəri.
23.07.2016.

## A L D A T M A

Sevirəm mən səni, ay gözəl üzlüm,
Gəl danış mənimlə sən şirin sözlüm.
Sən bax gözlərimə, ay qara gözlüm,
Qəlbim sənə bağlı, de necə çözüm.

Mən sevdikcə sən oyunlar oynama,
Hisslərimi daşdan-daşa sən çalma.
Mən sənə inandım, sən gəl aldatma,
Qəlbimi hey yaralayıb, qanatma.

Üzün aydan gözəl, qəlbin qap-qara,
Qara gözlərinin aynası qara.
Baxdıqca gözlərinə, dünyam qara,
Saxta baxışların qəlbimə yara.

Yetər bu oyunlar, daha oynama,
Məni oyunlarda sən avam sanma.
Yalan sevgin, saxta gülüşlərinlə
Etibarı gəl bu qədər aldatma.
30.06.2015.

AÇ GÖZLƏRİN

Görüşümə gələn gözəl,
Qəlbim uçur sevincindən.
Ədalısan yenə, gözəl,
Naz saçırsan gül içindən.

Yumma gözəl gözlərini,
Qoy mən baxım gözlərinə.
Çilə sevgi sözlərini,
Ürəyimin közlərinə.

Aç gözlərin, şıltaq gözəl,
Baxışından qəlbim coşsun.
Axsın sözlər gözəl-gözəl,
Yenə sənə nəğmə qoşsun.

Dinlə məni nazlı-nazlı,
Məclis quraq sözlü-sazlı.
Etibar eşqdən söyləsin,
Sən də oxu nazlı-nazlı.
01.02.2017.

## D U S T A Q

(Azərbaycanın Xalq Artisti Flora Kərimovaya)

Qəlbim elə həzin səsinə dustaq,
Gözlərim o gözəl rəsminə dustaq.
Röyalarım gözəl Floraya dustaq,
Bu zindandan çıxmağı mən istəmirəm.

Səsinlə bu dünya cənnətə bənzər,
Mən bu cənnətdəki bülbülə dustaq.
Şaqraq nəğmələrin cənnəti bəzər,
Bu cənnətdən çıxmağı mən istəmirəm.

Mahnılarda ürəyin bir dağa bənzər,
Mən bu gözəl ürəyin özünə dustaq.
Səhnələrin bir gözəl tabloya bənzər,
Səhnələrin sonunu mən istəmirəm.

Ruhumun telləri səsinlə çalar,
Mən elə mizrabın səsinə dustaq.
Etibarın ürəyi səninlə çarpar,
Etibarsız olmağı mən istəmirəm.
22 01 2016.

E Ş Q İ M

Dinlə məni, gözəl qız
Sənə sevgimdən deyil,
Qoy eşqimdən söz açım.
Odlu misralarımdan
Sənə bir dastan açım.

Məni sevməsən də sən
Mən sənə eşqi seçdim.
Sənə olan eşqimlə
Bədbəxtliyimi seçdim,
Özüm özümdən keçdim.

Nə qədər sevdiyimi
Rişxənd ilə soruşma.
Səndə görsəm əcəli
Tərəddüdsüz gələrəm,
Niyəsini soruşma.

Soyuq-soyuq baxma mənə,
Etibara dəyər zərbə.
Xəncər vurma çox dərinə,
Çünki orda özün varsan,
Sən özünü yaralarsan.
27.06.2015.

## İNCƏ YARIM

Baxışında gülüşlər, dodağında təbəssüm,
Sanki, indi açacaq üzündə qönçə, yarım.
Nə gözəl rəsm çəkib dodağında təbəssüm,
Sanki, zərif çiçəksən çiçəkdən incə yarım.

Cilvələr duruşunda, həm əda, həm nazında,
Bir hava çal, sevgilim, əlindəki sazında.
Mizrab yenə tellərdə, barmaqlar pərdələrdə,
İkimizin yerinə danışsın incə, yarım.

Coşdur yenə təbimi, səslənim misralarda,
Etibaram, sevgidən gözəl dastan bağlayım.
Yalan olsun Leyli də, unudulsun Əsli də,
Düşsün dildən - dillərə bu dastan, incə yarım.
18.04.2016.

## INCƏ - İNCƏ

Gəl, nazəndə gözəl, üzündə gülüş,
Əlində kamanın çal incə -incə.
Dillənsin könlümdə sevgi telləri,
Axsın dödağımdan söz incə -incə.

Sən bax gözlərimə, danışaq səssiz,
Qoy axsın hisslərim qəlbinə səssiz.
Gör nə ağrılar var içimdə sənsiz,
Qəlbimi əridir eşq incə -incə.

İnləsin kamanın qoy segah üstə,
Axsın bulaq kimi ürəyim üstə.
Şeirlər söyləyim musiqi üstə,
Duyğular dillənsin qoy incə -incə.

O gözəl gözlərin baxmasın xumar,
Ürəyim sevgindən yenə pay umar.
Dağınıq saçların üzündə xumar,
Darayım onları mən incə -incə.

Ala gözlərinin baxışı süzgün,
Söyləyir ahəstə eşqini düzgün.
Etibar sevgindən ürəyi üzgün,
Qoy eşqdən söyləyim mən incə -incə.
09.04.2016.

## MƏNİM DÜNYAM

Dünya dönür, başım dönür,
Dünya Günəş sevdasında,
Mən bir qızın sevdasında.
Dünya çatmaz ki, Günəşə,
Çünki yeri, yurdu bəlli.
Mən də çatmaram bu qıza,
Çünki halım, yerim bəlli.
Dünya dönür hey Günəşin çevrəsində,
Günlər, fəsillər öz ahəngində.
Başım dönür, qəlbim dünya misalında,
Gecələri, gündüzləri, fəsilləri ahəngində.
Dünya dönür, ömür gedir ahəngində,
Bədən fəsillərtək şəklin dəyişir.
Amma, qəlbim heç qocalmaz,
Çünki, bir gözəlin sevdasında.
Etibar var olar öz sevdasında.
19.05.2015.

NƏ GÖZƏL

Gəzirsən bağçada, bağça nə gözəl.
Hər yanın gül-çiçək, ətri nə gözəl.
Saçların dağılmış çiyinlərinə,
Dağılmış tellərin bilsən, nə gözəl.

Dalmısan xəyala, fikrin uzaqda,
Mən də dayanmışam səndən qıraqda.
Məni görməsən də, gülüm, bayaqdan,
Baxdığım mənzərə bilsən, nə gözəl.

Sən güllərə, güllər sənə tən gələr,
Sevgidən hisslərim tüğyana gələr.
Misralar qəlbimdən dilimə gələr,
Qəlbimə sığmayan hisslər nə gözəl.

Şeirə düzdüyüm sənə yozular,
Qaldırma başını, ahəng pozular.
Sevirəm, ay gözəl, duysan nə olar,
Etibarın sevgisi bilsən nə gözəl.
23.10.2015.

## SƏN MƏNİM EŞQİMSƏN, SEVDİYİM DEYİL

(Bu şeirdə oxuduğum bəzi materiallardan istifadə etmişəm.)

Gəl, nazlı gözəlim, çox sual vermə: -
Məni az sevirsən, - söyləyib keçmə.
Səni sevənlərlə məni bir tutma,
Sən mənim eşqimsən, sevdiyim deyil.

Ürəyimin yarasını qanatma,
Məni görüb, məndən uzağa qaçma.
Axı qəlbindəyəm, özündən qaçma,
Sən mənim eşqimsən, sevdiyim deyil.

Gülüb mənə, - fərqi nədir? - deyirsən,
Ya aşiqsən, ya da guya sevirsən.
Fərqini söyləyim, sən də biləsən,
Bu aşiq oğlanı çox üzməyəsən.

Sevgiylə aşiqlik bir qəlbə sığmaz,
Aşiqlik dağıdar, sevgi yaradar.
Sevgi xoşbəxtliklə səadət verər,
Eşqsə bədbəxtliyin açarın verər.

Sevgi dolu evlilik həyat gətirər,
Amma eşq sevgidən bəlalı gələr.
Gözü kor aşiqlik sevinc gətirər,
Gözlər açılanda peşmanlıq gələr.

Sevgi həyatında xoş izlər qoyar,
Eşqsə ürəyində dərin yaralar.
Sevgi şərbət deyə başa çəkilər,
Eşqi zəhər deyə qanıb içərsən.

Sevgi ürəyinə meh kimi əsər,
Eşqsə qasırğatək içinə əsər.
Sevgini söyləyər, həm bölüşərsən,
Eşqisə heç zaman söyləyəməzsən.

Sevmək sevdiyini qəlbdə görməkdir,
Eşq isə hər yerdə görə bilməkdir.
Sevgi zaman-zaman unudulursa,
Eşq ömür boyunca unutmamaqdır.

Sevgii odu ürəyində yanarsa,
Eşq odu ürəkdə zəbanə çəkər.
Sevgi ömrə incə naxış çəkərsə,
Eşq sənin ömrünü əcələ çəkər.

Sevgi özlüyündə qarşılıq istər,
Eşqsə qarşılıqsız və dərin olar.
Sevgi gözəlliyi, mümkünü istər,
Eşqsə imkansızı və mümkünsüzü.

Anlada bildimmi, bilməm, gözəlim,
Eşq ilə sevginin bütün fərqini.
Səndən vüsalını kim istədi ki,
Etibarın eşqisən, sevdiyi deyil.
12.07.2015.

ŞEİR BAĞÇASI

Qəlb evimə şeirdən gözəl bir bağça saldım,
Hər şeiri bağçada ətirli çiçək sandım.
Şeirli çiçəklərdən sənə bir dəstə sardım,
Hər şeirdə, gözəlim, inan ki, mən də vardım.

Sevginlə coşan təbim bağçanın bağbanıdır,
Gülən gözəl gözlərin sevgimin qaynağıdır.
Aç qəlbinin qapısın, qəlbdə bahar çağıdır.
Sənsiz bağçam quruyar, gəlməyin zamanıdır.

Gəl, gəz könül bağçamda, güllər çoxdan açıbdır,
Hər gül öz ləçəyində sənə dastan açıbdır.
Yazılan dastanların sənsən ilham pərisi,
Etibar bu bağçada sənə qəlbin açıbdır.
04.04.2016.

## BƏLKƏ QALASAN

Könül bağçamdakı nazlı çiçəksən,
Mənim nəzərimdə bil ki, mələksən.
Verdiyim suala gülüb gedirsən,
Düşün, ürəyimdə bəlkə qalasan.

Hər görüşə min naz ilə gəlirsən,
Sözünü qısa et, getdim deyirsən.
Belə demə, ürəyimə dəyirsən,
Getməyə tələsmə, bəlkə qalasan.

Mən Məcnun, sən isə Leyla olasan,
Ürəyimdə sevgindən od qala sən.
Dinlə məni, sonra peşman olarsan,
Sən ömür yolumda bəlkə qalasan.

Nolar, sözlərimi bir dinləyəsən,
Nələr çəkdiyimi sən anlayasan.
Etibarin həyatında olasan,
Bəlkə getməyəsən, bəlkə qalasan.
30.01.2015.

BƏNZƏYIRSƏN

Bəzən baxdıqca sənə,
Bənzədirəm güllərə.
Xasiyyətin, görkəmin,
Həmahəngdir güllərlə.

Ətrində qızılgülə,
Zərifilikdə nərgizə,
Utananda laləyə
Bənzəyirsən gözəl qız.

Küsəndə bənövşəyə,
Güləndə yasəmənə,
Yağışda zəng gülünə
Bənzəyirsən gözəl qız.

Danışanda, güləndə,
Sevinib əyləndə
Çəmən çiçəklərinə
Bənzəyirsən gözəl qız.
31.01.2014.

DINLƏ MƏNİ

Qoy sevgimi açım sənə,
Sən diqqət et sözlərimə.
Bəlkə məndən daha betər,
Vurularsan sən də mənə.

Baxışların dinsin deyə,
Arayıram gözlərimlə.
Etibara dərman deyə,
İstəyirəm gülsün mənə.

Sən könlümü dinlə deyə
Qoy gözlərin baxsın mənə.
Coşub -daşan hisslərimlə
Pıçıldayım mən də sənə.

Səndən cavab alsın deyə
Var gücüylə dinən qəlbim,
Həyəcandan əsən qəlbim,
Varlığımda hakim mənə.

Qoy söyləyim gözlərimlə,
Sevgi dolu sözlərimlə.
Bəlkə məndən daha betər
Vurularsan sən də mənə.
26.02.2014.

## G E D Ə R

Min dəfə sevməyə tövbə desəm də,
Yar səni görüncə tövbələr gedər.
Könlümü çalanı sevmə desəm də,
Qəlbim eşqin ilə odlanar gedər.

Nə qədər könlümə döz söyləsəm də,
Səbirsiz ürəyim sevgindən bitər.
İstədiyin qədər sına desəm də,
Sıxılan ürəyim sınaqdan bitər.

Səni qızılgülə mən bənzətsəm də,
Tikanların qəlbimi yaralar, didər.
Çox naz etmə,ömür gedir desəm də,
Anlamaz, qarşımdan qürurla gedər.

Keçdiyin yollardan uzaq qaçsam da,
Kəsişən yollarım yolundan keçər.
Üzünə baxmaqdan göz qaçırsam da,
Gözlərin Etibarın qəlbindən keçər.
27.02.2014.

GÜLƏ - GÜLƏ

Yoldan gedən nazlı gözəl,
Dönüb baxdın gülə -gülə.
Ürəyimə sevgindən od,
Deyən, taxdın gülə -gülə.

Çatıb sənə salam verdim,
Tanışlığa bir yol verdim.
Niyə güldün -sual verdim,
Keç, det dedin gülə -gülə.

Dedim ay qız gəl danışaq,
Bəlkə bir az biz anlaşaq.
Bu görüşü gəl paylaşaq,
Niyə? - dedin gülə -gülə.

Dedim dinlə sözlərimi,
Deyən çaldın ürəyimi.
Çalma könül simlərimi,
Nazla baxdın gülə -gülə.

Seyr edirəm gözlərini,
Deyir ürək sözlərini.
Köksündəki ürəyini,
Mənə verir gülə -gülə.
11.04.2014.

## HƏSRƏTİM MƏNİM

Bir həsrət qovrulur içimdə mənim,
Sovrulur duyğular qəlbimdə mənim,
Hayqırır, hıçqırır qəlbim də mənim,
Harayım sevdiyimə yetməyir mənim.

Ürəyim şam kimi əriyir mənim,
Yaralar qəlbimdə sızlayır mənim,
Sevgimdən çəkilmir dumanım, çənim,
Göz yaşım dərdimə yetməyir mənim.

Xatirələrlə dolu, boşalmır beynim,
Sənsiz heç keçməyir günlərim, neynim.
Hər yerdə qalıb izimiz, xatirəmiz,
Unutmağa gücüm yetməyir mənim.

Bu dağlar dərdimə ortaqdır mənim,
Bulaqlar göz yaşıma şərikdir mənim,
Hər cığır eşqimə şahiddir mənim,
Könlüm həsrətinə dözməyir mənim.
25.02.2014.

XƏBƏRIN YOX

Könül evim darmadağın,
Gülüm, sənin xəbərin yox,
Abad edər bir baxmağın,
Sənin məndən xəbərin yox.

Baş-başayam öz sevdamla,
Söhbətlərim xəyalınla.
Aram-aram bir şam kimi
Tükənirəm, xəbərin yox.

Keçəcəyin hər bir yolda
Gözləyirəm intizarla.
Bəlkə görər, bəlkə baxar,
Ümidliyəm, xəbərin yox.

Tabım çoxdur əzablara,
Yol verilib Etibara.
Sənin könül mənzilinə
Mən yolçuyam, xəbərin yox.
16.02.2015.

## XƏYALINLA SÖHBƏT

Otaq səssiz və sakit,
Xəyallarım,bir də mən.
Bir də sənin xəyalın,
Danışırıq, sən və mən.

Xəyalınla söhbətim,
Yeganə təskinliyim.
Bitməyən bu möhnətim,
Yandırır, səssiz, sakit.

Xəyalın sanki canlı,
Danışır çox məlallı.
Süzülür gözlərimdən,
Yaşlar səssiz və sakit.

Səbrlə gözləyirəm
Gələcəyin zamanı.
Həsrətli bir ürəyəm,
Əriyirəm səssiz və sakit.
31.01.2014.

K Ü L Ə K L Ə R

Yenə də qəlbimdə əsir küləklər,
Gətirir özüylə gözəl duyğular.
Bu dəfə qəlbimdə əsən küləklə,
Oyanır köksümdə susan duyğular.

Hər səhər dilimdən axan sözləri,
Səninçün yazılmış gözəl sözləri,
Qəlbimdəki surətinə baxan gözləri,
Qoy sənə gətirsin əsən küləklər.

Qəlbimdə əsən güclü küləklər,
Gətirər özüylə dolmuş buludlar,
Həsrətdən yanan təşnə qəlbimə,
Bir yağış gətirər əsən küləklər.

Etibarın ürəyi eşqin məskəni,
Çox acı olurmuş bil ki,həsrəti.
İçimdə yurd salmış qəmi,kədəri,
Özüylə aparar əsən küləklər.
06.07.2014.

KÜSƏN  GÖZƏL

Çeşmə - çeşmə bulaqlar
Səninlə birgə ağlar.
Gözlərindən axan yaşlar
Ürəyimə calanar.

Əsən sərin küləklər
Tellərini darayar.
Baxışlarım ahəstə
Yanağını oxşayar.

Sənə baxan gözlərim
Gözlərini arayar.
Oğrun baxan gözlərin
Ürəyimi talayar.

Məndən küsən gözəlim
Etibaram söyləyim:-
Nəğmə kimi sözlərim
Bil, üstünə calanar.
25.08.2014.

MƏNI ARA

Gözəlim, məni incitmək səndə
Xasiyyətmidir, ya adətmidir?
De, gözlərini süzdürmək səndə
Rişxəndmidir, ya ədavətmidir?

De,gözlərin məni çəkməsin dara,
Yanan ürəyimə vurmasın yara,
Dediyim sözlərdə mənalar ara,
Gör,məhəbbətmidir,zarafatmıdır?

Hər gələn zəngdə səsimi ara,
Zəng eləməkdən gəlmişəm zara.
Nolar, bircə dəfə də sən məni ara,
Etdiyin saymamazlıq,yoxsa nazmıdır?

Sən mənim qəlbimdə sevgini ara,
Sonra da sən məni qəlbində ara,
Etibara verəcək cavabı ara:
Cavabın hədirmi,yoxsa yoxdurmu?
01.03.2015.

Ü M İ D L Ə R İ M Ə

İstəyirəm ömrümə sən də ömür qatasan,
Közə dönən qəlbimə sən bir yağış olasan.
Bu acıya, həsrətə özün bir son qoyasan,
Gəl gülüm, gəl artıq -həyat ver ümidlərimə.

Gəl, bəlkə sənə sevməyi öyrədə bildim,
Sənsiz günlərə, gecələrə bitməz dedim.
Dualarımda onu mənə yetir, dedim,
Tək çarə sənsən Allahım, ümidlərimə.

Hər anımda qəlbimdə- Sən, dilimdə- Sən,
Min ümidlə yazdığım hər şeirimdəsən.
Hər sətirdə Sən sevgisən, Sən həsrətsən,
Bəlkə, bir gün oxuyar, dedim, ümidlərimə.

Hər səhər yolumu küçənizdən salıram,
Bir az asta yeriyirəm, bir az dururam.
Keçənlər baxır deyə, bir az da utanıram,
Rastlaşarıq bəlkə, deyirəm, ümidlərimə.

Yoldan keçən hər gözəl gözümə Sən görünür,
Zaman -zaman surətin gözlərimə görünür.
Hər telefon zənginə ürəyim bərk döyünür,
Bircə zəngin həyat verər ümidlərimə.

Hər gecə bir musiqi həmdəmim olur,
Bir də Sənin xəyalın mənimlə olur.
Bir həsrət, bir də ağrı qəlbimə dolur,
Bu mahnı,dönəcəkdir deyir, ümidlərimə.
25.10.2014.

YAY SEVGİSİ

Bağa qonşu gələn qız,
Mənə könül verən qız,
Yay bitməsin deyən qız,
Yay sevgisi gözəldir.

Gözlərini süzən qız,
Ürəyimi üzən qız,
Bu yay mənim qəlbimə,
Sevgisini düzən qız.

Güllər kimi açan qız,
Xoş ətirlər saçan qız,
Görüşümə gəl desəm,
Sevincindən uçan qız.

Üzündə gülüş ola,
Ağlımı başdan ala,
Bu yay olan görüşlər,
Ömürlük bizim ola.

Qoy tutum əllərindən,
O incəcik belindən.
Öpüm qara telindən,
Yay sevgisi gözəldir.

Gülüşlərin gözəldir,
Baxışların özəldir,
İnan mənə sevgilim,
Yay sevgisi gözəldir.
30.05.2014.

Y A R I M

Bağrımı qan edən yarım,
Məni məndən edən yarım.
Əllərinin atəşindən
Əllərimi yaktın yarım.

Külə döndüm həsrətindən,
Oda yandım nazlı yarım.
Kərəm kimi öz sevgimdən,
Yandım-yandım nazlı yarım.

Dünyamı var edən yarım,
Könlümü saz edən yarım.
Bu sevgini yaşamaqçün
Başqa aləm quran yarım.
08.07.2014.

## A Y R I L I Q

Yenə də dağların başı dumandı
Mənim başımdakı dumanlar kimi.
Havalar soyuqdu, qardı, sazaqdı,
Mənim qəlbimdəki hisslərim kimi.

Dağların zirvəsi ağappaq qardı.
Dağlar əzəmətdi, dağlar vüqardı.
O yüksək zirvədə süzən qartaldı,
Mənim göylərdəki xəyalım kimi.

O gözəl dağlarda izimiz vardı,
Görən sevgimizə niyə qar yağdı?
Silindi izimiz, yerdə qar qaldı,
O bitən sevgidən ağrılar qaldı.

Qəlbimdə ağrıdan bil ki, dağ qaldı,
Içimi dağladı, ürəyim yandı.
Etibarın axı külləri qaldı,
Sönmüş bir ocağın külləri kimi.
26.03.2013.

B AĞ L A Y A S A N

Bir ürək istəyirəm,içində sən olasan,
Məni sənli həyata sən özün bağlayasan.
Bir ürək istəyirəm,içində od olasan,
Məni bu atəşə sən özün bağlayasan.

Bir könül istəyirəm,simlərini çalasan,
Bir sevgi istəyirəm,nəğməsi sən olasan.
Bir kaman istəyirəm,bəstəsi sən olasan,
Məni bu bəstəyə sən özün bağlayasan.

Bir bulaq istəyirəm,suları sən olasan,
Duyğu çəmənzarımın çiçəyi sən olasan.
Sevgi çiçəklərimin bülbülü sən olasan.
Məni bu duyğulara sən özün  bağlayasan.

Bir günəş istəyirəm,işığı sən olasan,
Sevgi ümmanlarımın tufanı sən olasan.
Bir həyat istəyirəm,mənası sən olasan,
Məni bu həyata sən özün bağlayasan.
27.05.2013.

## D Ü Ş Ü N C Ə L Ə R İ M

Pəncərədən baxıram, yağış yağır narın–narın,
Havada qoxusu var gələn qışın, gələn qarın.
Bilirəm, gözlərindən yaşlar axır narın–narın,
Eşqimizdə havası, gələn uzun ayrılığın.

Gözlərim qarşısında xəyalı var gözəl yarın,
Üstünə yağış yağır qəlbimdəki arzuların.
Başımda ağırlığı dumanların, xəyalların,
Qəlbimdə ağrısı var gələn acı ayrılığın.

İdrak edə bilmirəm, dözümünü insanların,
Necə dözür ürəklər ağrısına acıların.
Qəlbimdə öz yeri var gözdən axan yağışların
İçimdəki yanğılara ələnir narın – narın.

Allahım yollayıbmı, bu ayrılıq sınağını,
Yarımın gözlərində sayı yox ki, sualların.
Ayrılıq qatilidir zəif olan məhəbbətin,
Mənim məhəbbətimsə artacaqdır narın- narın.
16.05.2013.

GETDİN

Bu gün birdəfəlik çəkib getdin,
Qəlbimdə son bahar havası var.
Qəlbimdə susmuş dəniz aynası var,
Tufan öncəsi sakitlik kimi.

Son kəs gözlərimə baxıb getdin,
Qəlbimdə lal olmuş hisslərim var.
Qəlbimdə hərəkətsiz yarpaqlar var,
Leysan öncəsi sakitlik kimi.

Son kəs əllərimi sıxıb getdin,
Qəlbimdə sıxılmış bir ürək var.
Qəlbimdə can verən məhəbbətim var,
Ölüm öncəsi bir darlıq kimi.

Son kəs üzümə gülüb getdin,
Qəlbimdə bu gülüşə bir heyrət var.
Qəlbimdə bu gülüşə bir üsyan var,
Ayrılıq öncəsi haqsızlıq kimi.
11.05. 2012.

## GÖRÜŞÜMƏ GƏLMİSƏN

Görüşümə gəlmisən yenə bu axşam,
İstəyirəm aramsız hey sənə baxam.
Ürəyinə, beyninə, fikrinə axam,
Sevgini, duyğunu səndən oxuyam.

Gözlərində bir həyat, gözəl bir yaşam,
İstəyirəm ömrümü sənlə yaşayam.
Sən varsan bu həyatda, mən bəxtiyaram,
Varlığınla gözəlim, bil mən də varam.

Axı həyat yolunda mən sənə yaram,
Məndən ayrı gəzmə sən, sızlayar yaram.
Sevgi olub üstünə göydən yağaram,
Səni eşq dünyasında mən yaşadaram.

Zaman keçir, danışırıq aram-aram,
Bu görüşün sevincini yaşayıram.
Özümü də hamıdan xoşbəxt sayıram,
Sən hey mənə baxırsan, mən bəxtiyaram.
20.03.2013.

GÖZƏL QIZ

Gözəl qız bir çiçəksən,
Çiçəklərdən göyçəksən.
Bir dəfə mənə baxsan,
Qəlbini verəcəksən.

Bizim dağlara gəlsən,
Çəməndən güllər dərsən,
Saçlarına bir düzsən,
Sən hamıdan gözəlsən.

Məni məndən alarsan,
Qəlbimə yurd salarsan,
Etibarın könlündən
Sevgi gülün dərərsən.
15.04.2013.

GÖZLƏYİRƏM

Gözlərim yol çəkir, fikirlər – fikirləri,
Gözlərimin önündə sevdiyimin gözləri.
Xəyalən gəzirəm mən gəzdiyimiz yerləri,
Görən duya bilərsənmi qəlbimdəki səsləri.

Izləyirəm günəşin doğduğu üfüqləri,
Cismim burda olsa da, xəyalım yanındadır.
Düşünürəm gedərkən söylədiyin sözləri,
Bilirəm ki, mənim yerim elə sənin
qəlbindədir.

Sayıram bitməyən uzun – uzun günləri,
Sanki zaman dayanmış ayrılıq başlayalı.
Xəyalınla söhbətim yola verir günləri,
Təkrar görüşümüzə bəslərəm ümidləri.

Çəkilməz ayrılığın çox acıdır ağrıları,
Həsrətlə gözləyirəm dönəcəyin zamanı.
Silə bilmirəm artıq gözümdəki yaşları,
Gəlişinlə gözümdən axsın sevinc yaşları.
18.07.2013.

## G Ü L Ə R

Bir gözəl gördüm gözündən gülər,
Xəfifdən danışar, astadan gülər.
Anası ad qoymuş qızına Gülər
Hər məni görəndə üzümə gülər.

Danışdığı hər sözdə bir məna gülər,
Qəlbindəki hissləri qəlbimə gülər.
Gülərkən üzündə bir günəş gülər,
Bağçadan dərdiyi gülləri gülər.

Doğuşdan taleyi üzünə gülər
Bəxti açıq olar, həyatı gülər.
Xoşbəxt həyatına baxıb o gülər
Ömrünün günləri Gülərlə gülər.
13.04.2012.

## H Ə S R Ə T

Səndən ayrı olduğum hər anın adı həsrət,
Səni uzaqdan sevməyin özü bir məharət.
Sevginin özü həyatımdan daha sərt,
Qəlbimi odlayan sevginin səbəbi həsrət.

Ayrılığı yaşamaq özü bir məharət,
Gözlərim önündə sən bir xəyalət.
Yuxularımda belə sən bir həqiqət
Xəyalınla yaşamağın səbəbi həsrət.

Məsafələr uzaqsa qəlbimdə var dəyanət,
Ürəklər bir vurursa möhkəmdir bu məhəbbət.
Etibarın eşqində taparsan sən səadət,
Sənlə qovuşmamağın səbəbi həsrət.
15.03.2012.

## X Ə Y A L L A R I M

Qalmışam baş-başa xəyallarımla,
Fikirlər başımda dumanlı, tutqun.
Görən gün doğarmı arzularıma,
Arzular qəlbimdə sakit və susqun.

Bəzən sözlər gəlir hayla-harayla,
Yazmaq istəyirəm, fikirlər dolğun.
Qəlbim hissləriylə, duyğularıyla,
Gələn sözlərimlə daha da olğun.

Doğuluram həyata yeni şerlərimlə,
Şersiz duyğular daha da solğun.
Səslənsin hisslərim qoy nəğmələrlə,
Daha da ürəkli, daha da coşqun.
18.04.2013.

XƏBƏRİ YOXDUR

Bir xumar gözlünün, şirin sözlünün,
Oduna düşmüşəm, xəbəri yoxdur.
Hər səhər, hər axşam keçdiyi yolun,
Üstündə durmuşam, xəbəri yoxdur.

Nazlı baxışların, qara gözlərin
Baxışın arayıb, dərdin çəkirəm.
Narın yerişinin, şux qamətinin,
Dəlisi olmuşam, xəbəri yoxdur.

Onsuz ötüb keçən acı günlərin,
Xəstəsi olmuşam, xəbəri yoxdur.
Xəyalıyla etdiyim söhbətlərin,
Yorğunu olmuşam, xəbəri yoxdur.

Hər gün səslədiyim, cəsarətimin,
Ondan qorxub qaçdığını görürəm.
Taleyində yazılmış yazısının,
Adı mən olmuşam, xəbəri yoxdur.
07.10.2013.

## İKİ SEVGİ

Durmuşam iki yol ayırıcında yalqız,
Bir yolda şeirlərim birində sevdiyim qız.
Bir könüldə dayanmış iki sevgi üzbəüz,
Hansı daha qısqancdır–şeirlərim, yoxsa qız.

Şeirlərim təkliyə, qız görüşə səsləyir,
Iki hökmdar ilə ürəyim bacarmayır.
Bu sevgilər köksümə heç cürə sığışmayır,
Sevdiklərim sevgimi heç biri paylaşmayır.

Biri ruhuma hakim, biri tam varlığıma,
Hər ikisi yerləşmiş beynimə, ürəyimə.
Biri məhkum eyləyir bir kağız və qələmə,
Biri məni səsləyir çox sirli bir aləmə.

Görən şeir axarın özünə çəkərmi qız,
Qısqanclığın zəncirin qırıb atarmı bu qız,
Deyərmi ki şeirləri sən mənə yaz yalnız,
Durmuşam iki yol ayırıcında yalqız.
27.05.2013.

## KÖNLÜMLƏ SÖHBƏT

Dedim, könlüm, gəl söhbət edək,
Bir az mən səni, bir az sən məni
Dinləyək, anlayaq, bir az bölüşək:
Sevinci, kədəri, həsrəti, sevgini.

Söylə, unutdunmu keçən günləri,
Birgə ağlayıb, birgə gülməyi.
Mənimlə bərabər onu sevməyi,
Yaşanan sevginin xoş anlarını.

Dəli könlüm, unudulduq bərabər,
Uzun gecələri səhər etdik bərabər.
Batan ayı, doğan günü izlədik,
Açılan hər səhərdə sevinmədik bərabər.

Dayan könlüm, bəlkə sevdik yenidən,
İçin dolub-daşsın yeni sevgidən.
Etibara pay verərsən yeni fərəhdən,
Xoşbəxtlik nəsibimiz olar həyatdan.
12.08.2013.

## KAMANIN SƏSİ

Bir kaman ağlayır Habil əlində,
Mənim də kamanım yarın əlində.
Ağladır, sızladır hər pərdəsində,
Görən yorulmazmı yar cəfasında.

Kamanın səsi hələ qulaqlarımda,
Könlümün simləri yar mizrabında.
Çalır pərdə-pərdə öz havasında,
Görən yorulmazmı yar cəfasında.

Çalınan musiqi sanki ruhumda,
Qəlbimlə, duyğumla eyni havada.
Nazlı yarım qoydu məni fəraqda,
Görən yorulmazmı yar cəfasında.

Habil sevgisindən çalır kamanda,
Səslənir qəlbimdə çalan kaman da.
Etibarın bu yorulmuş vaxtında,
Görən yorulmazmı yar cəfasında.
23.04.2013.

## L E Y L A

Gülüşündə min bir məna,
Qaşlar qara, gözlər ala,
Ağlımı başımdan ala
Gülər üzlü, gözəl Leyla.

Könlümün tellərin çala,
Ürəyimə məskən sala.
Kaş ruhuma həmdəm ola,
Şirin sözlü, gözəl Leyla.

Kölgəsində kölgəm qala,
Yollarında izim qala,
Sevgisindən közüm qala,
Sevgi dolu gözəl Leyla.

Ürəyində sevgim ola,
Xəyalında rəsmim ola,
Kaş dilində adım ola,
Həyat dolu gözəl Leyla.
10.04.2013.

## M Ə S A F Ə

Sevgi dediyin bir məsafədir,
Bir ucunda sən, bir ucunda mən,
Fikirlər, xəyallar bir məsafədir,
Bir ucunda sən bir ucunda mən.

Döyünən ürəklər bir məsafədir,
Hisslər, duyğular bir məsafədir,
Həsrət dediyin bir məsafədir,
Bir ucunda sən bir ucunda mən.

Hər sevgi ayrılıqçün bir başlanğıcdır,
Hər ayrılıq sevgi üçün bir başlanğıcdır.
Bunlar arasındakı bir məsafədir,
Bir ucunda sən bir ucunda mən.

Həyat dediyin bir məsafədir,
Bir ucunda doğum, birində ölüm.
Ömür dediyin bir məsafədir,
Bir ucunda sən bir ucunda mən.

Gözlərin baxışı bir məsafədir,
Sözlərin axışı bir məsafədir.
Əllərin tutuşu bir məsafədir,
Bir ucunda sən bir ucunda mən.
14.04.2013.

NAZLI GÖZƏL

Gözlərim həsrət çeşməsi,
Ürəyim eşqin təşnəsi,
Sənsən ömrümün nəşəsi,
Mələk üzlü, nazlı gözəl.

Nəğmə kimi şirin səsli,
Ənbər kimi xoş nəfəsli.
Dodaqları gül qönçəli,
Al yanaqlı, nazlı gözəl.

Saçları gur şəlaləli,
Sərv kimi incə belli,
Xoş əhvallı, şirin dilli,
Tovuz kimi nazlı gözəl.

Ceyran gözlü, xoş ədalı,
Dərdindən başım bəlalı,
Etibarın aşiq halı,
Qeysə bənzər, nazlı gözəl.
10.05.2013.

## N E Y L Ə Y İ M

Həyatın yazılmamış amansız qanunları,
Həyatıma hər zaman təsir edir, neyləyim?
Sevginin, məhəbbətin öz qanunları,
Taleyimə, bəxtimə təsir edir, neyləyim?

Sevdiyimin mənim üçün yazdığı,
Hər anıma, hər günümə biçdiyi,
Sevgimin özünə sərhəd çizdiyi,
Qanunları amansızdır, neyləyim?

Amma gözəl sevdiyim unutmuş bir gerçəyi,
Enimə, uzunuma yazdığı sərt qanunları,
Bir hakimtək sərtliklə verdiyi hökmləri,
Sevgimə təsir edir, çox ağırdır, neyləyim?

Təbiətin daha dolğun, mükəmməl qanunları,
Mənim təbiətimə, şəxsimə daha uyğun olanı,
Allahın bəxt kitabında yazdığı qanunları,
Etibara hər zaman təsir edir, neyləyim?
Mən onu yenə çox sevirəm, neyləyim?
07.10.2013.

NİYƏ SEVDİM

Bir gözəl sevdim, gözləri yaman,
Qəlbimi hər zaman eyləyər talan.
Bir baxışla ruhumu canımdan alan,
Hər sözü – söhbəti, sevgisi yalan
Niyə sevdim bu gözəli ay Allah.

Bu gözəlin qəlbi daşdan bərk imiş,
Bağladığı əhdi tamam boş imiş,
Bu qızın sevgisi bəri başdan yox imiş,
Yalanlar içində özü də itmiş,
Niyə sevdim bu gözəli ay Allah.

Bu gen dünyanı mənə dar edən,
Həyatı, yaşamı bir zindan edən,
Çəkdirdiyi əzabla məni qəmxar edən,
Axan göz yaşımı mənə yar edən,
Bu gözəli niyə sevdim ay Allah.
28.02.2013.

SEVGİ ETİRAFI

Bir gün küçəmizdə rast gəldim sənə,
Alovlu baxışların seltək axdı qəlbimə.
Heykəltək dayanıb baxdım mən sənə,
Nələr söyləyirdi gözlərin mənə?

Sözlərsiz söhbətin etirafınmı mənə,
Eşqindən, sevgindən söz açdı mənə.
Dilim söz tutmayır qarşında yenə,
Necə deyim sevdiyimi mən sənə?

O gözəl gözlərin sorğu-sualdı yenə,
Cəsarətim yox ki, baxım mən sənə.
Bu lal duruşumuzun özüdür bir hekayə.
Ehtiyac varmı məgər sözlər deyim mən sənə.
10.02.2013.

SEVGİ HARAYI

Gəzirik sahildə xeyli zamandı,
Dinləyirik ləpələrin həzin səsini.
Bir də bir-birimizin səssiz səsini,
Döyünən ürəklərin öz bəstəsini.

Baxırıq bitməyən sonsuz üfüqə,
Dənizin parlayan mavi səthinə.
Gözlərimiz danışır üfüqlərdə,dənizdə,
Sevgimizə şahiddir bu qocaman dəniz də.

Dənizin üstündə şən qağayılar,
Dənizə sevgidən çəkər haraylar.
Mən həm dənizə,həm qıza aşiq,
Qəlbim öz sevgisinə sevgi haraylar.

Bitməsin bu anlar, dursun zamanlar,
Bu sözsüz söhbətə azlıq edir kəlmələr.
Etibarın könlündə cuşa gəlir nəğmələr,
Sevgilimin gözündə bitməsin qoy sevgilər.
06.06.2013.

SEVGİMƏ İNAM

Bu gün bütün sevincimin silinib sərhədləri,
Sevdiyimin qəlbində yoxdur tərəddüdləri.
İnamla baxır artıq onun qara gözləri,
Su kimi içir artıq söylədiyim sözləri.

Gözlərindən silinib sevgimizin özləmi,
Danışan baxışları dağıdır şübhələri.
Sevinclə söyləyirəm bitməyən bu sevgimi,
Bir həyat qaynağıtək dinləyir şerləri.

Yazmaqla tükənməyir bu eşqin hekayəti,
Sözlərim açıqlayır qapalı mahiyyəti.
Sevgilərlə bəzənir insan mənəviyyatı,
Qara gözlü gözələ yazıram məhəbbəti.

Dinləyir bir nəğmətək yazılan şerləri,
Bəxtəvər simasında əks edir məhəbbəti.
Baxışlarım leysantək bürüyüb o afəti,
Etibar alır artıq sevgidən mükafatı.
04.06.2013.

SƏBƏBSİZ AYRILIQ

Bu səhər səbəbsiz ayrıldın məndən,
Səbəbsiz ayrılıq xoş gəldi səndən.
Qarşıladım onu candan, könüldən,
Qərarı sən verdin, alqışlar məndən.

Gedişin qəfildi, çaşdım hökmündən,
Sevgimizə ölüm fərmanı səndən.
Zamanlar durmuş sanki səhərdən,
Danışa bilmirəm artıq qəhərdən.

Dönmək istəsən də getdiyin yerdən,
Əlini üz artıq mənim sevgimdən.
Üzr dilərsən artıq göz yaşlarımdan,
Ağrıdan, acıdan yanan könlümdən.

Etibar heykələ dönmüş heyrətdən,
Gedişin olsa gərək hansısa bir səbəbdən,
Danışma artıq mənə hər bəhanədən,
İstəmirəm sevgini həyatda, təkcə səndən.
27.06.2013.

ŞAM İŞIĞNDA

Danışırıq səninlə şamların işığında,
Alovların şöləsi bizim gözlərimizdə.
Birgə vuran ürəklər həmahəng döyüntüdə,
Danışırlar gözlərlə sevginin öz dilində.

Sevgimizə ətir saçır masadakı güllər də,
Ləçəklərdə əks edir alovların rəqsi də.
Sanki görüşümüzə gətirirlər rəngi də,
Birləşən əllərimiz danışır öz dilində.

Sevgimizdən danışır çalınan musiqi də,
Qəlbimizin səsilə səslənir bir ahəngdə.
Dinləyirik nəğməni hər iki ifaçıda,
Etibarın bu görüş yaşayacaq qəlbində.
02.07.2013.

## Ü R Ə K

Köksümü dağıdıb,çırpınan ürək,
Həm ruhun,həm cismin məskəni ürək,
Gördüyüm nə varsa beynimdə şəkli,
Mənası, söhbəti səndədir ürək.

Sevgilər, nifrətlər, hirslər, qəzəblər,
Yaşanan sevinclər, qəmlər, kədərlər,
Dünyadan zövq alan gözəl duyğular,
Sənin içindədir, ey böyük ürək.

Necə xəlq eyləmiş səni Yaradan,
İmzasın ürəkdə yazmış Yaradan.
Bu böyük dünyanı sənə sığdırmış,
Sənisə mənim köksümə, ürək.

Ağrılar,acılar səndə saxlanır,
Unudulmaz sevgilər səni ağladır.
Etibarı insanlara bağlayır,
Yaradılmışların şahı,ey ürək.
17.06.2013.

## TƏBİƏTİ SEVİRƏM

Mən dağları sevirəm,zirvəsində qarı var,
Dumanların dağ başında yeri var.
Buludların üstündəyağacaq yağışı var,
Meşələrin dağlara çox gözəl naxışı var.

Mən qartalı sevirəm,qayalarda yeri var,
Aslanların,qaplanların ormanlarda yeri var.
Güllərin,çiçəklərin çəmənlərdə yeri var,
Qocaman ağacların meşələrdə yeri var.

Qaranquşu sevirəm,bahardan müjdəsi var.
Bülbüllərin güllərə sevgidən nəğməsi var.
Pərvanənin alovlarda alışıb yanması var,
Kəpənəyin çəmənzarda,çiçəklərdə yeri var.

Qızılgülü sevirəm,peyğəmbərin adı var,
Lalənin yanağında simsiyah xalları var.
Boynubükük bənövşənin kol dibində yeri var,
Utancaq nərgizlərin bağçalarda yeri var.

Dənizləri sevirəm,dibində gövhəri var,
Ləpələrin,dalğaların dənizə bəzəyi var.
Sahillərin nazlanan ləpələrlə sözü var,
Tufanın,qasırğanın dənizdə qüdrəti var.

Yaradanı sevirəm,böyük bir nizamı var,
Təbiətin mükəmməl,gözəl bir ahəngi var.
Şəlalənin dağlarda başqa gözəlliyi var.
Gur çayların dərələrdə goşğulu axışı var.

İnsanları sevirəm,bu dünyada yeri var,
Ürəklərin,duyğuların insanda öz yeri var.
Fikirlərin,xəyalların beyində öz yeri var,
Yaşanan bu həyatın ömürdə öz yeri var.

Mən günəşi sevirəm,sevinci,fərəhi var,
Kəhkəşanda ayın,ulduzların yeri var.
Bəmbəyaz qəmərin zülmətdə işığı var,
Dan ulduzun açılan sabahdan xəbəri var.
03.03.2012.

## Y A Ğ I Ş L A R

Baxırıq göy üzünə, dolmuş buludlar,
Görünür yağacaq yenə güclü yağışlar.
Durmusan yanımda, gözlərində buludlar,
Bir sözümə bənd kimi, yağacaqdır yağışlar.

Fikrində şübhələr, yanlış olan xəyallar,
Bilirəm, inanmırsan yersizdir çox suallar.
Sənə yalan görünür verilən bu cavablar,
Bir sözümə bənd kimi yağacaqdır yağışlar.

Düşünürəm, neyləyim, silinsin gözlərindən,
Lazımsız şübhələr, yersiz dolan buludlar.
Nə deyim yenə də gülsün küskün könüllər,
Qovuşsun yanan ürəklər, tutuşsun əllər.

Allahım yardım et, sənə bütün ümidlər,
Qoy yağsın leysantək yenə yarın üstünə,
Etibarın qəlbindəki bitməz, sönməz sevgilər,
Bir sözümə bənd kimi yağacaqdır yağışlar.
20.09.2013.

## S E V G I

Sevgi -Yaradanın bir hədiyyəsi,
İlahi ruhunun insandaki ifadəsi,
Ona olan sevginin bizdəki ifadəsi,
Ürəyə qüvvət verən çox güclü iradəsi.

Sevgi -qəlbimizə atılan böyük imzadır,
Doğuşdan məzaradək orada qalacaqdır.
Adını qəlbə yazan qəlblərdə olacaqdır,
İmza sahibi Tanrı insanda yaşayacaqdır.

Sevgi ürəyin həyata, ömrə vurduğu naxış,
Gözlərin qəlblərə, ürəklərə baxdığı baxış.
Sevincdən, fərəhdən gözlərdən axan yağış,
Ayrılıqdan, həsrətdən olan acı ağlayış.

Sevgi yaşam həvəsi, könüllərin qidası,
Yaşamaq, yaşatmaq, yazmaq həvəsi.
Güllərin budağında bülbüllərin nəğməsi,
Pərvanənin alovda yanıb külə dönməsi.

Sevgi ən gözəl sənətin çağıran səsi,
Tarın, kamanın təranəsi,bəstəsi,
Ürəklərin nəşə, sevinc dolu nəğməsi,
Çəkilən tabloların bir əfsanəsi.
10.06.2014.

ÇƏKİL DUMAN

Çəkil duman, gəl bürümə dərələri, dağları,
Çəkil,yol ver, qoy gülsün üzümə gözəl təbiət.
Gözlərim oxşasın başı qarlı, uca dağları,
Üzəri buz bağlamış dəli, dolu çayları.

Çəkil duman, sıxma, üzmə kövrək ürəyimi,
Çəkil, qoy dillənsin incə, zərif hisslərim.
Təbiətlə həmahəng deyim nəğmələrimi,
Köksümə sığmayan odlu şeirlərimi.

Bir gözəlin sevdasından başım dumanlı,
Ona baEtibarxan gözlərim fikirli, həm
xəyallı.
Çəkil başımdan, qoy açılsın tutqun gözlərim,
Məni sevəcəyinə axı qəlbim gümanlı.

Çəkil duman, qısqanma təbiətin gözəlliyini,
Sən suların zərrəsisən, təbiətin cilvəsisən.
Sən sevdamın dumanısan, sən sevgimin
cilvəsisən,
Etibaram, sən gəl mənə qısqanma bu
gözəlliyi.

19.03.2015.

DUYĞULAR DINSIN

Gəl, gəl ki, könlümdə duyğular dinsin,
Bu susmuş ürəyim səninlə  gülsün.
Yazım sevgimizə gözəl şeirlər,
Həzin nəğmələrim şerə düzülsün.

Gəl, gözlərim baxsın gözəl üzünə,
Baxsın gözəl gözlərin mənim gözümə.
Yenə incə duyğular axıb üzündən,
Ələnsin bu yanan ürək közümə.

Yaşayaq sevgini, ömür qısadır,
Hər ana sevgidən bir naxış vuraq.
Bu həyat, bu ömür, sevgi bizimdir,
Tutum əllərindən, yollar bizimdir.

Gəl, coşsun hisslərim, tüğyan eləsin.
Başımda eşq havası, könlümdə sevdan
Bütün varlığımda bayram eləsin,
Etibar səni, ömrünə yar eləsin.
15.01.2015.

E Ş Q

Eşqi dərin ümman sandım,
Sərin sularında üzdükcə üzdüm.
Nə qədər üzsəm də saf sularında,
Çata bilmədim ki, dərinliyinə.

Eşqi çağlayan bulaq sandım,
Ciyəri təşnətək içdikcə içdim.
Nə qədər içsəm də sərin suyundan,
Doya bilmədim ki,susuzluğumdan.

Eşqi sonsuz göylər sandım,
Səmasında süzdükcə süzdüm.
Nə qədər qalxsam da yüksəkliklərə,
Çata bilmədim ki, ənginliklərə.

Eşqi hisslərimin zirvəsi sandım,
Həzin duyğulara daldıqca daldım.
Nə qədər dalsam da duyğularıma,
Çata bilmədim ki, duyğularına.

Səni ürəyimin içində sandım,
Gözəl xəyalına baxdıqca baxdım.
Qəlbimdə olsan da həsrətəm sənə,
Çata biltibarmədim ki,heç zaman sənə.

Eşqi yaşamağın səbəbi sandım,
Etibaram,dönüb qəlbimə baxdım.
Nə qədər yazsam da sənin eşqinə,
Çata bilmədim ki,son sətirinə.
05.12.2013.

G Ə L

Gəl, darıxır yenə sənsiz gözlərim,
Gəl, ağlayır içimdəki həsrətim.
Gəl danışsın qəlbimdəki hisslərim,
Yenidən könlümdə coşsun sözlərim.

Bax gözlərimə qəlbim döyünsün,
Məni bu sevginin odu bürüsün.
Hisslərim al-əlvan rəngə bürünsün,
Yazım, nəğmələrim səni bürüsün.

Bax üzümə, yenə gözlərin gülsün,
Qoy güllər-çiçəklər üzündə gülsün.
Sözlər yenə misralara düzülsün,
Hər sözüm yarımın səsində gülsün.

Gəl, gülər üzlüm, həsrətim bitsin,
Ayrılıq dumanı çəkilib getsin.
Başımda sevdan var, qəlbimdə əksin,
Etibar uzaqda sənsiz neyləsin.
11.11.2014.

NƏSİMİ

Tanımaq istəyirəm səni,
böyük Nəsimi,
Oxuyuram kitabından şeirləri,
qəzəlləri,
Haqqında yazılan böyük-böyük əsərləri:
Sən "şeirin Allahı"san*, Sən "Hələbin
yaqutu"san.**
İzlədikcə "Nəsimi"ni mən Rasimin ifasında,
Canlanırsan özün kimi gözlərimin qarşısında.
Nə odlu misralar,
nə həqiqətlər,
böyük sevgilər...
O qaynar ruhundan mənim qəlbimə axdı,
süzüldü.
Hürufilik fəlsəfəsin
Nəimidən öyrənərək,
Hürufizmin poezyasın,
şeiriyyətin yaratdın.
Böyük, yeni bir mərhələnin təməl daşın
qoyaraq –
Doğma ana dilimizdə şeiriyyətin yaratdın.
Sən gözəllik nəğməkarı,
sən məhəbbət əsərisən.
Həm qəlbinlə,
həm ruhunla Yaradanın öz səsisən.
"Sığmazam"la bəyan etdin həm Allahı, həm
özünü:
"Kəs sözünü və əbsəm ol, şərhü bəyanə
sığmazam".
Çox sevirdin Yaradanı,
peyğəmbəri, Əlini,
Nə gözəl vəsf eyləmisən peyğəmbəri, Əlini:

“Könlümü qıldı münəvvər,
mehrimanımdı Əli,
Qibləgahımdır Mühəmməd,
səcdəgahımdır Əli”.
Böyük həqiqət yolunun qəhrəmanlıq
yolçususan,
Amalından heç dönməyən bir şəhidlik
zirvəsisən.
Soysalar da dərini hayqıraraq,
Haqq mənəm, haqq məndədir, haqq söylədin.
Qəzəllərdə sən Seyidsən,
Hüseynisən, Nəsimisən.
O zamandan bu zamana əsən sərin
nəsimmisən?
Ey Nəsimi,
həm dünənsən,
həm bu günsən,
həm sabahsan,
Keçmişlərdən gələcəyə dayanmadan
əsəcəksən.
“Mən əbədiyyət üfüqündə doğan Günəşəm”,
dedin.
Nur saçırsan qəlbimizə,
heç bir zaman sönməz şair.
Etibaram, qüdrətinə,
tərifinə yetməz sözüm,
Həqiqətdən, əqidəndən,
amalından dönməz şair.
10.11.2019.

* Əbdülrəhman Cami - Böyük taçik şairi, musiqişünası, filosof və alimi. (1414-1492).

Bir şeir xiridarı Əbdülrəhman Camidən şeir mülkünün peyğəmbərlərinin kimliyini soruşur. Cami Firdovsini, Sədi

Şirazini, Hafiz Şirazini, Xəyyamı, Cəlaləddin Rumini nişan verir. Şeir xiridarı təəccüblə "Bəs Nəsimi?", - deyə soruşur. Cami soyuqqanlılıqla "Sən şeir Allahını soruşmadın axı", - deyə cavab verir...

Müdafiə nazirliyinin xəbər saytı

** Əbdülfəttah Rəvvas Qələçi - ərəb alimi və yazıçısı. Nəsimi haqqında ilk əsəri yazıb, onu ərəb dünyasında əbədiləşdirib. Nəsimini Hələbin yaqutu adlandırıb.

## H E K A Y Ə L Ə R

### EŞQIN HEYKƏLI

Xəyal bu gün çox həyəcanlı idi, sabahki sərginin son tamamlama işləri gedirdi. Dostu Səid sərginin mükəmməl təşkili üçün əlindən gələni etmişdi. Xəyal kimi istedadlı bir heykəltəraşın yanında olmaq, onun işlərinə nəzarət etmək ona qürur verirdi. Xəyal ona yaxınlaşıb:

- Səid, sabah mənim həyatımın dönüş nöqtəsi olacaq, hər şeyin mükəmməl olmasını istəyirəm.

- Qardaşım, işlər bitsin, son dəfə özün bir də gözdən keçirərsən. İnan ki, sənin yerinə mən daha çox həyəcan keçirirəm. Dəvət olunan insanlara özüm şəxsən zəng eləmişəm. İnşaallah sabah həyatının unudulmayacaq bir günü olacaq. Çinarəni də özüm gedib gətirəcəm.

Beş il əvvəl Xəyal orta məktəbi bitirib sənədlərini Moskva Dövlət Mədəniyyət və İncəsənət universitetinin Heykəltəraşlıq ixtisasına vermişdi və yüksək balla qəbul olunmuşdu. Xəyal ucaboy, əsmər bənizli, iri, qara gözlü, qətiyyətli baxışları olan, sivri burunlu, arıq bir oğlan idi. Sinif yoldaşı və sevgilisi Çinarə isə sənədlərini Azərbaycan Xarici Dillər universitetinə vermişdi və qəbul olunmuşdu. Hər ikisi Bakıda, qonşu məhəllələrdə doğulmuşdular. Çinarə orta boylu, ağ bənizli, qara, uzun və gür saçlı, ağıllı, qara gözlü bir qızdı. İmtahanlardan sonra tez-tez görüşürdülər, bərabər xeyli vaxt keçirirdilər. Bu gün də Dağüstü Milli Parkda görüşdülər. Hava çox isti olduğu üçün gəzinti qayığına mindilər. Dənizin sərin küləyi Çinarənin uzun, gür saçlarını Xəyalın üzünə toxundururdu. Xəyal həm dənizin, həm də Çinarənin saçlarının ətrini içinə çəkib gözlərini yummuşdu. Çinarə təbəssümlə ona baxdı:

- Deyəsən yuxun gəlir.

Xəyal gözlərini açıb:

- Hə, doğrudan da elə bil yuxudayam, - dedi. Sən yanımdasan, saçlarının, dənizin qoxusu, sərin külək, özümü lap cənnətdə hiss elədim.

- Hə, Xəyal, elədi, ətrafda hər şey o qədər gözəldir ki, sən də yanımdasan, daha həyatdan nə istəyim ki.

Xəyal onun gözəl üzünə, sevgi dolu parlaq gözlərinə baxıb asta səslə:

Baxırıq bitməyən sonsuz üfüqə,
Dənizin parlayan mavi səthinə.
Gözlərimiz danışır üfüqlərdə, dənizdə,
Sevgimizə şahiddir bu qocaman dəniz də.

Çinarə sevgi dolu gözlərini ondan çəkmədən:

- Sənin yanında özümü o qədər sakit, rahat hiss edirəm ki, Xəyal, bu saatların bitməsini heç istəmirəm.

Gəmi sahilə çatıb dayandı, Xəyalla Çinarə gəmidən düşüb, bir az da sahildə gəzdilər. Çinarə ona baxıb bir az qüssəli:

- Sentyabrda sən Moskvaya gedəcəksən, mən isə sənsiz bu boş qalmış şəhərdə günləri sayacam.

- Hə, elədi, amma sanılı günlər tez bitər, həm də bayramlarda gələcəm da, təyyarə ilə iki saatlıq yoldu, üstəlik hər gün zəng də eliyəcəm.

- Amma, sən oralarda sarışın rus gözəllərinə baxma ha.

- Baxsam da, gözlərim səndən başqasını görməz ki, o rus qızlarının hamısı sənin bir baxışına belə dəyməz.

Çinarə nazla onu süzüb yoluna davam elədi. Bir az daha gəzdilər, çay içdilər sonra Xəyal onu evlərinə yola saldı.

Avqustun axırları idi, Xəyal Çinarəyə zəng eləyib iki gün sonra Moskvaya gedəcəyini, görüşmək istədiyini dedi. Çinarə günortadan sonra dəniz kənarına düşəcəyini söylədi. Saat 3-4 arası həmişəki yerdə görüşdülər, xeyli söhbət elədilər. Çinarə:

- Bax, çatan kimi zəng elə ha, nigaran qalaram, bəs orda harada qalacaqsan?

- Universitetin yataqxanasında, sən narahat olma, orada qohumlarımız da var.

İki gün sonra Xəyal Moskvaya getdi, qalacağı yataqxanada yerini rahatladı, otaq yoldaşları ilə tanış oldu. Axşama tərəf Çinarəyə zəng eləyib hər şeyin qaydasında olduğunu söylədi.

Dərslər başlamışdı, Xəyal başarılı bir heykəltəraş olmağı o qədər çox istəyirdi ki, kirayə götürdüyü emalatxanada gecə yarıya qədər çalışırdı. İstedadlı heykəltəraş olan müəllimlərindən öyrəndiklərini sönməz bir həvəs və inadla emalatxanada gipslərlə, gillərlə düzəltməyə çalışırdı. Verilən tapşırıqları o qədər başarıqla yerinə yetirirdi ki, tezliklə universitetdə tələbələr və müəllimlər arasında yaxşı hörmət də qazanmışdı.

Aradan yarım il keçmişdi, bir gün müəllimlərindən biri dərsdə dedi ki, uşaqlar şəhərdəki sərgi qalereyalarının birində istedadlı gənc rəssamların və heykəltəraş- ların əl işlərindən ibarət müsabiqə olacaq. Özünə güvənənlər iştirak edə bilərlər, nə kömək lazım olsa çəkinmədən müəllimlərinizə yaxınlaşa bilərsiniz. Müsabiqənin sonunda sərgidəki əsərlərin satışı da təşkil olunacaq. Xəyal da başqa gənclərlə bərabər qeydiyyatdan keçib, bir neçə əsəri ilə müsabiqəyə qoşuldu. Bir ay sonra yer tutanların arasında onun da adı var idi. Zəng eləyib Çinarəyə də bu uğurunu söyləmişdi.

Çinarə də, universitetdə dərslərə davam edirdi, Xəyalla tez-tez danışsa da, çox darıxırdı. Xəyala yazmışdı ki, yaxın vaxtlarda kompüter alacam, ondan sonra skupe ilə danışarıq.

Birinci kurs ərzində Xəyal Bakıya ancaq bir dəfə Novruz bayramında gələ bilmişdi. Çinarə ilə o ki var şəhərdəki tədbirləri gəzmişdilər. Sonra yay tətilində görüşdülər. Bütün yayı bərabər keçirdilər. Bir gün Xəyal ona demişdi:

- Çinarə, bəlkə anamgili elçi göndərim, bir üzük gətirsinlər.

- Niyə tələsirsən ki, universiteti bitirək sonra.

- Nə bilim, dedim yəni ailəlikcə get gəlimiz də olsun.

- Tələsmə, Xəyal, sonuncu kursda nişanlanarıq.

- Necə istəyirsən.

İkinci kursda Xəyalı universitetdə artıq hamı istedadlı bir heykəltəraş kimi tanıyırdı. O, artıq bir çox sərgilərdə iştirak edirdi, bir neçə qalereyalarda əsərləri daim olurdu.

Yeni ilə az qalırdı, Çinarə Xəyalın Bakıya gəlməsini, yeni ili onunla birgə qarşılamasını istəyirdi. Bu barədə Xəyala da demişdi, o da söz vermişdi ki, mütləq gələcəm. Bir gün dərsdən sonra Çinarə dayanacaqda avtobus gözləyirdi, hava çox soyuq və küləkli idi. Bir neçə gün əvvəl yağan qar bir az ərisə də, yollar çox sürüşkən idi. Avtobus dayanacağa yaxınlaşdı, gözləyənlər maşının qapısına tərəf axışdı, Çinarə də onların arasında idi. Camaat basabasla avtobusa mindilər, Çinarə minə bilmədi. Avtobus yerindən tərpəndi, Çinarə səkiyə çıxmağa macal tapmamış arxadan gələn maşın sürüşüb onu vurdu. Maşının sürücüsü cəld düşüb ona yaxınlaşdı, camaat da başına yığıldılar. Çinarə isti-isti ağrını hiss etmirdi, sürücü onu maşına qoyub cəld xəstəxanaya sürdü. Onu təcili əməliyyata götürdülər, sonra nələr olduğunu bilmədi.

Tibb bacılarından biri onun çantasından telefonunu götürüb anasına zəng edib vəziyəti demişdi. Çinarə gözlərini açanda anası Almaz xanımla atası Əhməd kişi və qohum-əqrəbası yanında idilər. Polis də gəlmişdi - Çinarədən izahat almağa. Çinarə olanları danışdıqdan sonra atası polisə şikayətçi olmadıqlarını, əməliyyatın bütün xərcini sürücünün çəkdiyini, Çinarəni xəstəxanaya onun gətirdiyini söylədi.

Almaz xanım uşaq bağçasında müdürə, Əhməd kişi isə Statistika idarəsində işləyirdi.

Əməliyyatdan bir neçə gün keçmişdi, yeni ilə 3 gün qalmışdı, Çinarə hələ də Xəyala zəng edib vəziyyəti deməmişdi. Bu gün atası həkimlə danışıb onu nə zaman evə apara biləcəklərini soruşmalı idi. Çinarə Xəyalın davamlı gələn zənglərinə cavab vermək istəmirdi, içindən bir hiss onu

danışmağa qoymurdu. Bir yandan da onurğasındakı əməliyyatdan sonra hələ də ayaqlarını tərpədə bilmirdi. Həkimdən dəfələrlə soruşsa da, dəqiq bir cavab ala bilməmişdi.

Səhər saat 11 olardı, atası ilə anası gəldilər, onunla görüşüb həkimin yanına getdilər. Çinarənin vəziyyəti barədə həkimlə bir xeyli söhbət etdilər, onun nə zaman ayaqlarını tərpədə biləcəyini, nə zaman ayağa qalxacağını bilmək istəyirdilər.

Həkim orta yaşlarda, xaricdə təcrübə keçmiş bir kişi idi. O, əlindəki rentgen kağızını Əhməd kişiyə uzatdı, əli ilə onurğadakı zədəni göstərib:

- Baxın, bu zədə qızınızın ayaqlarını iflic etmişdir, biz fizioterapik müalicələri davam edəcəyik, yəni əlimizdən gəldiyi qədər onu qaldırmağa çalışacağıq, Allahdan ümid kəsilməz.

Almaz xanım səssizcə ağlayırdı, qızına bu vəziyyəti necə izah edəcəyini bilmirdi.

Həkim Almaz xanıma baxıb:

- Çinarəni sabah evə apara bilərlərsiniz, amma bayramdan sonra müalicəni davam etdirmək üçün təkrar xəstəxanaya gətirməlisiniz. Hələlik qızınıza heç nəyi bildirmiyin, psixoloji durumu bir az düzəlsin, sonra vəziyyəti izah edərik.

Səhərisi gün valideyinləri Çinarəni evə gətirdilər. Ona bir müddət ayağa qalxa bilməyəcəyini söylədilər. Çinarə evin tək uşağı olduğuna görə ata-anası onu hər zaman əzizləmişdilər. O, ata- anasının onun üstündə necə əsdiklərini bilirdi. Ona görə də bacaqdığı qədər üzüldüyünü gizlətməyə çalışırdı. Bir yandan da Xəyala heç nə bildirmək istəmirdi, ona görə də, onun zənglərinə cavab vermirdi.

Çinarənin bu səssizliyi Xəyalı əməlli-başlı narahat eləmişdi. O, dostu Səidi yığıb:

- Səid, neçə gündü Çinarə telefonu açmır, zənglərimə cavab vermir, sən bir ona zəng elə, ya da evlərinə get, mütləq mənə bir xəbər de.

- Narahat olma, Xəyal, mən maraqlanıb sənə bir xəbər deyərəm.

Səid də Xəyal və Çinarə ilə bir sinifdə oxumuşdu, ayrılmaz üçlük idilər. Səid İnşaat və Memarlıq universitetində oxuyurdu. Amma O, Xəyaldan fərqli olaraq Çinarəgilə gedib gəlirdi. Onun anası ilə Almaz xanım yaxın rəfiqə idilər. O gün Səid axşama tərəf Çinarəgilə getdi, qapını Almaz xanım açdı:

- Xoş gəlmisən, oğlum, keç içəri, anangil necədirlər?

- Xoş gördük, Almaz xanım, sağ olun yaxşıdırlar, salamları var. Mən Çinarəni görməyə gəldim, neçə gündü zənglərimə cavab vermir.

- Çinarə qəzaya düşmüşdü, xəstəxanada idi, onurğasından əməliyyat olundu.

Səid qonaq otağına keçdi, Çinarə divanda uzanıb kitab oxuyurdu, Səidi görəndə çox sevindi:

- Səid, xoş gəlmisən, nə yaxşı yadına düşmüşəm.

Səid ona bu aralar zəng eləməsə də, Almaz xanım heç nə hiss eləməsin deyə:

- Nə bilim, zənglərimə cavab vermirsən, mən də səbəbini öyrənməyə gəldim.

Çinarə onun nəyə işarə vurduğunu anlayıb, gülümsədi:

- Vəziyyətimi görürsən də, üzürlü sayarsan.

Almaz xanım onlara baxıb:

- Siz söhbətinizi edin, mən də bir çay gətirim, - dedi.

Səid ona baxıb:

- Hə, Almaz xala, yaxşı olar, mən çox üşümüşəm.

Almaz xanım mətbəxə gedəndən sonra Səid Çinarəyə baxıb:

- Xəyal çox nigaran qalıb, niyə telefonu açmırsan?

- Səid, açım nə deyim, mən hələ ayağa qalxıb qalxmayacağımı belə bilmirəm. Onu da üzmək istəmirəm. Amma səndən çox xahiş edirəm, ona heç nə bildirmə.

- Məndən cavab gözləyir, necə yəni heç nə demə.

- Denən ki, getmişdim evlərinə, Çinarə rayona xalasıgilə gedib, görə bilmədim, telefona da niyə cavab vermədiyini bilmirəm, heç mənə də telefon açmır.

Səid bir az düşünüb:

- Çinarə, nə zamana qədər gizlədə bilərsən ki?

- Bilmirəm, Səid, zaman göstərər, amma, hələlik səndən xahişim budur ki, heç nə deməyəsən.

Səid Almaz xanımın gətirdiyi zoğal mürəbbəsi ilə çayı içib durdu:

- Mən daha gedim, Almaz xanım, sağ olun çay üçün.

Almaz xanım onu qapıyadək ötürüb qayıtdı otağa:

- Qızım, nə məsələdi, bəlkə deyəsən mən də biləm.

Çinarə kədərlə anasına baxıb hər şeyi danışdı. Almaz xanım onu axıradək dinləyib:

- Qızım, əvvəl-axır biləcək, gizlətməyin nə mənası var.

- Nə bilim, ana, bir az zaman keçsin, sonra deyərəm, hələ vəziyyətimin necə olacağını özüm də bilmirəm.

Səid Çinarəgildən çıxandan sonra bir xeyli fikirləşdi ki, olanları Xəyala deyim-deməyim. Desəm, Çinarəyə xəyanət olar, deməsəm Xəyala. Hər ikisinin xətrini çox istədiyi üçün heç birini incitmək istəmirdi. Yavaş-yavaş evlərinə tərəf gedirdi, onların evi ilə Çinarəgilin evləri arasında on dəqiqəlik piyada yol var idi.

Axşam televizorda verilişə baxsa da, fikir onu aparırdı. Otaqda onunla üzbəüz oturan atası onun fikirli olduğunu hiss edib soruşdu:

- Oğlum, bir çətinliyinmi var, fikirlisən, desən yardımçı olaram.

Səid ona baxıb:

- Hə, ata, bir işdə iki yolun arasında qalmışam, məsləhətinə ehtuyacım var.

Sonra olanları atasına danışdı. Atası bir qədər fikirləşib:

- Oğlum, dostun Xəyal sirr saxlamağı bacarırmı?

- Əlbəttə, yanında baş da kəssən, səsi çıxmaz.

- Elə isə, sən olanları Xəyala danış, amma, ona de ki, qız özü məsələni açıqlamayana qədər bildiyini üzə verməsin. Ona izah elə ki, Çinarə aranızdakı söhbəti bilməməlidi.

Səid atasına təşəkkürünü bildirib öz otağına keçdi, Xəyala zəng edib olanları danşdı, sonra da:

- Qardaşım, bilirsən, Çinarə bilsə ki, sənə demişəm, məni ömürlük danışdırmaz. Bu sirr ikimizin arasında qalsın. Çinarə nə zaman bir qərara gəlsə, özü sənə zəng edəcək. Amma, sən yenə də ona tez-tez zəng elə, sənə olan ümidlərini qırma.

- Narahat olma, dostum, sağ ol ki, gizlətmədin, neçə vaxtdı nigarançılıqdan özümə yer tapa bilmirdim. Yəqin ki, yeni ili elə burada keçirəcəm, Çinarəni görə bilməyəcəyim üçün ora gəlməyin də mənası yoxdu, ailəmizi də elə buradan təbrik edərəm.

O gündən sonra nigarançılıqdan Xəyalın gecəsi-gündüzü yox idi. Çinarə bir iki dəfə telefona cavab versə də, çox qısa danışmışdı. Xəyal fikrini dağıtmaq üçün dərsdən sonrakı bütün vaxtını emalatxanada keçirirdi. Bir-birindən gözəl və mükəmməl heykəllər düzəldirdi.

Aradan üç ay vaxt keçmişdi, aprel ayı idi, Çinarə növbəti müalicə kursunu götürmək üçün xəstəxanada idi. Bu üç ayda üç dəfə müalicə götürsə də, ayaqlarında heç bir hərəkət yox idi. Bu ərəfədə Türkiyədən bu xəstəxanaya gələn bir həkim də Çinarəni yoxlamışdı, amma ümidverici bir söz deməmişdi. Kursun axırları idi, Çinarənin atası həkimin yanına gəlib müalicənin nəticəsini öyrənmək istəyirdi. Həkim onun üzünə baxıb:

- Bilirsiniz, Əhməd müəllim, biz əlimizdən gələni elədik, burdakı həkimlərlə də məsləhətləşdik, müalicə Çinarənin ümumi durumuna müsbət təsir etsə də, onurğadakı zədənin verdiyi fəsadı aradan qaldırmadı. Belə nəticəyə gəldik ki, qızınız bir daha yeriyə bilməyəcək. Amma, siz onu xaricə də aparın, oralarda da yaxşı həkimlər var, ola bilsin ki, bir köməkləri olar.

Əhməd kişi zərbə almış adam kimi, yerində donub qalmışdı, nə deyəcəyini bilmirdi, nəhayət:

- Mən bu xəbəri qızıma, anasına necə deyim, onların ümidlərini necə qırım?

Həkim nə deyəcəyini, bu dərdli ataya necə təskinlik verəcəyini bilmirdi. Əhməd kişi həkimin otağından çıxıb Çinarənin yatdığı palataya gəldi, Almaz xanım artıq hər şeyi yığıb bağlamışdı, Çinarə də geyinib oturmuşdu. Tibb bacısı Çinarənin istifadə etdiyi əlil arabasını gətirdi. Onlar evə gələndə saat 6-ya qalırdı. Atası darvazanı açıb maşını həyətə saldı. Hava xoş olduğu üçün Çinarə bir az həyətdə oturmaq istədi. Anası ilə atası zənbilləri evə daşıdılar. Bir az sonra anası gəlib Çinarəni də evə apardı. Evdə ürəksıxıcı bir sakitlik var idi, Çinarə bu sakitlikdən bezib atasına baxdı:

- Həkimlə danışdınmı, ata, niyə bu qədər müalicədən sonra ayaqlarımda heç bir hərəkət yoxdur?

Əhməd kişi fikirli-fikirli qızına baxıb düşünürdü ki, daha gizlətməyin mənası yoxdu, gec-tez onsuz da Çinarəyə vəziyyəti deməlidirlər. Ona görə də asta səslə:

- Qızım, sən artıq böyük qızsan, hər bir vəziyyətə real baxa bilirsən, ona görə də səninlə açıq danışacam. Həkim dedi ki, burada sənin müalicən yoxdur, gərək xaricə gedəsiniz. Bir müddət keçsin, pul-para düzəldək, səni Türkiyəyə müalicəyə aparaq.

Çinarə atasına qulaq asdıqca elə bil dünya başına dolanırdı, qulaqları küylə dolurdu. Amma atasının nə qədər üzgün olduğunu görüb özünü toparlamağa çalışırdı. Anası da otağın qapısına söykənib qalmışdı, eşitdiklərinə inanmaq istəmirdi, gözlərindən süzülən yaşları belə silə bilmirdi. Çinarə onlara baxıb sakit səslə:

- Siz niyə üzülürsünüz ki, olacağa çarə yoxdur, qismət belə imiş, alnımıza nə yazılıbsa o da olacaq.

Çinarənin oxuduğu universitetdən ona dinstansion dərs təşkil etmişdilər ki, dərslərindən geri qalmasın, dərsləri kompüter vasitəsilə soruşurdular.

Almaz xanım onun yanında oturub, saçlarını tumarlayırdı, sonra:

- İlk fürsətdə səni mütləq Türkiyəyə apararıq, inşaallah orda müalicə götürərsən.

Xəyal isə iki gündən bir Çinarəyə zəng eləyirdi, qısa da olsa danışmağa çalışırdı. Çinarənin əlil arabasına bağlı qalacağını fikrinə belə gətirmək istəmirdi. Daha əvvəlki kimi deyib-gülən, zarafatcıl deyildi, bu 3-4 ayda elə bil on il qocalmışdı. Bütün fikrini sənətinə, dərslərinə verdiyi üçün indi daha mükəmməl sənət əsərləri yaradırdı, bir də əsərlərində həzin bir kədər duyulurdu. Yay tətili yaxınlaşsa da, Bakıya gəlmək istəmirdi, müxtəlif təşkilatlardan da xeyli sifarişlər götürdüyü üçün, yayı Moskvada qalıb işləmək istəyirdi. Ailələri bir qədər imkansız olduğundan özü pul qazanmağa çalışırdı.

Bu axşam yenə də Çinarəyə zəng elədi, Çinarənin səsini eşidəndə çox sevindi:

- Çox şükür, Çinarə, axır ki, cavab verdin, sən mənim canım bu dəfə qısa danışma, icazə ver səsini doyunca eşidim. Yayı gəlimmi Bakıya, yoxsa yenə də bir bəhanə gətirib mənimlə görüşməyəcəksən?

- Xəyal, elə mən də səninlə bir məsələni danışmaq istəyirdim, açıq danışacam. Mən yeni ilə az qalmış bir qəza keçirdim, onurğamdan zədə aldım, indiyə qədər də müalicə olunurdum. Ona görə də, səninlə həmişə qısa danışmağa çalışırdım, istəmirdim vəziyyətimi biləsən, sağalacağıma ümid edirdim. Amma bu dəfəki müalicə kursunun sonunda həkim mənim daha yeriyə bilməyəcəyimi söylədi. Bəlkə xaricdə mənə kömək ola biləcəyini dedi. Anlayacağın mən indi əlil arabasına bağlıyam, ona görə də səndən ayrılmaq qərarına gəldim. Yolun açıq olsun, inşallah, rastına yaxşı bir qız da çıxar, xoşbəxt olarsan.

Xəyal onun sözünü kəsmədən axıradək dinlədi, sonra:

- Çinarə, sözünü bitirdinsə, mən də fikrimi deyim. Gərək hər şeyi mənə elə o vaxtdan deyəydin, heç nədən

çəkinməyəydin. Sənin əlil arabasında olmağın heç nəyi dəyişməz, məni səndən ayıra biləcək bir qüvvə yoxdur, bunu bilməni istədim. Mənimlə görüşmək istəsən də, istəməsən də mənim hisslərim dəyişməz.

- Xəyal, bir daha mənimlə görüşməyə, mənə zəng eləməyə çalışma, onsuz da zənglərinə cavab verməyəcəm, sağlıqla qal.

Xəyal əlində telefon bir müddət heykəl kimi hərəkərsiz dayandı, sonra telefonu stolun üstünə atıb eyvana çıxdı. Aprel ayında Moskvada havalar çox soyuq olsa da, Xəyal soyuğu hiss etmirdi, elə bil içində bir yanğın vardı, nəfəsi təngiyirdi. İçindəki ağrını, acını susdura bilmirdi:

Bir həsrət qovrulur içimdə mənim,
Sovrulur duyğular qəlbimdə mənim,
Hayqırır, hıçqırır qəlbim də mənim,
Harayım sevdiyimə yetməyir mənim.

Ürəyim şam kimi əriyir mənim,
Yaralar qəlbimdə sızlayır mənim,
Sevgimdən çəkilmir dumanım,çənim,
Göz yaşım dərdimə yetməyir mənim.

Eyvanda nə qədər dayandığını hiss etməmişdi, bir də onda ayıldı ki, soyuq iliklərinə işləyir. Otağa girib bir stəkan çay tökdü, sonra telefonu götürüb dostu Səidi yığdı, Çinarə ilə olan söhbəti ona danışdı. Səid ona qulaq assa da, nə deyəcəyini bilmirdi. Xəyal ürəyini boşaltıqdan sonra:

- Səid, qoy hələlik onun istədiyi kimi olsun. Universiteti bitirənədək onu narahat eləməyəcəm, sonra Bakıya gəlib zorla, ya da xoşla onunla evlənəcəm, mən onsuz yaşaya bilmərəm, istər yerisin, istər yeriməsin, yanımda olsun, yetər.

- Dostum, Allah sənə yardımçı olsun, sənə səbr versin, inşaallah hər şey istədiyin kimi olar.

O gündən sonra Xəyal daha Çinarəyə zəng eləmədi, arabir Bakıya gəlsə də, onu axtarmadı. Çinarəni isə valideyinləri həm Türkiyəyə, həm də Almaniyaya müalicəyə apardılar, amma təəssüf ki, heç bir xeyri olmadı. Onun bir daha yeriyə bilməyəcəyini söylədilər. Çinarə vəziyyəti ilə barışmışdı, artıq sonuncu kursda idi, universiteti bitirməyə az qalmışdı. Xəyalı nə qədər unutmağa çalışsa da xeyri yox idi, ürəyi ilə bacarmırdı, onu bir daha görə bilməyəcəini düşünürdü. Səid isə vaxtaşırı onlara gəlirdi, bir az oturub Çinarə ilə söhbət edirdi, amma bir dəfə də olsun Xəyalın adını çəkmirdi, çünki, Xəyal belə tapşırmışdı.

Yay çatdı, Çinarə imtahanlarını müvəffəqiyyətlə verib diplomunu aldı, bütün məzunlar sevinsələr də, onun üzündə acı bir gülüş vardı, sanki əlindəki diplom lazımsız bir əşya idi. Səid ona baxıb:

- Ay qız, diplom almısan, ingilis dili müəllimməsi olmusan, bir sevinsənə.

- Nəyinə sevinim, istifadə edə bilməyəcəm ki.

- Sən elə düşün, gör sənə ev hazırlığına nə qədər uşaq, tərcümə eləməyə nə qədər yazı gətirəcəm, heç başını qaşımağa vaxtın olmayacaq.

Çinarə yenidən həyata gəlmiş kimi:

- Doğrudanmı, Səid, mən də bu cəmiyyətə qarışa biləcəyəmmi?

- Əlbəttə, qız, sən nə düşünürdün?

Doğrudan da Səid dediyi kimi, sentyabrdan Çinarəgilə hazırlığa bir neçə uşaq gətirdi, tərcümə mərkəzi ilə də müqavilə bağlayıb xeyli yazılar gətirmişdi. İndi Çinarə həyatın axarına qoşulub yaşayırdı, həyatında əskik olan bircə Xəyal idi.

Xəyal universiteti bitirənədək universitetin xətti ilə bir neçə xarici ölkələrdə  sərgilərdə iştirak eləmişdi, yetəri qədər mükafatları və diplomları var idi. Universiteti bitirib Bakıya qayıdanda xeyli tanınırdı. Sentyabrın ortaları idi. Bakıda tanış

heykəltəraşlar və rəssamlarla bərabər qalereya açdı. Bütün işlərini bitirdikdən sonra Səidə dedi:

- Hə, dostum, artıq Çinarə ilə görüşməyin vaxtı çatdı, mənim ona sürprizlərim var. Sərgini təşkil edək, sən qonaqları dəvət elə, sonra da Çinarəni gətir sərgiyə.

- Məlumatsız gətirsəm, sonra məndən iciməz ki, son vaxtlar çox kövrək olub, hər şeydən inciyir.

- Sən dediyimi elə, qalanını mənə burax.

- Bir fikrini izah eləsən, mən də birşey anlayacam.

- Sənin üçün də sürprizdi, dostum.

Onlar bərabər sərginin bütün eksponatlarını yüksək səviyyədə yerləşdirdilər, burada Xəyalın öz şəxsi təcrübəsi böyük rol oynadı. Qalereyanın baş tərəfində, mərkəzdə boş bir yer qalmışdı. Səid ora baxıb:

- Qardaş, buranı niyə boş saxladın, özünmü duracaqsan, - dedi və bərkdən güldü.

- Elə sürpriz orada olacaq da.

Sərgi səhər saat 11-də olmalı idi, Səidlə Xəyal tezdənnən qalereyada idilər, Xəyal onu tələsdirdi ki, vaxta az qalıb, sən get Çinarəni gətir. Səid ona baxıb:

- Yaxşı-yaxşı, gedirəm, özünü ələ al, həyəcanlanma.

Səid çıxandan sonra Xəyal qonşu otaqda üstünü örtüb gizlətdiyi heykəli nəzarətçi ilə bərabər gətirib baş tərəfdəki boş yerə qoyub üstünü açdı. Bu hündürlüyü 1-1,5 metr olan heykəl bütöv bir eşq abidəsi idi. Bütöv bir lövhənin üzərində əlil arabasında uzun saçlı gözəl bir qız, qarşısında isə əllərində ürək olan dizi üstə çökmüş bir oğlan vardı. Nəzarətçi heyranlıqla heykələ baxıb:

- Xəyal bəy, bu çox gözəl bir heykəldir, demək olar ki, sizin şah əsərinizdir.

- Elədir, dostum, bu heykəlin canlı personajı da bir azdan burada olacaq.

Yavaş-yavaş qonaqlar yığılırdılar, zal xeyli adamla dolmuşdu, bu vaxt zalın qapısında bir əlil arabası göründü.

Xəyal hiss olunmadan adamların arasına qarışdı. Səid arabanı sürüb zalın baş tərəfinə gətirdi, birdən gözləri oradakı heykələ sataşdı, sehirlənmiş kimi dayanıb heykələ baxırdı. Çinarə Səidə tərəf dönüb:

- Bu heykəltəraş kimdi belə, mən tanımıram?

Səid heç nə demədən onun arabasını üzü heykələ tərəf çevirdi, Çinarə heykəli görəndə sərginin kimə məxsus olduğunu anladı və xeyli həyəcanlandı. Səidə nə isə demək istəyirdi ki, Xəyal onlara yaxınlaşdı, əyilib Çinarənin üzündən öpdü:

- Sərgiyə xoş gəlmisən.
- Bu nə heykəldi belə, arabadakı mənəmmi?

Xəyal arabanı üzü tamaşaçılara tərəf çevirdi, sonra cibindən bir qutu çıxarıb açdı, Çinarənin qarşısında diz çöküb:

- Mənimlə evlənərsənmi, Çinarə, - dedi və üzüyü onun barmağına taxdı.

Gəl, yaşayaq sevgini, ömür qısadır,
Hər ana sevgidən bir naxış vuraq.
Bu həyat, bu ömür, sevgi bizimdir,
Tutum əllərindən, yollar bizimdir.
05.03.2016.

# SEVGİ BƏSTƏSİ

Günün qürub vaxtı idi, Ümid bu gün son bəstəsini tamamlamağa çalışırdı, çox gərgin işləyirdi, eyni parçaları dönə-dönə çalırdı. Vaxtın necə keçdiyini belə hiss etmirdi, anası Məryəm xanım otağın qapısında görünəndə başını qaldırdı. Anası yaxınlaşıb:

- Gec deyilmi, oğlum, niyə yatmırsan, sabah davam edərsən, - dedi.

Ümid anasına baxıb gülümsədi:

- Yox, ana, yuxum gəlmir, bir az daha işləyəcəm, sən get yat.

Anası onu öpüb getdi, bu gecə xəstəxanada qalmalı idi. Gecə yarısını ötsə də o, royalın arxasından qalxmaq istəmirdi. İçindən bir səs bu bəstəni bu gün tamamlamalı olduğunu deyirdi. Bu bəstə böyuk sevgi barədə bir kompozisiya idi. İndiyə qədər musiqilər bəstələyəndə qəlbində bu qədər coşqu, bu qədər hiss-həyəcan, təlatüm hiss etməmişdi. Sanki, Nəzrinə olan sevgisinin böyüklüyünü bu musiqiyə hopdurmaq istəyirdi. Barmaqları klavişlərin üzərində o qədər sürətlə hərəkət edirdi ki, elə bil bütün hissləri barmaqlarından notlara süzülürdü. Ümid sanki, başqa bir aləmdə idi, ətrafda heç nəyi hiss etmirdi, alnından süzülən təri belə hiss etmirdi, ağ köynəyinin sinəsi, kürəyi su içində idi. Gözləri yumulu olsa da sanki bir film izləyirdi, dodaqları nə isə pıçıldayırdı. Bu 25 yaşlı, ağbəniz, qara parlaq saçları alnına tökülən arıq, orta boylu oğlan elə bil musiqinin özü idi. Bu mənzərə gözəl bir musiqinin həyata doğulduğu an idi.

Ümid konservatoriyanı bu il bitirmişdi, çox istedadlı idi, müəllimləri həmişə ona deyərdilər:

- Ümid, sən böyük bəstəkar olacaqsan.

Ümid Nəzrini iki il olardı ki, tanıyırdı, təsadüfən metroda rastlaşmışdılar. Nəzrin Neft Akademiyasında oxuyurdu. Mütənasib bədənli, əsmər bənizli, uzun saçları kürəyinə tökülən, qara qaş, qara göz, qətiyyətli baxışları, güclü xarakteri olan bir

qızdı. Metroda bir vaqonda gəlirdilər, hər ikisinin də tələsdiyi hiss olunurdu. Ümid çoxdan itirdiyini tapan bir adam kimi gözlərini qızdan çəkə bilmirdi, içindəki hiss ona bu qız sənin qismətindir deyirdi. Qatar 28 may stansiyasına çatdı, hər ikisi düşdülər. Ümid çıxışda ona yaxınlaşıb salam verdi, tanış olmaq istədiyini bildirdi. Nəzrin onun salamını alıb:

- Üzürlü sayın, çox tələsirəm, sizi dinləyə bilməyəcəm, - dedi.

Ümid təbəssümlə:

- Elə mən də dərsə tələsirəm, konservatoriyada oxuyuram, olarmı dərsdən sonra görüşək.

Nəzrin bir az düşünüb həddindən artıq mədəni olan bu oğlana:

- Olar, saat 2-də dərsdən çıxacam, sarayın qarşısındakı parkda görüşərik, - dedi.

Ümid qulaqlarına inanmadı, qızın hələ bir müddət özünü dartıb naz edəcəyini düşünürdü. Sevincək:

- Saat iki tamamda gözləyəcəm, - dedi.

Ayrıldılar, hərəsi öz təhsil aldığı ali məktəbə tərəf iti addımlarla getdilər. Ümid dərslərin bitməsini səbirsizliklə gözləyirdi. İçində elə bir hiss vardı ki, elə bil bu qızı çoxdan tanıyırdı. Axır ki, dərslər bitti, o, qaça-qaça parkdakı fəvvarənin yanına gəldi, Nəzrin hələ gəlməmişdi. Skamyaların birində oturub gözləməyə başladı. 10-15 dəqiqə sonra Nəzrin ona yaxınlaşdı:

- Nə tez gəlmisiniz?

- Nə bilim, elə zəng vurulan kimi çıxdım.

Nəzrin onun yanında oturub:

- Məni hardansa tanıyırsınız, yoxsa ilk dəfədi rastlaşmışıq?

- Yox, tanımıram, elə birinci dəfə idi, amma elə bil ki, sizi çoxdan tanıyıram, mənə elə gəlir. Ona görə də tanış olmaq istədim. Mən Bakılıyam, Konservatoriya-

nın bəstəkarlıq fakultəsində oxuyuram, ailəmizin tək uşağıyam.

- Mən də Neft Akademiyasında oxuyuram, iqtisadçı mühəndis olacam, 2-ci kursdayam, Gəncəliyəm, biz üç uşağıq, böyükləri mənəm.

- Mən 4-cü kursdayam, Gəncədə bir neçə dəfə olmuşam. Dahi Nizaminin məqbərəsində, muzeyində, Məhsəti Gəncəvi Mərkəzində, başqa muzeylərində, bir çox görməli yerlərində olmuşam. Göy-gölu, Maral gölü görmüşəm.

Onlar bir az daha ordan-burdan danışdıqdan sonra metroya tərəf gəldilər, hər ikisi bu görüşdən çox razı idi. Sanki, köhnə tanışlar uzun ayrılıqdan sonra rastlaşmışdılar. Metroda bir-birindən telefon nömrələrini alıb ayrıldılar. Ümid o qədr həyəcanlı idi ki, evə necə çatdığını bilmədi. Qapıdan içəri girəndə nə isə bir mahnı mızıldanırdı. Anası onu qarşılayıb:

- Xeyir ola, oğlum, keyfin yerindədir deyəsən? - deyə soruşdu.

- Hə, ana, inanmazsan, bu gün həyatımın mənasını tapmışam.

- Nə məna, ay oğul, düz-əməlli anlatsana.

- Evlənəcəyim qızla tanış oldum.

- A bala, adam da ilk tanış olduğu qızla evlənərmi?

- Ana, onu ilk görəndə bunu anlamışdım, sən mənə yemək gətir, sonra danışaq.

Ümid əllərini yuyub əynini dəyişənədək anası süfrəni açıb yeməkləri düzdü. Sonra Ümidlə üz-üzə oturub səbirsizliklə onun yeyib qurtarmasını gözlədi. Ümid o qədər ac idi ki, az qala tikələri çeynəməmiş udurdu. Məryəm xanım musiqi müəllimısi idi, atası isə dövlət məmuru idi. Ümid yeməyini bitirib, bir stəkan da çay içdi, sonra olanları anasına danışdı:

- İnşaallah bir gün tanış edərəm, indi isə gələn həftəki konsertimiz üçün məşq eləməliyəm.

O öz otağına keçib royalda məşq edəcəyi musiqiləri çalsa da, fikri Nəzrinin yanında idi. Qızın iri, qara gözləri, cəsarətli

baxışları gözünün qabağından getmirdi. Ona elə gəlirdi ki, bu gözlərdə qızın gizlətməyə çalışdığı bir kədər var. Bir az sonra anası otağa gəlib:

- Oğlum, nə çalırsan, bu sənin məşq elədiyin musiqi deyil, amma gözəldir.

- Yox, ana, sənə elə gəlir, elə o musiqidir.

- Bir daha çal görüm.

Ümid çalmağa başladı, anası bir az dinləyib dedi:

- Hə, odur, yəqin mənə elə gəlib.

Məryəm xanım bir az daha qulaq asıb, sonra getdi. Ümid telefonu götürüb Nəzrini yığdı:

- Axşamın xeyir, narahat etmirəm ki?

- Yox, buyur, bir sözünmü vardı, sabaha dərslərim çoxdu.

- Yox, elə səsini eşitmək istədim, sabah görüşə bilərikmi?

- Bu həftə işlərim çoxdu, bazar günü görüşərik.

- Olsun, gecən xeyrə.

- Sənin də.

Ümid bir az daha məşq edib, qalan dərslərini hazırladı. Bütün həftəni bitməyəcəkmiş kimi çətinliklə gözlədi. Nəhayət, bazar günü gəldi, görüşdülər, bir-iki saat bərabər vaxt keçirdilər, daha yaxından tanış olmağa çalışdılar. Ümid ona:

- İki gün sonra konsertimiz var, konservatoriyanın konsert zalında, axşam saat 6-da başlayır, gəlsən şad olaram, yeni bəstəmi çalacam.

- Çalışaram gəlim, səni dinləmək istəyərəm.

Ümid onu evlərinə yola salıb qayıtdı. Sonrakı iki günü görüşməyə fürsət olmadı. Konsertin başlamasına bir neçə dəqiqə qalmışdı, Ümid səbirsizliklə pərdənin arxasından zala baxırdı, Nəzrin gözünə dəymirdi. Birdən arxa qapıdan səs eşidib döndü, kimsə kimə isə - olmaz xanım, - deyirdi. Ümid cəld qapıya tərəf getdi, Nəzrinin dönüb getdiyini görüb səslədi:

- Dayan, Nəzrin, hara gedirsən?

- Konsertdən əvvəl səni görmək istəyirdim, zala gedirəm.

- Bu gün sənin üçün çalacam.

Elə bu vaxt aparıcı konsertin başlandığını elan elədi və ilk olaraq səhnəyə Ümidi dəvət etdi. Ümid səhnəyə çıxıb tamaşaçılara baş əyib royalın arxasına keçdi. Nəzrinin gəlişi onu çox sevindirmişdi, əsəri elə coşqu ilə çalırdı ki, ancaq musiqi bitəndə başını qaldırdı və tamaşaçıların onu necə alqışladıqlarını gördü. Zaldan -bir daha - səsləri eşidilirdi. Aparıcı onun təkrar çalacağını elan etdi. Ümid alqışlardan fərəhlənib əvvəlkindən də yaxşı çalırdı. Musiqi bitəndə aıqışlar uzun zaman dayanmadı. Çoxli gül-çiçək dəstələri də verdilər. Sonra səhnədən düşüb Nəzrini valideyinləri ilə tanış etdi. Konsertdən sonra O atasından maşının açarlarını alıb, Nəzrinlə bir az gəzəcəyini bildirdi. Atası ilə anasını taksi ilə evə yola saldı. Ümid gülləri maşına yığıb:

- Bunlar sənindir, Nəzrin, gəlməsəydin elə çala bilməzdim, - dedi.

Sonra maşını dəniz kənarına sürdü. Nəzrin danışmasa da, sehirlənmiş kimi ona baxırdı. Bu cür istedadlı bir musiqiçinin onu sevməsi ilə qürur duyurdu. Amma zaman-zaman gözləri dolub boşalırdı. Ümid bunu hiss edib dedi:

- Sənə nolub, sevinmək əvəzinə gözlərin niyə dolur?
- Yox, elə demə, hamıdan çox mən sevinirəm.
- Bəs gözlərin nədən dolur?
- Ümid, bu gün danışmayaq, bu gecənin gözəlliyini pozmayaq.
- Amma sonra səbəbini yəqin ki, deyəcəksən.
- Əlbəttə.

Beləcə bir xeyli sahildə gəzdilər. Ümid astadan bir şeir söyləyirdi:

Sahilə çox yaraşır bizim qoşa rəsmimiz,
Dənizin sularından bizə baxır əksimiz.
Dalğalarla dənizə qoy yayılsın sevgimiz,
Dənizin bəstəsiylə qoy səslənsin nəğməmiz.

Ümid Nəzrinə tərəf dönüb:

- Daha gecdir, gedək, - dedi.

Maşını Nəzrinin kirayədə qaldığı binanın qarşısında saxladı. Nəzrin minnətdarlıqla Ümidə baxıb:

- Bu gözəl gecə və çiçəklər üçün sağ ol.

Ümid evə çatanda saat 11-ə qalırdı, anası onu qarşılayıb:

- Hardasan, ay bala, gözləməkdən yorulduq.

- Nəzrinlə idim, ana.

- Biz də bayaqdan atanla konsertdən danışırıq, maşallah gözəl çaldın, qız da çox xoşumuza gəldi.

Ümid anasını öpüb otağa keçdi, atası onu təbrik edib:

- Halal olsun, oğlum, gözəl çaldın. Bəs Nəzrini nə zaman evimizə dəvət edəcəksən, bir yaxından tanış olaq?

- Tələsməyin, vaxtı çatanda gətirəcəm, hələ tezdi.

Aradan on gün keçmişdi, bu arada Nəzrinlə cəmi bir dəfə görüşə bilmişdilər. Bu görüşdə Nəzrin bir az solğun görünürdü, Ümid ona baxıb:

- Sənə nolub, xəstə deyilsən ki?

- Yox, narahat olma, yaxşıyam.

- Amma rəngin-rufun yerində deyil.

- Bu aralar bir az soyuqlamışdım, keçdi.

- Nəzrin. istəyirəm səni evimizə dəvət edəm, anamgillə daha yaxından tanış olasan.

- Başqa bir vaxt, Ümid, bir az halsızam.

- Olar, nə zaman özünü yaxşı hiss etsən, deyərsən.

Onlar bir az gəzib ayrıldılar, Ümid Nəzrini çox yormaq istəmədi. Amma, qızın gözlərindəki kədər onun gözündən qaçmadı, baxmayaraq ki, Nəzrin gizlətməyə çalışırdı. Ümid evə gəlib öz-özünə - mən bu kədərin səbəbini mütləq aydınlaşdırmalıyam, - dedi. Nəzrin nəyi isə gizlədir, deyə düşündü.

Yay tətilinə az qalırdı, Ümid Nəzrinin Gəncəyə, evlərinə gedəcəyini bilirdi, amma onsuz necə dözəcəyini bilmirdi. Bir neçə gün sonra imtahanlar qurtardı. Onlar Nəzrin getməmişdən bir gün qabaq görüşdülər. Ümid onun əllərindən tutub:

- Nəzrin, gəl bu gün bizə gedək, anamgillə bir az da yaxından tanış ol.

- Yox, Ümid, qoy qalsın payıza, hazır deyiləm.

- Nəyə hazır deyilsən?

- Çox sual vermə, danışmaq istəmirəm, amma unutma, səni çox sevirəm.

Ümid təəccüblə qıza baxırdı, qızın danışığından heç nə anlamırdı, qız da inadla susurdu, nəhayət:

- Necə istəyirsən, sabah səni yola salımmı?

- Yox, lazım deyil, tək deyiləm, otaq yoldaşımla gedirəm, o da Gəncəlidi.

- Yəqin ki, telefonla danışacağıq, deyilmi?

- Əlbəttə, yoxsa necə dözərik.

- Bu yay Gəncəyə gələcəm, yəqin ki, görüşərik.

- İnşalalah, Ümid, indi isə qal sağlıqla.

Nəzrin onu öpüb iti addımlarla uzaqlaşdı. Ümid onun arxasınca baxıb, öz-özünə - mən bu kədəri çözməliyəm, - dedi.

Artıq bir ay keçirdi, Nəzrinlə tez-tez danışsalar da, Ümid artıq dözə bilmirdi, anasına yaxınlaşıb:

- Ana, mən Gəncəyə gedirəm, Nəzrini görməliyəm.

- Get, oğlum, bizdən də salam de, razı olsa lap elçi də gedərik.

Səhər tezdən Ümid Gəncə avtobusu ilə yola düşdü, Gəncəyə çatanda günorta saat 2 olardı. Taksiyə minib qohumlarıgilə getdi, bir az dincəlib Nəzrinə zəng etdi:

- Nəzrin, Gəncədəyəm, harda görüşək?

Nəzrin qulaqlarına inanmadı, sevincək:

- Gəl Xan bağına, yarım saata ordayam.

Ümid Xan bağına necə gəldiyini bilmədi, sevindiyindən sanki uçurdu. Az keçməmiş Nəzrin də gəldi, üz-üzə dayanıb bir-birlərinə baxırdılar, heç biri danışmaq istəmirdi. Aradan keçən bir ay onlara çox uzun gəlmişdi. Yaxınlıqdakı skamyada oturdular, danışılacaq çox söz olsa da, heç biri danışmaq istəmirdi. nəhayət Nəzrin doluxsunmuş:

- Nə yaxşı ki, gəldin, çox darıxmışdım.

- Mən də, amma düşünəndə ki, daha bir ay dözməliyik, dəli oluram.

- Ümid, sanılı gün tez bitər, amma mən səninlə bir məsələni açıq danışmalıyam.

- Danış, nə məsələdi ki?

- Bilirsən ki, səni dünyalar qədər sevirəm, amma evlənə biləcəyimizi sanmıram, bilmən gərəkən bir məsələ var. Mənim ürəyim xəstədir, zaman-zaman müalicə götürürəm, bunu bilməyin vacibdir.

Ümid çaşqınlıqla ona baxıb:

- İnşaallah, sağalarsan, Nəzrin, bunu düşünmə, mən səni hər halında çox sevirəm, istəyirsən sabah anamgil elçi gəlsinlər.

- Yox, istəmirəm, anlamırsan, ürək xəstəsiyəm.

- Nəzrin, nə olursan ol, mən səndən vaz keçəsi deyiləm, sənsiz yaşaya bilmərəm.

Nəzrin daha heç nə demədi, xeyli ordan-burdan, Ümidin yeni bəstələrindən danışdılar. Səhərisi gün Ümid Bakıya qayıtdı. Nəzrinin xəstə olduğunu anasına dedi:

- Ana, nə olursa-olsun onunla evlənəcəyəm.

Anası kədərlə ona baxıb:

- Oğlum, həyatını puç etmə, elə xəstələr sağalmırlar.

- Olsun, ana, ondan ayrıla bilmərəm, bu onu da öldürər, məni də, anlayırsan, deyilmi?

- Əlbəttə anlayıram, oğlum, amma sən yenə də düşün, sonra peşman olma.

Dərslər başlamışdı, Ümid son kursda idi, konservatoriyanı bitirən kimi, Nəzrinlə evlənəcəyini qəti qərara almışdı, bunu həm valideyinlərinə, həm də qıza demişdi. Bu arada Nəzrinə:

- İkimizin sevgimizə bir musiqi bəstələyirəm, inanıram ki, bəyənəcəksən, - demişdi.

- Sən bəstələyərsən, mən bəyənmərəmmi, Ümid?

Ümid hər axşam yeni bəstəsi üzərində inadla işləyirdi. Amma dərslərin, konsertlərin, imtahanların çoxluğundan bitirə

bilmirdi, düşünürdü ki, yaya qədər bitirər. Nəzrinlə tez-tez görüşürdülər, evlərinə gətirib anasıgillə daha yaxından tanış eləmişdi. Məryəm xanım bu qızı öz balası kimi çox istəyirdi, həmişə də:

- Qızım, müalicələrini ləngitmə, vaxtlı-vaxtında götür, - deyirdi.

Nəzrinin valideyinləri də bu münasibəti bilirdilər, belə qərara gəlmişdilər ki, yayda nişan etsinlər, payızda da toy. Amma, deyir sən saydığını say.... Yaz ayları idi, Nəzrinin halı qəflətən pisləşməyə başladı, ürək ağrıları artmışdı. Valideyinləri onu xəstəxanaya yerləşdirdilər Ümid indi vaxtının çoxunu xəstəxanada keçirirdi. Hər gün dərsdən çıxıb xəstəxanaya gəlir, gecəyədək otururdu. Beləcə 3 ay keçdi, Nəzrin bir az yaxşılaşsa da, həkimlər evə buraxmırdılar. Artıq imtahanlar başlamışdı Ümid konservatoriyanı əla qiymətlərlə bitirdi, Nəzrin xəstəliyi ilə bağlı təkrar 3-cü kursda qaldı. Bir gün Nəzrin Ümidə baxıb:

- Daha bəsdi, Ümid, məndən sənə həyat yoldaşı olmaz, ayrılmalıyıq.

Ümid gülərək:

- Sən özün bilərsən, mən ayrılmıram, - dedi.

- Səndən bir xahişim var, bizim bəstəmizi tamamla, dinləyim, birdən ölərəm, eşitmərəm.

- Hara ölürsən, özbaşınasan, sən mənə lazımsan, amma bəstəni doğrudan da tamamlamaq lazımdır.

İndi Ümid gündüzləri 1-2 saat Nəzrinin yanında oturar, sonra evə gəlib bəstəni tamamlamağa çalışardı. Bəzən elə olurdu ki, xəstəxanaya bir neçə gün gedə bilmirdi. Bu arada Nəzrinin halının pisləşdiyindən də xəbəri yox idi, anası hər gün qızın yanına getsə də, ona heç nə demirdi, çünki, Nəzrin icazə vermirdi:

- Sizdən xahiş edirəm, Ümidə heç nə deməyin, bəstəni bitirsin, onu dinləyib sonra ölmək istəyirəm.

Nəhayət bu gün Ümid səhərə yaxın "Sevgi" kompozisiyasını bitirib, tezdən royalda çalıb diskə yazdı, kompüteri də götürüb xəstəxanaya qaçdı, palataya girib:

- Nəzrin, axır ki bəstəmizi bitirdim, gətirmişəm dinləyəsən, - dedi.

Amma Nəzrinin avasımış üzünü, çətinliklə nəfəs aldığını görüb:

- Sənə nə oldu, həkimi çağırımmı?

- Yox, lazım deyil, musiqini qoy dinləyim, vaxtım azdır, həkimlik deyiləm.

Ümid sakitcə kompüteri açıb diski qoydu, musiqinin həzin səsi otağa yayıldı. Nəzrin gözlərini yumub qulaq asırdı. Musiqinin səsinə həkimlər, tibb bacıları, yaxınlıqdakı xəstələr, Ümidin və Nəzrinin valideyinləri də palataya gəldilər. Son günlər hər iki ana xəstəxanada qalırdılar. Hamı sehirlənmiş kimi bu ecazkar musiqini dinləyirdi. Ümid Nəzrinin əllərindən tutub onun üzünə baxırdı. Musiqi sona yaxınlaşırdı, Nəzrin gözlərini açıb Ümidə baxdı, gözlərindən süzülən yaşlar yastığa tökülürdü, zəif səslə:

- Çox sağ ol, əzizim, minnətdaram, çox gözəl musiqidi, bu musiqini məzarımın başında çaldırarsan, səni çox sevirəm.

Nəzrin gözlərini əbədi yumdu, Ümidin hönkürtüsü palatanı başına götürmüşdü. Palatadakı hər kəs ağlayırdı. Ümid başını Nəzrinin başına yaxınlaşdırıb asta səslə:

Son kəs gözlərimə baxıb getdin,
Qəlbimdə lal olmuş hisslərim var.
Qəlbimdə hərəkətsiz yarpaqlar var,
Leysan öncəsi sakitlik kimi....

Sonra Nəzrinin alnından öpüb palatadan çıxdı.

İllər sonra Ümid məşhur bəstəkar olmuşdu, "Sevgi" kompozisiyasını "Sevgi" simfoniyasına çevirmişdi və bu əsər onun Şah əsəri olmuşdu.

02.02.2016.

## L Ə N Ə T

Səlimlə Aytən üç il olardı ki, evlənmişdilər, amma hələ övladları yox idi. Son altı ayda hər ikisi bir çox həkim müayinələrindən, analizlərdən, aparatlardan keçsələr də, həkimlər uşaqlarının olmaması üçün heç bir səbəb tapa bilmirdilər. Hansı xəstəxanaya müraciət edirdilərsə, siz sağlamsınız cavabını alırdılar. Hamı bu işə məəttəl qalmışdı, daha valideyinlərin də sözü yox idi.

Səlim ailənin üç övladından kiçiyi idi, qardaşları evlənib ayrı yaşayırdılar. Əsl azərbaycanlılara xas buğdayı dərisi, qara gözləri, möhkəm bədən quruluşu vardı. Orta boylu, çevik hərəkətli, iti yerişli, enerjili bir oğlan idi. 25 yaşı vardı. Səlim texniki universiteti bitirdikdən sonra bir müddət Bakıda işləsə də, sonra bir dostunun dəvəti ilə Rusiyaya, Sverdlovsk şəhərinə getdi. Burada dostu Əhmədlə görüşüb, onun işlədiyi şirkətə getdilər. Şirkəti azərbaycanlı iş adamları yaratmışdılar, avtomobillərin təmiri, yuyulması, rənglənməsi və s. bu kimi işlərlə məşğul olurdular. Səlimin ixtisasına uyğun bir iş yeri idi, yaxşı da əmək haqqı verirdilər, Bakıda aldığından 4-5 dəfə artıq idi. Şirkətin öz işçiləri üçün aldığı binada ona iki otaqlı ev də verdilər, dedilər ki, burada işlədiyin müddətdə istifadə edə bilərsən. Qısa bir müddətdə Səlim öz bacarığı, savadı ilə xeyli hörmət qazanmışdı. Bir neçə ay işlədikdən sonra sahə müdiri keçmişdi. Şirkətdə onu yorulmayan, hər işi bacaran biri kimi tanıyırdılar. Şirkətin ofisində həm rus, həm də azərbaycanlı qızlar işləyirdilər. Səlim işlə əlaqədar ofisə vaxtaşırı gəlirdi, sənədləri imzalayır, hesabatları verirdi. Mühasibatlıqda Gülər adlı azərbaycanlı qız da işləyirdi, 21-22 yaşı olardı. İlk baxışda diqqəti çəkən qız idi, ağbənizli, qonur gözlü, gur, şabalıdı saçlı, mütənasib bədənli, şən, deyib-gülən qız idi. Səlimin bu qızdan xoşu gəlirdi. Bir gün dostu Əhməddən:

- Bu qızı necə tanıyırsan, haralıdı, burada kimləri var, - deyə soruşdu.

Əhməd gülərək:

- Deyəsən torbada pişik var, eləmi. Gülər burada ailəsi ilə birgə yaşayır, beş ildən çoxdur buradadırlar, Sumqayıtdan gəliblər. Evin tək uşağıdır, bir qardaşı da var imiş, Sumqayıtda bir qəzada həyatını dəyişib. O vaxtdan oradan çıxıblar. Anası burada uşaq bağçasında tərbiyəçi işləyir, atası elmi işçidir.

Bir gün Səlim işin axırına yaxın mühasibatlığa gəldi, hamı ilə salamlaşdı, işlərini bitirdikdən sonra Gülərə yaxınlaşaraq:

- İşdən çıxanda səni gözləyəcəm, sözüm var, - dedi.

Gülər bir şey anlamadan:

- Mənim çox vaxtım yoxdur, evə tez getməliyəm, - deyə cavab verdi.

İş saatı qurtarmışdı, hamı yığışıb idarədən çıxırdı. Səlim darvazanın çöl tərəfində, ağ mersedesə söykənib gözləyirdi. Gülər darvazadan çıxanda yaxınlaşıb:

- Gəl, səni evinizə mən aparım, həm də yolda söhbət edərik, - dedi.

Gülər razılaşıb, maşına mindi, ünvanı dedi. Səlim maşını asta-asta sürərək sözə başladı:

- Gülər, səndən çox xoşum gəlir, istəyirəm bir az daha yaxından tanış olaq.

Səlim danışır, Gülər dinləyirdi, bir də baxdılar ki, evə çatıblar. Gülər təşəkkür edərək maşından düşdü və fikirləşərəm, dedi. Səlim isə bir qədər də şəhəri dolaşaraq Gülər haqqında düşünürdü. Gülər nəinki gözəlliyi, həm də ağıllı olması ilə Səlimi heyran etmişdi.

Bir neçə vaxt arabir görüşüb, şəhəri gəzir, söhbət edirdilər. Görüşlərin birində Səlim Gülərə evlənəkmi, dedi.

Gülər düşüncəli:

- Valideyinlərimlə danışım, sonra bir cavab deyərəm.

Həftə sonu Gülər Səlimə zəng edib, bizə gəl, dedi. Bir saat sonra Səlim qapını döydü. Gülər qapını açaraq onu içəri dəvət

etdi. Valideyinləri qonaq otağında idilər, Səlim salam verib, Gülərin valideyinləri ilə tanış oldu. Səlim divanda əyləşib, Gülərin atasının verdiyi suallara cavab verirdi, Gülərin atası:

- Hə oğlum, söylə görək haralısan, kimlərdənsən, valideyinlərin harada yaşayır?

Səlim tələsmədən bütün suallara cavab verirdi.

Nəhayət Gülərin atası:

- Biz sənin valideyinlərinlə tanış olmamış bir söz deyə bilmərik, - dedi.

Səlim:

- Valideyinlərim işlədikləri üçün indi Sverdlovska gələ bilməzlər. Mən Sizi ancaq skupe vasitəsilə tanış edə bilərəm, - dedi.

Gülərin atası bir az fikirləşib:

- Olsun, hələlik belə tanış olarıq, sonra da şəxsən, dedi.

- Atam dövlət qulluqçusudur, bir idarəyə rəhbərlik edir, anam isə fizika müəllimməsidir, amma işləmir.

Gülərin atası qızına:

- Ay qızım, bir o kompüteri bura gətir, Səlimin valideyinləri ilə tanış olaq, - dedi.

Gülər öz otağından notebook-u gətirib açdı, Səlim anasıgilin ünvanını yığıb, indi açarlar, dedi. Çox keçmədən Səlimin anası monitorda göründü, salamlaşıb, hal-əhval tutdu. Səlim atasını soruşdu, evdə olduğunu eşidib, çox sevindi:

- Ana, atamı çağır, sizi evlənmək istədiyim qızın valideyinləri ilə tanış edim.

Anası:

- Rəhman, gəl, Səlim bizi biriləri ilə tanış edəcək, - dedi.

Beləcə xeyli söhbət etdilər. Rəhman kişi dedi ki:

- Səlim evlənmək qərarında sərbəstdir, təki ağıllı, tərbiyəli bir qız olsun, mədəni, hörmətli ailənin qızı olsun. Əgər bir-birlərini sevirlərsə, bizə də təbrik etmək, valideyin kimi vəzifəmizi yerinə yetirmək düşər.

Gülərin atası:

- BİZ bir neçə gün fikirləşək, məsləhətləşək, sonra yenə danışarıq, - dedi.

Səlim bir az da oturub, sonra getdi. Gülərin valideyinləri Səlimi bəyənmişdilər. Səhər işdə Səlim dünən olanları Əhmədə danışdı. Əhməd onu təbrik edərək:

- Gör qismət səni haradan haraya gətirib, - dedi.

Səlim vaxtaşırı Güləri götürüb, şəhərin gəzməli yerlərinə aparar, bərabər yemək yeyər, gözəl vaxt keçirərdilər. Aradan on günə taxın vaxt keçirdi. Bir gün Gülər Səlimə:

- Axşam bizə gəl, valideyinlərim çağırır, - dedi.

Səlim işdən çıxanda Güləri də götürüb onlara getdi. Yeməkdən sonra xeyli söhbət etdilər, sonra Gülərin atası Səlimə:

- Biz Gülərin səninlə evlənməyinə etiraz etmirik, valideyinlərinlə danış, bir üzük gətirin, toyun vaxtını sonra danışarıq, - dedi.

Səlim sevincək anasına zəng edib, qız evinin razı olduğunu, nişanlanmaq istədiklərini söylədi. Anası dedi:

- Oğlum, skupe açın danışaq, bir məsləhətləşək.

Yenə hər iki ailə xeyli söhbət etdilər, belə qərara gəldilər ki, hələlik Səlim bir üzük alıb Gülərin barmağına taxsın. Yayda isə Səlimin ailəsi məzuniyyət götürüb gəlsinlər Sverdlovska, nişan toyu bərabər etsinlər.

Həftə sonu Gülərlə Səlim alış-verişə çıxdılar, tapşırılanların hamısını aldılar, sonra da Gülərə tək qaş brilyant üzük aldılar. Evdə Gülərin anası onların aldıqlarına baxıb hər ikisindən razı qaldı, üzüyü çox bəyənmişdi:

- Gələn həftə dost-tanışı da çağırıb kiçik bir şənlik edərik, - dedi.

Səlim evdə Əhmədə hər şeyi danışdı:

- Gələn bazar nişanlanırıq, sən də dəvətlisən.

Əhməd onu təbrik edərək:

- Dostum, Gülər yaxşı qızdır, qiymətini bil, - dedi.

Bazar günü dost-tanışlar Gülərgilə yığışmışdılar, Səlim də Əhmədlə gəlmişdi. Otaqda 10-12 nəfər olardı. Deyə-gülə yedilər, içdilər, oynadılar. Sonra Səlim üzüyü Gülərin barmağına taxaraq, bir ömür həm xoş, həm də acı günlərdə onunla bərabər olacağına söz verdi. Hamı onları təbrik edib, gətirdikləri hədiyyələri təqdim etdi.

Səhər şirkətdə də qızlar Gülərin başına yığışıb təbrik edir, gətirdiyi tortla çay içirdilər. Dostlar isə Səlimi təbrik edib, işdən sonra mütləq qeyd etmək istədiklərini bildirdilər.

İndi Səlim Gülərlə daha çox vaxt keçirirdi, hər ikisi özünü çox xoşbəxt hiss edirdi, bu xoş günlərin bitməsini heç istəmirdilər.

Avqust ayı Səlimin valideyinləri Sverdlovska gəldilər. Səlim onları Gülərgilə aparıb tanış elədi. Hər iki ailə gözəl anlaşırdılar, toyun vaxtını, məkanını danışıb, hər kəs öz işinin dalınca getdi.

Səlimlə Gülərin toyu dəbdəbəli bir şadlıq sarayında idi. Dostlar, tanışlar yığışmışdılar, zal ağzına qədər dolu idi. Toy çox şən keçirdi, hamı yeyir, içir, əylənirdi.

Toydan sonra Səlim Güləri yeni aldığı üç otaqlı evə apardı, bu ev Səlimin Gülərə toy sürprizi idi. Valideyinləri bir həftə qalıb, şəhəri gəzdilər, həftə sonu Bakıya qayıtdılar. Səlimlə Gülər məzunuyyətdə olduqları üçün bal ayını Türkiyədə keçirməyə getdilər. Bir ay Türkiyənin bir çox şəhərlərində oldular, ən gözəl yerlərini gəzdilər. Bu bir ay onlarda o qədər xoş təsuratlar yaratmışdı ki, zamanın necə keçdiyini heç hiss etməmişdilər. Məzunuyyətləri sona yaxınlaşırdı, evlərinə qayıtmaq zamanı idi. Gülərin ata-anasına hədiyyə almaq üçün dükan-bazarı dolaşdılar. Gülər hədiyyələri xüsusi zövqlə seçirdi. Anasına zəng edib:

- Canım anam, biz həftə sonu qayıdacağıq, sənə də atama da gözəl hədiyyələr almışıq, inşaallah bəyənərsiniz.

Anası sevinclə:

- Nə yaxşı ay bala, sizdən ötrü çox darıxdıq, səbirsizliklə gözləyirik, tez gəlin, - dedi.

Həftə sonu Gülərin atası onları aeroportda qarşılayıb öz evlərinə gətirdi. Qapını açan anası qızını qucaqlayıb, xoş gəldiniz, dedi. Anasının hazırladığı yeməklərin ətri evi bürümüşdü. Gülər sevincək dedi:

- Bəh-bəh anamin bişirdiyi gözəl yeməklərə həsrət qalmışdım, mən bir neçə gün burada qalacam, Səlim.

Səlim gülərək:

- Elə mən də, - dedi.

Bir neçə ay sonra Gülər özünü pis hiss etməyə başladı. Anası onu tanış həkimə apardı, müayinədən sonra həkim anasına:

- Gözünüz aydın, Gülər hamilədir, - dedi.

Evdə anası Səlimə və Gülərin atasına Gülərin hamilə olduğunu söylədi. Bu xəbərə hamı çox sevinirdi. Anası hər gün cürbəcür yeməklər hazırlayıb onlara gətirirdi:

- Qızım, sən indi yeməyinə daha çox diqqət etməlisən, nə lazım olsa de, özüm hazırlayım.

Səlim indi Gülərə qarşı daha diqqətli idi. Bütün ailə səbirsizliklə uşağın doğulacağı vaxtı gözləyirdi. Nəhayət, o gün də gəldi. Səlim xəstəxananın koridorunda var-gəl edir, valideyinlər isə oturub nigarançılıqla gözləyirdilər. Artıq iki saata yaxın vaxt keçirdi, nigarançılıqdan hər üçü yorulmuşdu. Axır ki, tibb bacılarından biri çıxaraq:

- Gözünüz aydın, oğlunuz oldu, - dedi.

Səlim də, valideyinlər də qıza suallar verir, Gülərin, uşağın vəziyyətini soruşurdular. Qız onalra cavab verdi ki:

- Uşaq çox çətinliklə doğuldu, az qala boğulacaqdı, həkimlər çətinliklə həyata qaytardılıar. Gülər isə çoxlu qan itirdiyi üçün, çox zəifdir. Bir azdan həkimlər içəridən çıxacaqlar, qalan suallarınızı onlara verərsiniz.

10-15 dəqiqə sonra həkimlər də çıxdılar. Hər üçü şöbə müdürünün kabinetinə keçərək daha ətraflı məlumat verilməsini

istədilər. Həkim uşağın vəziyyətinin indi stabil olduğunu, amma hələ bir müddət xəstəxanada qalmalı olacağını, Gülərin də çox zəif olduğunu, ona qan lazım olduğunu bildirdi. Səlim həkimə:

- Mənim qanım 1-ci qrup, Gülərinki isə 2-ci qrupdur, mən qan verərəm, - dedi. Həkim:

- Nə yaxşı, onda sən tibb bacısının otağına get, qan ver.

Səlim tibb bacısının otağına gəlib:

- Mən Gülərə qan verəcəyəm, - dedi.

Tibb bacısı ondan lazım olan qədər qan alaraq:

- Siz gedə bilərsiniz, mən indi bu qanı Gülərə köçürəcəyəm, - dedi.

Bir azdan Güləri palataya gətirdilər, amma yanına heç kimi buraxmırdılar. O, uşağın vəziyyətini soruşdu, normal olduğunu eşidib bir az sakitləşdi. Sonrakı günlər Gülər tez-tez uşağın olduğu otağa gedib, bir qədər dayanar, uşağa baxardı. Uşaq şüşə aparatın içində idi. Gülərin anası ilə Səlim hər gün xəstəxanaya gəlirdilər. Bir gün həkim onları kabinetə çağırıb, dedi:

- Sizə uşağın vəziyyəti ilə bağlı bəzi məlumatları vermək istəyirəm. Bildiyiniz kimi, uşaq doğulan zaman az qala boğulacaqdı, çətinliklə həyata qaytarmışıq. Bununla bağlı uşaqda mütləq müəyyən izlər qalacaqdır, hələ ki, nə izlər qalacağını bilmirik, bunu uşağın gələcək inkişafı göstərəcək. Buna hazır olmanız lazımdır.

Daha sonra onların suallarına cavab verib, gedə bilərsiniz, dedi. Səlimgil kabinetdən çıxıb bir az koridorda oturdular. Bu xəbəri Gülərə necə deyəcəklərini bilmirdilər. Anası:

- Səlim, oğul, hələlik Gülərə heç nə deməyək, gözləyək, görək nə olacaq, - dedi.

Bir neçə həftə sonra Gülər xəstəxənadan çıxdı. Səlim onu anasıgilə gətirdi, çünki, Gülər hələ çox zəif idi. Səlim Gülərin yanına hər gün gəlirdi. Gülər də, uşaq da daha yaxşı idilər. Bir gün Gülərin anası Səlimə dedi:

- İstəyirəm, daha Gülərə hər şeyi deyək, nə vaxta qədər gizlədə bilərik ki.

Səlim razılaşdı. Axşam Gülərin atası da işdən gəldi, yeməkdən sonra anası:

- Qızım, sənə deyəcəklərimiz var, diqqətlə qulaq as, həyəcanlanma.

Gülər anasına baxaraq:

- Xeyirdimi, ay ana, niyə həyəcanlanmalıyam ki?

Anası onu öpərək:

- Qızım, bilirsən ki, uşaq çətinliklə doğuldu, az qalmışdı ki, boğulsun. Çox şükür ki, hər şey yaxşı qurtardı. Amma, bilməlisən ki, boğulma ilə doğulan uşaqlarda bəzi fəsadlar qalır, uşaq əsəbi olur, bir qədər gec danışır, oksigen çatışmamazlığı olur, bununla bağlı epilepsiyaların olması mümkündür və s. İnşaallah hər şey yaxşı olar, müalicələrini vaxtlı-vaxtında etdirsək yəqin ki, uşaqda iz qalmaz.

Gülər donub qalmışdı, heç nə deyə bilmirdi, gözləri ixtiyarsız dolub-boşalırdı. Nəhayət:

- İndiyə qədər niyə demirdiniz?

- Sənin bir az gücünü toplamağını gözlədik.

Gülər qalxıb o birisi otağa keçdi, Səlimlə anası da ardınca gəldilər. Uşaq yatırdı, Gülər dayanıb uşağa baxır, onu gələcəkdə hansı çətinliklərin gözlədiyini düşündükcə ürəyi sıxılırdı. Anasına baxaraq:

- Uzun zamanmı müalicə lazımdır, çoxmu əziyyət çəkəcək?

Anası asta səslə:

- 1-2 ay keçsin, yaxşı həkimlərə göstərərik, bəlkə çox az fəsad qalıb, - dedi.

Günlər keçirdi, uşaq tez-tez ağlasa da elə bir ciddi əlamət görünmürdü. Daha Gülərin üzü əvvəlki kimi gülmürdü, çox fikirli olurdu, uşaq yatanda saatlarla çarpayısının yanında dayanıb ona baxırdı.

Uşağın qırxı çıxandan sonra Səlim qaynanasına dedi:

- Aparaq Moskvada həkimə göstərək, bir neçə yaxşı həkimin ünvanını götürmüşəm.

Onun bu qərarına hamı razı idi.

Onlar Moskvaya çatanda hələ günorta deyildi, əşyalarını mehmanxanaya qoyub, xəstəxanaya getdilər. Həkimlər uşağı ciddi müayinədən, müxtəlif aparatlardan keçirdilər və bəzi fəsadların olacağını bildirdilər. Gərəkli müalicələri yazdılar. Bir neçə gün sonra onlar Sverdlovska qayıtdılar, müalicəni burada götürəcəkdilər. Vəziyyəti Gülərin valideyinlərinə də dedilər.

Artıq 4 il idi ki, balaca İlhamı 3-4 aydan bir müalicəyə aparırdılar. Gülərin bütün fikri, diqqəti İlhamda olduğu üçün, Səlimə əvvəli kimi diqqətli deyildi. Balaca İlham hələ də ancaq tək-tük sözlər deyə bilirdi, əsəbi idi, hirslənəndə, qızdırması olanda qıc olmaları olurdu. Səlim isə bu xəstəxana yollarından bezmişdi, ailəsinə qarşı soyumuşdu, onları əvvəlki kimi çox istəmirdi. İndi evə daha gec gəlir, vaxtını kafelərdə, əyləncə məkanlarında keçirirdi. Dostu Əhməd nə qədər özünü yığışdır, gül kimi arvadın, sənə ehtiyacı olan oğlun var desə də, xeyri yox idi. Səlim laqeydliklə:

- Daha bezmişəm, buralardan gedəcəm. Onlar artıq mənim üçün maraqlı deyillər. Gülər istəsə mənimlə Bakıya gedə bilər, amma uşağı ya anasına, ya da uşaq evinə verməlidir, - dedi.

Əhməd eşitdiklərinə inanmadı:

- Ə, adam kişi olar, nə dediyinin fərqindəsən? Sən elə düşünürsən ki, Gülər uşağından keçər. Yox, keçməz, mən Güləri tanıyıram, o səndən keçər, amma uşağından keçməz, - dedi.

Səlim çiyinlərini çəkdi:

- Özü bilər, mən təklifimi deyəcəm.

Gülər Səlimin evə gec gəlməyindən, ona, uşağa qarşı diqqətsiz olmasından əzab çəksə də, bunu büruzə vermirdi. Bir gün Səlim işdən gəlib bir az istirahət etdikdən sonra Gülərə:

- İstəyirəm daha Bakıya qayıdaq, nə düşünürsən?

- Niyə də yox, necə istəyirsən. Nə zaman getməyimizi istəyirsən?

- Bir-iki aya işlərimi sahmana salım, gedim Bakıdan ev alım, sonra gəlib səni apararam.

Gülər təəccüblə:

- Məni, yoxsa bizi?

- Gülər, məni diqqətlə dinlə, İlhamın müalicəsi 4 ildir davam edir, düzdür xeyli irəliləyiş var, amma onun qıc olmalarının tamam sağalmayacağını bilirsən, onu burada ya ananın yanında qoy, ya da uşaq evlərinin birinə yerləşdirək. Vaxtaşırı anangil yanına gedər, arabir

biz də gələrik.

Gülər qulaqlarına inana bilmirdi, Səlim danışdıqca ürəyi sıxılırdı, əsəbi halda:

- İlham bizsiz qala bilməz, onun bizə, müalicəyə ehtiyacı var, mən onu heç kimə verməm, gedə bilərsən, - dedi.

Səlim bunu gözləyirmiş kimi:

- Dediyimlə razı deyilsənsə, qala bilərsən, bu evi sizə verirəm. Nə zaman uşağı vermək qərarına gəlsən, xəbər edərsən, gəlib səni apararam.

Gülər daha ona cavab verməyi belə düşünmürdü, bu adama deyəcək sözü yox idi, dönüb otaqdan çıxdı. Ürəyi bərk sancırdı, Səlimi tanıya bilmirdi, sanki içində bir boşluq yaranmışdı, elə bil söykəndiyi divar yıxılmışdı.

Aradan keçən bir-iki ayda evdə bir-birlərini danışdırmırdılar, Gülər bərk incimişdi. Bir səhər Səlim çamadanını götürərək dedi:

- Mən Bakıya gedirəm, bank hesabımızda yetəri qədər pul var, korluq çəkməyəcəksiniz.

Gülər cavab vermədən dönüb qonşu otağa keçdi. Səlim onun ardınca gedərək:

- Bax, Gülər, nə zaman, nəyə ehtiyacınız olsa, bir zəngin yetər.

Gülər əsəbi halda:

- Səni Allaha tapşırıram, əməlinin cəzasını Allah versin, - dedi.

Səlim qapıdan çıxdı, taksiyə mindi və getdi. Maşınını on gün əvvəl satmışdı. Bakıya axşamtərəfi çatdı, qapını anası açdı, gözlərinə inanmadı:

- Xoş gəlmisən ay oğul, Bəs uşaqlar hanı?

Səlim anasını öpüb içəri keçdi, əl-üzünü yuyub masaya göz gəzdirdi:

- Acından ölürəm, ana, sən əvvəlcə bir yemək gətir, sonra danışarıq.

Yazıq ana bir şey anlamadan tez-tələsik süfrə açdı. Səlim yeyir, anası isə üz-üzə oturub ona baxırdı. Səlim laqeydliklə dedi:

- Həmişəlik gəldim, daha qayıtmayacam, işlərimi burda quracam.

- Bəs uşaqlar hanı, onları niyə gətirməmisən?

Səlim həqiqəti gizlədərək:

- Hələ bir işlərimi yoluna qoyum, sonra gətirərəm.

Axşam atası da ona dedi:

- Uşaqları nahaq gətirməmisən, Allaha şükür, evimiz dörd otaqlıdır, hamıya yer çatardı.

Səlimisə həqiqəti deməyə tələsmirdi.

Bir-iki ayın içində Səlim bütün işlərini qaydasına saldı, şəxsi obyektlərini açdı, ev aldı. Amma Gülərlə oğlunu gətirməyi ağlına belə gətirmirdi. Bir gün atası:

- Səlim, gəl otur, sözüm var. Nəyi gözləyirsən, niyə gedib ailəni gətirmirsən, - dedi.

Səlim daha gizlətməyin mənasız olduğunu anlayıb, hər şeyi danışdı. Anasının heyrətdən gözləri böyümüşdü. Atası isə bir az durub ona baxdı, sonra isə:

- Dur, buradan rədd ol, bir daha da gözlərimə görünmə, mənim sənin kimi oğlum yoxdur, - dedi.

Anası da nifrətlə ona baxaraq:

- Əgər gedib ailəni gətirməsən haqqımı sənə halal etmərəm, adam da xəstə övladını, gül kimi ailəsini atarmı. Heç Allahdan qorxmursanmı? - dedi.

- Yox, ana, mən Allahdan qorxmuram, rahat yaşamaq istəyirəm, daha xəstəxana gəzməkdən yorulmuşam. Gülər gəlmək istəsəydi uşağı verib gələrdi, demək ki, məni sevmir.

Anasının hirsindən əlləri, dodaqları əsirdi:

- Sənin kimi bir alçağın anası olduğum üçün özümə nifrət edirəm. Çıx, get, daha biz adda valideyinlərin yoxdur.

Səlim qapını vürüb getdi. Yazıq ata-ana lal-dinməz xeyli oturdular. Axırda kişi dedi:

- Gəlinin də, valideyinlərinin də yanında rəzil olduq. Gör bu neçə ayda bir dəfə də olsun heç birimiz o qıza zəng etməmişik, indi haqqımızda nə düşünürlər. Xanım, bizim gedib o qızı, nəvəmizi evimizə gətirməyimiz lazımdır. Uşağı özümüz müalicə etdirərik, Allaha şükür, hər şeyə imkanımız var.

Sonra Səlimin anası Gülərə zəng edərək hal-əhval tutub, üzrxahlıq etdi:

- Qızım, bizi bağışla, biz vəziyyəti bu gün bilmişik. Səlim olanları bu günədək bizdən gizlədib. Biz Səlimi evdən qovmuşuq, ilk fürsətdə gəlib sizi evimizə gətirəcəm, bizimlə bərabər yaşayacaqsınız. İlhamı da özümüz müalicə elətdirəcəyik.

Xəttin başında Gülərin hıçqırıqları eşidilirdi. Qaynanası isə:

- Sən heç narahat olma, biz həmişə səninlə bərabər olacağıq, sən bizim qızımızsan. İndi isə sağlıqla qal, anangilə də bizdən salam de.

Səlimin başı işə-gücə elə qarışmışdı ki, heç kim yadına düşmürdü. Bir maniken qızla tanış olub günlərini onunla keçirirdi. Tez-tez xaricə gedirdilər. Bir müddət sonra evləndilər.

Səlimin ata-anası isə novruz bayramı ərəfəsində, bazarlıq edib Sverdlovska getdilər. Gülər qapını açanda gözlərinə inanmadı, çox sevindi, görüşüb içəri keçdilər. Gülər mətbəxə qaçaraq yemək hazırlamağa başladı. İlham yatmışdı, nənəsi ilə babası onu öpüb, hədiyyələrini çarpayısının yanına qoydular. Gülər anasıgilə zəng edərək, qaynanasıgilin gəldiklərini söylədi.

Bir azdan onlar da gəldilər, söz-söhbət gecəyə çəkdi. İlham da yuxudan durub tanımadıqları adamlara maraqla baxırdı. Nənəsi onu öpüb:

- Bax, İham, mən sənin nənən, bu kişi isə babandır, - dedi.

İlham onların arasında oturub hədiyyələrlə oynayırdı. Səlimin valideyinləri bildirdilər ki, gəlmişik Gülərlə uşağı evimizə aparaq. Gülərin valideyinləri isə:

- Bilirsiniz ki, Gülər bizim tək övladımızdır, ondan ayrılmaq istəmirik, nə qədər desək də, evimizə qayıtmır. Yenə də qərar onundur, getmək istəyirsə, buyursun. Gülər:

- Məni tələsdirməyin, bir-iki gün düşünmək istəyirəm, - dedi.

Bir neçə gün sonra Gülər dedi ki, gedirəm. İki gün sonra onlar Bakıda, evlərində idilər. İndi İlhamın 5 yaşı vardı, babası onu Bakının ən yaxşı həkimlərinə göstərib, müalicəsini elətdirirdi. Güləri də müdiri olduğu idarənin mühasibatlığına işə götürmüşdü.

Gülər sanki, həyata yenidən gəlmişdi, qaynanası uşağa ondan da yaxşı baxırdı. Müalicələrin yaxşı köməyi olurdu. İndi İlham çətinliklə də olsa danışırdı, fikirlərini ifadə edə bilirdi, qıc olmaları tamam azalmışdı. Elə bil sirli bir qüvvə İlhamın sürətlə sağalmasına kömək olurdu.

Səlim isə arvadından övlad istəyirdi. Gah İrana, gah Türkiyəyə, gah da Almaniyaya aparırdı. Amma nədənsə uşaqları olmurdu.

Ilhamın 6 yaşı tamam olmuşdu. Davamlı müalicələr nəticəsində sərbəst danışa bilirdi. Qıc olmaları xeyli azalmışdı, məktəbə də, hazırlığa da gedirdi. Müəlliməsi onunla xüsusi məşğul olurdu. Gülər baş mühasib keçmişdi. Qaynatası deyirdi ki, mən təqaüdə çıxana qədər sən işləri yaxşı öyrən, bəlkə yerimə sənin təqdimatını verdim.

Səlimin isə daha qapısını döymədiyi həkim qalmamışdı, amma faydasız idi. Bu neçə ildə bir dəfə də olsun nə Güləri, nə də oğlunu yadına salmamışdı, heç Bakıda yaşadıqlarını

da bilmirdi. Bir gün işdə dostuna dərdini danışıb, - nə edim - dedi. Dostu bir as düşünüb:

- Qardaş belə görürəm ki, sənin işin mollalıqdır, get bir mollaya baxdır, gör nə deyir.

Səlim onun cahilliyinə gülsə də:

- Yaxşı, sən bir ünvan tap, gedək, - dedi.

Bir neçə gün sonra dostu gəlib, dur gedək, dedi. Qapıda növbə olsa da, molla onları növbəsiz qəbul etdi. İçəri keçib, orta yaşlı kişinin qarşısında oturdular, Səlim niyə gəldiyini izah etdi. Kişi bir o kitaba, bir bu kitaba baxdı, axırda:

- Qardaş, sənin çarən məndə deyi, gedə bilərsən, - dedi.

Səlim gülərək:

- Bu da sənin mollan, sənə min dəfə demişəm ki, bunlara inanma.

O gecə Səlim heç cürə yata bilmirdi, səhərə yaxın yuxuya getdi. Yuxuda bir nurani kişi gördü, kişi ona:

- Boşuna çalışma, sənin övladın olmayacaq, günahın böyükdür.

- Nə günahım var ki, qatil deyiləm, oğru deyiləm.

Kişi gülümsəyərək:

- Çoxmu istəyirsən ki, övladın olsun?

- Əlbəttə, çox istəyirəm, tay-tuşlarımın uşaqları məktəbə gedir, mənim isə övladım yoxdur.

- Allah sənə övlad vermişdi, sən istəmədin.

Səlim qan-tər içində yuxudan ayıldı, bir stəkan su içdi. Sonra Gülərlə İlhamı yadına saldı, öz-özünə "yoxsa xəstə övladımı atdığım üçün Allahın lənətinə gəldim", - dedi. 22.02.2015.

# MƏNİM HEKAYƏM

Hər kəsin yaddaşında bir cox uşaqlıq xatirələri, maraqlı macəraları yaşamaqdadır. Xatırladıqca, sanki, o günləri təkrar yaşayıram. Uşaq vaxtlarının acılı, şirinli, əyləncə dolu, kövrək xatirələri illər keçsə də, heç zaman unudulmur. Zaman-zaman o illərə geri qayıtmaq, uşaqlığımı təkrar yaşamaq istəyirəm. Bəzən saatlarla ötən illəri, ötən günləri və o günlərdə yaşadığım hadisələri xəyalımda film kimi seyr edirəm. Keçən günlərin bir daha geri dönməyəcəyini bilsəm də, o illərin həsrətini çəkirəm.

Mən Odlar yurdu Azərbaycanın ən səfalı, ən gözəl, füsünkar və maraqlı bir guşəsində - Daşkəsən rayonunda 1992-ci ildə anadan olmuşam. Rayonumuz Kiçik Qafqazın şimal-şərqində, Qoşqar çayının sahilində, Qoşqar dağının yaxınlığında, dağların zirvəsində yerləşir. Azərbaycanın beynəlmiləl şairi dahi Nizami Cəncəvinin və məhşur rubai ustadı Məhsəti Gəncəvinin vətəni qədim Gəncə şəhərindən 36 kilometr məsafədədir. Hal-hazırda da burada yaşayıram. Rayonumuzda çoxlu yerli və dünya əhəmiyyətli tarixi abidələr, qədim körpülər, alban məbədləri var. Gözümü açandan əzəmətli, zirvəsi qarlı dağları, gur, dəli-dolu dağ çaylarını, yaşıl gölləri, gen dərələri, gül-çiçəkli yamacları, sıx meşələri, sıldırım qayaları, gözəl, haylı-küylü şəlalələri görmüşəm. Uşaqlığım burada keçib. Bir az da rayonumuzun təbii sərvətləri, flora və faunası haqqında məlumat vermək istəyirəm:

- Dağlarımız təbii sərvətlərlə çox zəngindir. Burada qızıl, mis, kobalt, zəy, alüminium, dəmir filizi, əhəng daşı, qranit və mərmər kimi filiz yataqları var. Qalın və seyrək meşələr dağlara xüsusi gözəllik verir. Meşələrimizdə fısdıq, vələs, palıd, cökə, söyüd, göyrüş, qaraağac və bir çox meyvə ağacları vardır. Dağlarda müalicə əhəmiyyətli, şəfalı dərman bitkiləri bitir. Rayonumuz narzan və turş su kimi şəfalı bulaqları ilə də məşhurdur.

Dağlarda və meşələrdə torağay, kəklik, turac, qırqovul, qaratoyuq, alabaxta, göyərçin, hop-hop, şanapipik, ağacdələn, qartal, ley, yapalaq, bayquş, qaz, ördək və s. quşlar, ceyran, cüyür, maral, qaya keçisi, dövşan, dələ, oxlu kirpi, qaban, porsuq, vaşaq, canavar, ayı, tülkü, çaqqal və s. heyvanlar var. Caylarımızda qızıl xallı balıq, farel, sudaq, xəşəm, taxta balıq, sazan və s. balıqlar var.

Bizim dağlar dəli küləkləri, leysan yağışları, dumanı, çiskini, günəşli görüntüləri ilə göz oxşayır. Bu əzəmətli dağlar hər şeyi mükəmməl yaradan uca Tanrının ən gözəl sənət əsərlərindən biridir.

Bir az da özüm haqqında yazım: - ailəmizin tək uşağı olmuşam. Kiçik yaşlarımda bir qəzada aldığım zədə üzündən yeriyə bilməmişəm. Amma bu əngəl mənim həyata, insanlara, təbiətə, yaşamağa olan sevgimi azalda bilməmişdir. Hələ orta məktəbin 5-6-cı siniflərində oxuduğum zamanlardan şerlər yazmağa çalışardım. Yazdıqlarım bir az bəsit, bir az gülməli olsa da, şer yazmağı çox sevdiyim üçün inadla yazmağa davam edirdim. Zamanla yaşa dolduqca təbiətə daha çox can atırdım, təbiətlə ünsiyyəti, təklikdə xəyallara dalmağı, təbiəti dinləməyi, seyr etməyi çox sevərdim, indi də sevirəm. Təbiətən bir qədər ciddi, təmkinli, düşüncəli, həssas, kövrək və xəyalpərəstəm. Gözəl olan hər şeyi sevirəm. Uşaqlığım və gəncliyim bu füsünkar dağlarda keçdiyi üçün maraqlı və yaddaqalan xatirələrim çoxdur.

Mən Tanrının bizə bəxş etdiyi bu məkanda, bu möhtəşəm, vüqarlı dağlarda doğulub böyüdüyüm üçün çox xoşbəxtəm. Bu dağların suyunu içib, nemətləri ilə qidalanıb, saf havası ilə nəfəs alıb, torpağının cövhərini aldığım üçün Tanrıma çox şükürlər edirəm.

Amma uca Tanrının mənə bu töhfəsinə, verdiyi bütün gözəlliklərə rəğmən içimdə heç cür tamamlaya bilmədiyim bir hiss vardı. Həyatımda nələrsə əksikdi, çatışmırdı. Özümü yetərincə anlamlı, tam və bəxtiyar hiss edə bilmirdim. Ancaq,

aşağıda anladacağım hadisədən sonra həyatımdaki natamamlığın, çatışmazlığın, mənim tam olmağım üçün nəyin lazım olduğunu anladım.

Heç unuda bilmədiyim, ən çox yadımda qalan bir hadisəni sizlərlə bölüşmək istəyirəm:

- 11-12 yaşlarım olardı. Yay ayları ailəmizlə birlikdə həmişə yaylağa gedərdik, hamı kimi dəyə qurardıq.Yaxınlıqda çoxlu dəyələr olardı. Həm oz rayonumuzdan, həm də başqa şəhər və rayonlardan istirahətə gələnlər, mal-heyvanını dağlara gətirən çobanlar, turist kimi gəzməyə gələnlər və s. Bu dəyələrdə yaşayan ailələr bir-biri ilə çox mehriban qonşuluq münasibəti qurardılar. Bütün ailələrin uşaqları birlikdə oynayar, birlikdə gəzər, birlikdə işləyər, birlikdə yeyərdilər. Hər səhər çobanların tütək səsinə yuxudan oyanardıq. Uşaqlar tələm tələsik çörəklərini yeyib ya nə isə oynamaq, ya da harayasa gəzməyə getmək üçün bir yerə toplaşardılar. Mən təkərli arabada olduğum üçün çox zaman onların uzaq gəzintilərində iştirak edə bilmirdim. Amma uşaqlar gəzməyə getmədikləri vaxtlar mənimlə daha çox vaxt keçirməyə çalışırdılar. Təkərli arabanın gedə biləcəyi hər yerə məni də aparardılar. Hər kəsdə özümə qarşı bir sevgi, bir qayğı və şəfqət duyardım. Maraqla mənim yazdığım şerləri dinləyərdilər. Günün müəyyən vaxtlarında, təbiətin gözəl bir guşəsində məni tək qoymalarını xahiş edərdim. Heç bir zaman xahişimi yerə salmaz, məni incitməzdilər. Mən təbiəti dinləməyi, gözəl mənzərələri seyr etməyi, onunla danışmağı, hisslərimi şerlərlə ifadə etməyi çox sevərdim. Bir dəfə səhər tezdən günəşli, fərəhli bir gündə uşaqlar məni də özləri ilə yaxınlıqdakı çayın kənarına apardılar. Çayın göz yaşı kimi dumduru suyu güzgü kimi ətrafda nə varsa hamısını əks etdirirdi. Kiçik balıqlar suyun içində sevinclə aşağı-yuxarı üzürdülər. Çayın xoş səsini bir musiqi kimi dinləyərdim. Qızlar əl-üzlərini yumaq bəhanəsi ilə çayın aynasında özlərinə nazla sığal-bəzək verərdilər. Onların şən gülüşləri sanki çayın səsi ilə həmahəng olurdu. Oğlanlar soyunub çayda çimir, bir-birilərini

sulayır, çox şən əylənirdilər. Mən isə bu mənzərədən zövq alaraq hər şeyi misralara düzməyə çalışırdım.

Günortaya yaxın hava tutulmağa başladı. Göy üzünə qara buludlar gəlirdi. Güclü leysan olacağı bəlli idi. Belə zamanlarda çayların suyu qəfildən bulanar, ardınca güclü sel gələr, qarşısına çıxan hər şeyi yuyub aparardı. Uşaqlar sudan çıxıb tələm-tələsik geyinməyə başladılar. Qəfildən külək qalxdı, göy guruldayıb, ildırım çaxmağa başladı, hava sanki qaralırdı. Deyəsən yağışla bərabər dolu da yağacaqdı. Uşaqlar geriyə, dəyələrə tərəf qaçmağa başladılar. Mən hamının yadından çıxmışdım. Çayın kənarı daşlıq olduğu üçün arabanı sürə bilmirdim. Nə edəcəyimi bilmədiyim üçün çaşqınlıqla ətrafıma baxırdım, amma qışqırıb kimisə köməyə çağırmaq istəmirdim, heç kimi özümlə bərabər təhlükəyə atmaq istəmirdim. Düşünürdüm ki, həyatım buraya qədərmiş. Bu zaman sanki arabanın zəif itələndiyini hiss etdim. Dönüb baxdıqda təxminən 4-5 yaşlarında kiçik bir qızın arabamı itələməyə çalışdığını gördüm. Bu qara qıvrım saçlı, iri qara gözlü, qırmızı yanaqlı, əsmər bənizli, gözəl bir uşaqdı. Mən bu kiçik qızı görəndə çox qorxdum və həyəcanlandım:

- Sən burada nə edirsən, tez qaç buradan uzaqlaş, sel gəlib səni aparar, - dedim.

- Mən səni burada tək qoyub getməyəcəm, - deyə qız cavab verdi.

Nə qədər qışqırıb ona tez getməsini desəm də, bu kiçik qız məni dinləmədən inadla arabanı yerindən tərpətməyə çalışırdı. Çayın məcrasından çıxmasına, coşub-daşmasına az bir zaman qalmışdı. Qızcığazın gözlərindəki ifadələr mənə bütün təhlükəni unutdurmuşdu. Özüm yadımdan çıxmışdım. Təhlükəni duyan bu kiçik qızın gözlərində qorxu və təlaş yox idi. Bu gözlərdə yaşından böyük bir cəsarət, iradə, qətiyyət və çoxlu göz yaşı vardı. Amma, bu göz yaşları mənə kömək edə bilmədiyi üçün onun gözlərini doldurmuşdu. Nə qədər qışqırsam da, o, arabanı və məni buraxıb getmək istəmirdi, kiçik əlləri, cılız, nazik qolları ilə dəmir arabanı itələməyə çalışırdı. Bu kiçik qızda o qədər

böyük bir qətiyyət və inam vardı ki, mən bütün təhlükəni unudub, sehirlənmiş kimi bu kiçik varlığa baxırdım. O zaman uca Allahın daha bir möcüzəsinin şahidi idim. Bu qədər kiçik, cılız bir qızda bu qədər gücü, qətiyyəti, inadı və inamı necə sığdıra bilmişdi. Yağış artıq başlamışdı, islansaq da, nə bu kiçik qız, nə də mən qorxmurduq. Mən bu kiçik qızın - Lalənin yanımda olmasından çox xoşbəxt idim. Sanki, həyatımın mənasına qovuşmuşdum, bu qızcığaz mənim ruhumu bütünləşdirmişdi. Artıq yağış xeyli güclənmişdi, göy gurultusu lap yaxında eşidilirdi. Çox keçmədən valideyinlərimiz bizim dalımızca gəldilər və bizi geriyə dəyələrə apardılar. Onların üzündəki tələşı, qorxunu görəndə hansı vəziyyətdə olduğumuz yadıma düşdü. Tamamilə islansaq da, məndə belə bir hiss vardı ki, sanki biz təbiətə qalib gəlmişdik. Paltarlarımızı dəyişib sobanın kənarında oturduq. Qəlbimi həyəcanlı hislər bürümüşdü, bu kiçik qıza necə təşəkkür edəcəyimi bilmirdim. O isə təkərli arabamın yaninda dayanıb, gülümsər gözlərilə mənə baxırdı, çox şən və qayğısızdı. O zaman hiss etdim ki, bu qızcığaz həmişəlik mənim qəlbimdə özünə yer edib, qəlbimin ilk titrəyişinə, ilk həyəcanına çevrilib. Artıq o anda Lalə ilə gəlib görünən pak uşaqlıq sevgisinin gücünü hiss etdim. Ətrafda hər kəs bizim qorxduğumuzu düşünüb, hərə bir söz söyləyirdi, sən demə biz çayın sahilindən ayrılandan az sonra güclü sel gəlibmiş. Çöldə güclü dolu yağırdı. O biri dəyələrdəki uşaqlar da bizim dəyəyə yığışmışdılar. Sanki bizi unutduqları üçün xəcalət çəkirdilər, tez-tez məndən üzr istəyirdilər. Mən isə onlara izah etməyə çalışırdım ki, əgər siz qaçmasaydınız mən bu kiçik Laləni tanımazdım. Qaçdığınız üçün sizə təşəkkürümü bildirirəm. O gündən mən və kiçik Lalə mehriban dostlara çevrildik. Hər günü bərabər başlayıb, bərabər başa vururduq. Səhər tezdən mən gözlərimi açanda, artıq Lalə yanımda olurdu. Mən yeni yazdığım şerlərimi ilk dəfə ona oxuyardım, şerlərimin ilk dinləyicisi idi. Hətta onun özünə də şer həsr etmişdim:

Rəngsiz həyatımın sən rənglərisən,

Şeh düşən yanaqların hələ nəmlisən.
Ruhumu oxşayan ilham pərimsən,
Etibarın ən gözəl şerisən, Lalə.

Bu şer 3 bənddən ibarət idi, Lalə bu şeri əzbərləmişdi, fəxr ilə hər kəsə söyləyirdi. Sanki, bu balaca qız mənim fikirlərimi üzümdən oxuyurdu. Allahın bu kiçik möcüzəsinə hər zaman heyranlıqla baxardım. O, elə bil məni tamamlayan bir varlıq idi, özümü onsuz çox tənha hiss edirdim. Hər şeyi aydınladan ağlım onun qarşısında mat qalmışdı.

Səhər yeməyini bərabər yeyər, uşaqlarla bərabər çölə gedərdik. Hər kəs növbə ilə mənim arabamı sürməyə çalışardı. Sonra uşaqlar nə isə oynayar, mən tamaşa edərdim. Lalə isə gül-çiçək toplayar, mahnı oxuyar, rəngli kəpənəklər tutardı. Bir dəfə tutduğu kəpənəkləri şüşə bir qaba yığıb mənə vermişdi ki, saxlayım. Mən isə kəpənəklərə yazığım gəldiyi üçün qabı açıb onları uçurmuşdum. Lalə çox incimişdi, ona başa salmağa çalışırdım ki, onları da Allah yaşamaq, təbiətə bəzək və fərəh gətirmək üçün yaradıb, yaşamaq onların da haqqıdır. O məni çox diqqətlə dinləyər, anlamağa çalışardı. Günlər yavaş-yavaş keçirdi, yay sona yaxınlaşırdı. İçimdə Lalədən ayrılmağın qorxusu vardı, həm də düşünürdüm ki, gələn yay yenə bir yerdə olarıq, valideyinlərimiz belə danışırdılar. Yay sona yaxınlaşdıqca mən daha çox içimə qapanırdım, ayrılmaq mənə ağır gəlirdi. Kədərli hisslər qəlbimi doldurmuşdu, artıq yazdığım şerlərdə də uşaq düşüncələrindən, əyləncələrdən daha çox kədər duyulurdu. Deyirlər hər qəmin, kədərin içində mütləq bir ümid olur, mən də ümid edirdim ki, gələn yay balaca Laləni yenə görərəm. Şerlərimin birində yazdığım kimi:

Ağrılara, acılara dözüb, durmasan,
Dərdinə, kədərinə meydan qurmasan,
Kədərin sonunda sevincə inanmasan,
Yaşaya bilirsən, sən yaşa görüm.

Lalə isə evlərinə dönmək istəmirdi, hər şeyi bəhanə edib tez-tez ağlayır, anasını incidirdi. Onu ovundurmağa çalışsam da,

gələn yay yenə də bərabər əylənərik, bərabər gəzərik desəm də, sanki kiçik qəlbi həmişəlik ayrıldığımızı hiss etmişdi...

Doğrudan da, nə gələn yay, nə də o birisi yaylar, indiyədək Lalə o yaylağa gəlmədi. Qonşuların dediyinə görə Rusiyaya köçmüşdülər. İndi 22 yaşım var. Artıq o vaxtdan 10 il keçir. Amma zaman keçdikcə, mən o günlərin həsrətini daha çox çəkirəm, Laləni daha çox özləyirəm. Gördüyüm hər qızda o qara, parlaq, inamlı gözləri axtarıram. O yağışlı, küləkli, həyəcanlı gün yaşadığım hisslər hələ də xəyallarımda, yuxularımdadır. O kiçik qızcığazın qətiyyətli, inadkar gözləri hələ də gözlərim önündədir. Onunla keçirdiyim o qayğısız, şən, fərəhli günləri çox özləyirəm - ciyəri susuzluqdan təşnə olan birisi kimi. Ürək bəzən çox kövrək, titrək, qəmgin olur, bəzən həyata küsmüş, darılmış olur. Mənə çox şeylər öyrətdin, kiçik qız, ən başlıcası - səsin üçün darıxmağı. Yerini bilməsəm də, ürəyimdə, beynimdə, xəyalımda və şerlərimdəsən.

Gah xatirələrdə, gah röyamdasan,
Silə bilmədiyim göz yaşımdasan,
Tənhalığım mənimçün bir aləmdir
Olmağın gərəkən hər duamdasan,
Beynimdəsən, könlümdəsən, sən məndəsən.

O kiçik qızla gəzdiyim yerlərə hər il gedirəm, bəlkə bir daha görərəm deyə. Onunla gəzdiyim, danışdığım hər yerdə sanki onu olduğu kimi görürəm: - şən, qayğısız, aramsız o yan-bu yana qaçıb oynayan, kəpənək qovalayan, gül-çiçək toplayan, mahnı oxuyan. Amma faydasız. Artıq o yerlər, o yaylaqlar çox dəyişib, daha yaylaqlarda dəyələr az qurulur, əvəzində yaraşıqlı yay evləri tikilib. İstirahət məkanları daha çoxdur, yaylaq daha yaylağa bənzəmir. O yerlərlə bağlı xatirələrim nə qədər çox olsa da, daha yaylaq məni çəkmir. Mən kiçik Laləni nə qədər çox sevdimsə, həyat onu məndən daha çox uzaqlaşdırdı. Bilmirəm bu 10 ildə heç yadına düşdümmü? Mənim bu kiçik qıza sevgim illərin köhnəldə, unutdura, silə, azalda bilmədiyi bir sevgidir. Qəlbimə kök salmış, daha da artmış, dərinləşmiş bir sevgidir.

Deyirlər, səbr dərdlərin dərmanıdır. Hardasa belə bir cümlə oxumuşdum: - "Sevmək gözəldir, sonunda vüsal varsa, özləmək də gözəldir". Bu bitməz, tükənməz sevgi ilə qəlbimi dolduran Allahımdan özümə səbr, qəlbimə sevgimə qüvvət istəyirəm. Hər gecənin bir səhəri, hər ayrılığın bir sonu vardır. Yazdığım şerlərin birində belə bir bənd var:

Həyat səni ağladanda idrak et,
Bu müşkülü sınaq kimi qəbul et.
Hər sınağın mütləq vardır hikməti,
Bu hikməti aça bilsən, aç görüm.

Mən artıq 10 ildir bu hikməti aça bilmədim. Nədən Tanrım bu kiçik qızı qarşıma çıxartdı, sonra ayırdı? Yoxsa bu da bir sınaqdır?
23.08.2014.

# MƏZARSIZ ŞƏHİD

Mən şəhid Anar Mürsəlov adına Daşkəsən şəhər 2 saylı tam orta məktəbi bitirmişəm.

Aprel ayının 24-ü idi, Anar Mürsəlov adına məktəbdə bir canlanma, izdiham var idi. Bu gün A. Mürsəlovun şəhid olduğu gün - anım günü idi. Tədbirə mən də dəvətli idim. Anarın əbədi sevgilisi Leyla ilə anası Qızbəs xanım yanaşı dayanmışdılar. Anarın bütün qohum-əqrəbası, dostları, müəllimləri, müxtəlif idarə və təşkilatların nümayəndələri və məktəbin şagirdləri tədbirdə idilər. Uşaqlar Anarın igidliyini, şəhid olduğu anları hazırladıqları səhnəciklə tədbir iştirakçılarına göstərməyə çalışırdılar. Müəllimləri, dostları onun haqqında ağız dolusu danışırdılar. Hər kəsin gözlərində kədər qarışıq bir qürur hissi var idi.

Anar Faiq oğlu Mürsəlov 1975-ci il sentyabrın 7-də Daşkəsən şəhərində anadan olub. Orta məktəbə də burada gedib, O vaxtlar məktəb dahi rus şairi A.S.Puşkinin adını daşıyırdı, rayonda yeganə rus dilli məktəb idi. Məktəbin həm rus, həm də azərbaycan bölməsi var idi.

Anar məktəbə qədəm qoyduğu ilk gündən məktəbin ədəbiyyat müəlliməsi Duman müəllimənin diqqətini cəlb etmişdi. Duman müəllimə 5-ci sinifdən Anarın sinif rəhbəri olmuşdu. Duman müəllimə həmişə fikirləşirdi ki, bu balaca, qarayanız oğlan mənim ən sevimli şagirdlərimdən biri olacaq. Aylar, illər ötdükcə Anar böyüdü və tərbiyəli bir şagird kimi müəllimlərinin qəlbində özünə yer tutdu. Anar məktəbin yaxşı oxuyan şagirdlərindən biri idi.

Duman müəllimə Anar haqqında öz xatirələrini mənə danışdı:

- 8-ci sinifdən başlayaraq Anarın baxışlarında həmişə bir nisgil görsənirdi. Bu ən çox ədəbiyyat dərslərində olurdu, çünki, dərslərdə qəhrəman övladlarımızdan danışanda onun nəzərləri

bir nöqtəyə dikilirdi. Bəlkə də, Anar fikirləşirdi ki, mən də o qəhrəmanlar kimi ola bilərəmmi?

Sən demə, Anarın taleyinə irəlidə hələ nələr yazılacaqmış. Onun vətənpərvərliyi elə 9-cu sinifdə özünü göstərdi. Mən sinfə girərkən Anarı dərsdə görmədim, uşaqlar dedilər ki, Anar dostu və sinif yoldaşı Rövşənlə Tərtərə döyüş bölgəsinə gedib. Məni həyəcan bürüdü, tez ailəsinə xəbər verdim. Anası Qızbəs xanım dedi ki, Anar səhər tezdən məktəbə getmək adı ilə evdən çıxıb.

Qızbəs xanımın dediyinə görə, orada Vilayəddin adlı əsgər qohumu Anarla dostunu görüb:

- Anar, siz burda neynirsiniz, kimnən gəlmisiniz, bura oğul-uşaq yeri deyil.

- Heç kimə demə, evdən qaçmışıq, gəlmişik əsgərlərə kömək eliyək, biz də vuruşaq.

- Siz burda qala bilməzsiniz, qardaşım, yaşınız çatmır, komandir də qoymaz, evə qayıtmalısınız. İndi evdə ata-ananız çox nigarandırlar, onlara da xəbər vermək lazımdır.

Sonra Vilayəddin Anargilin evlərinə zəng eləyib Anarın Tərtərə gəldiyini bildirmişdi. Onları komandirin yanına aparıb məlumat vermişdi. Komandir də onlara deyib:

- Uşaqlar, yaşınız çatmadığı üçün sizi döyüşə buraxa bilmərik.

Daşkəsən rayon Hərbi Komissarlığının köməyi ilə Anargili geri gətirdilər. Evdə hər kəs çox nigaran idi, amma Anarı danlamadılar, sadəcə əsgərlik vaxtınadək gözləməyini istədilər.

Bundan sonra olanları Duman müəllimə belə anlatdı:

- Səhərisi gün mən sinfə girəndə Anarı gördüm, yaxınlaşdım və onu tənbeh etdim ki, sən nə üçün xəbərsiz getmisən?

Anar vulkan kimi püskürdü:

- Müəllimə, mən elə bilirdim ki, siz məni müdafiə edəcəksiniz. Bu gün torpaqlarımız mənfur ermənilər tərəfindən işğal olunursa, günahsız insanlar öldürülürsə, mən necə sakit

dura bilərəm? Gecələr gözümə yuxu getmir, mən də vətənimi qorumaq istəyirəm.

Mən bir anlıq tutuldum, Anarı sakitləşdirməyə çalışdım:

- Mən səni başa düşürəm, oğlum, ancaq sən bir məktəbi bitir, sonra özləri səni hərbi xidmətə çağıracaqlar.

Anar orta bolu, qara saçlı, sərt baxışlı, qara gözlü, əsmər, mərd və xoş xasiyyətli bir oğlan idi. Xoş xasiyyətinə görə ətrafındakı hər kəs onu sevərdi. Hələ 9-cu sinifdə oxuyanda Anar sinif yoldaşı Leylaya vurulmuşdu. Leyla da onu sevirdi. Leyla orta boylu, ağbəniz, şabalıdı, gur və uzun saçlı, gülər üzlü bir qızdı. Sinifin əlaçılarından biri idi. Leyla da hamı kimi çox narahat olmuşdu, amma Anar kimi vətənpərvər sevgilisi olduğu üçün fəxr eləmişdi. Bir gün Leyla ona dedi:

- Anar, istəyirəm məktəbi bitirəndən sonra ikimiz də sənədlərimizi eyni universitetə verək. Müxtəlif fakultələrdə oxusaq da, eyni binada oxuyarıq.

Anar gülümsəyərək:

- İnşaallah, qismət olursa oxuyarıq, - dedi.

Amma, Leylaya deməsə də, Anarın fikrində oxumaq yox, orduya getmək, vətənin azadlığı uğrunda döyüşmək vardı. Çünki, 1990-cı ilin yanvar faciəsindən, Ülvi Bünyadzadədən başlayaraq Daşkəsən rayonu xeyli şəhid vermişdi. Ülvi də bizim məktəbin şagirdi olub. Məktəbi bitirənə yaxın Anar Leylaya dedi:

- Leyla, sən sənədlərini ali məktəbə ver, mənim yolum başqadı, mən əsgərliyə gedəcəm, bu qədər şəhid verdiyimiz bir vaxtda mən arxayınlıqla universitet oxuya bilmərəm.

Leyla onu yaxşı başa düşürdü, amma ondan ayrılmağı düşünmək belə istəmirdi:

- Anar, mən də səninlə gedəcəm.

- Olmaz, Leyla, ora sən yaşda qızların yeri deyil, yenə tibb bacısı olsaydın bir işə yarayardın, sən oxumalısan. Məni gerçəkdən sevirsənsə oxuyacaqsan.

- Əgər belə istəyirsənsə, mən sənədlərimi universitetə yox, tibb texnikumuna verəcəm. İnşaallah, mən texnikumu bitirənədək müharibə də bitər, bitməsə mən də orduya gedəcəm.

- Bəs sən universitet oxuyub kimyaçı olmaq istəmirdinmi?

- Universiteti sonra bərabər oxuyarıq, təki müharibə bitsin.

Duman müəllimə sonrakı hadisələri danışdı:

- Nəhayət, Anar 11-ci sinfi bitirdi, son zəng qurtardı, hamı dağılışdı. Anar yoldan qayıdıb mənim yanıma gəldi və dedi ki, müəllimə, sən bizi heç vaxt unutma. Doğrudan da Anar şəhidliyi ilə unudulmaz oldu.

Anar qərarını evlərində də bildirmişdi. Məktəbi bitirən kimi rayondakı Hərbi Komissarlığa getdi ki, məni əsgərliyə aparın. Amma hələ 18 yaşı tamam olmadığı üçün növbəti çağırışa qədər gözlə dedilər.

Leyla isə məktəbi bitirib sənədlərini Tibb texnikumuna verdi və qəbul olundu.

Nəhayət 1994-cü ilin yanvar çağırışında Anar əsgərliyə gedəsi oldu. Evdə hamı çox nigaran idi, amma o çox sevinirdi. Leylaya zəng eləyib:

- Leyla, axır ki, əsgərliyə gedirəm, məni gözlə, həsrət qəlbini üzməsin, sən dözümlü qızsan, qayıtsam evlənərik, işdir qayıtmasam ağlama, sən ağlasan ruhum yanar, bir də ki, şəhid sevgilisi ağlamaz. Könlün tutan biri ilə evlənərsən.

- Yaxşı yol, Anar, inşaallah sağ-salamat qayıdarsan, səni gözləyəcəm, gəlsən də, gəlməsən də.

Anar yanvarın 15-də Tərtərə hərbi xidmətə yola düşdü, anası, atası, qohum -əqrabası onu yola salmağa gəlmişdilər. O, anası Qızbəs xanımın gözlərini silib ağlama, qayıtsam yenə bir yerdə olacağıq, işdir şəhid olsam, sevin ki, tək sənin yox vətənimin oğlu oldum.

Anar Tərtər-Ağdərə istiqamətində döyüş bölgəsinə gəldiyi andan döyüşə can atırdı. Hərbi xidmətə gəldiyi ilk gündən yoldaşlarından hərbə olan həvəsi, çalışqanlığı, düşmənə olan güclü nifrəti ilə fərqlənirdi. Türk hərbçilərinin keçdiyi təlimlərdə

iştirak edir, hərbin sirlərini öyrənirdi, sərrast atıcı idi. Öz xüsusi keyfiyyətlərinə görə həm komandanlıq tərəfindən, həm də Türkiyədən gəlmiş hərbi təlimatçıların komandanlığı tərəfindən mükafatlandırılmışdı. Anar cəmi üç ay idi ordu sıralarına gəlmişdi, amma hamı onu ləyaqətli, qorxmaz bir əsgər kimi tanıyırdı. Onun yanında heç kim qorxaqlıqdan danışa bilməzdi.

Təlimlər bitəndən sonra Anara 3-4 gün icazə verdilər ki, evlərinə gəlsin. Anar rayona gəldi, valideyinləri, qohum-əqrəbası, dostları, müəllimləri ilə görüşdü.

Duman müəllimə mənə bu barədə danışdı:

- Mən Anarla küçədə rastlaşdım, soruşdum ki, bəs sən əsgərlikdə deyilsənmi, oğlum?

- 3-4 günlüyə icazə veriblər ki, evə gəlim, qayıdan kimi Tərtərə döyüş bölgəsinə gedəcəm.

- Özünlə qalın corab, filan götür, havalar soyuqdur, xəstələnməyəsən.

- Götürərəm, müəllimə narahat olma, sağlıqla qalın.

Bu mənim Anarla son görüşüm idi.

Aprel ayının 17-dən Anargili 703 nömrəli hərbi hissəyə göndərdilər. Orada Anar bir neçə döyüşlərdə iştirak etdi, döyüşlər zamanı yüksək fədakarlıq göstərmişdi. Aprelin 20-dən sonra Anarı Ağdamın Şotlanlı kəndinə göndərdilər.

O vaxtlar əli silahlı əsgərlər dəstə-dəstə Ağdamı tərk edirdilər. Qrad qurğuları, PDM-lər, tanklar, toplar rayondan çıxarılaraq naməlum istiqamətə aparılırdı. Rayonda qalmış əhalinin üz tutacaq bir yeri yox idi. Rəhbər işçilər rayonu tərk etmişdilər, nə bir hərbçi, nə də komandir qalmamışdı. Ağdamda yaradılan 6 özünümüdafiə taborunun komandirləri Ağdamlı idilər, 6-sı da döyüşdə şəhid oldu. O zaman dövlətdən kömək gözləməyən, yalnız yerli əhaliyə və özünə güvənən Ağdamın Şirin Mirzəyev, Yelmar Edilov, Mikayıl Gözəlov, Qatır Məmməd, Allahverdi Bağırov, Fred Asif kimi oğulları var idi. O vaxt "Papravənd qartalları" batalyonu Azərbaycanın hər

yerində güclü bir batalyon kimi tanınırdı - Həsən müəllim yaratmışdı, özü də rəhbərlik edirdi.

Ağdamın faciəsi ondadır ki, o bir gün içərisində getmədi, düşmənə günbəgün verildi. Ağdamı ermənilərə ağdamlılar vermədilər, təkcə ağdamlılardan 5400 nəfəri torpağının müdafiəsində həlak olub və yaralanıb. Ağdam 40 gün tək döyüşdü.

Belə bir vaxtda döyüşə verilən yeni çağırışçılara təlim keçməyə belə imkan olmurdu. Komandirlər isə köhnə döyüşçüləri irəli verməyə ehtiyat edirdilər, çünki onlar batalyonun onurğa sütünu idilər, onları itirmək batalyonun dağılması demək idi. Köhnə döyüşçülərdən ibarət dəstə ehtiyat dəstəsi hesab edilirdi, ən vacib və önəmli əməliyyatlara göndərilirdilər. Cəbhəyə yeni gəlmiş, hələ döyüş görməmiş əsgərlərlə tankların qarşısına çıxmaq ağlabatan olmasa da, gerçək bu idi. Komandirlər üçün çox çətin idi, onlar həm əsgərləri qorumalı, həm onların qorxmamaları üçün ruhlandırmalı idilər.

Aprelin 23-də ermənilər hücuma Ağdamın Şotlanlı kəndindən başlamışdılar. Kənd uğrunda ağır döyüşlər gedirdi. Hücum əmri veriləndə Anar silahını götürüb öz mövqeyinə qaçdı. Qarşıdakı düşmən qüvvələri iri çaplı pulemyotlardan atəş açırdılar. Bu döyüşdə Anar onlarla erməni öldürmüşdü. Döyüşdən sonra hamı sevinirdi, cüzi yaralanmalar olmuşdu. Baxmayaraq ki, əsgərlərin 70%-i yeni əsgərlər idilər, bu döyüşü ləyaqətlə başa vurmuşdular, bu hücum ermənilər üçün uğursuzluqla nəticələnmişdi.

Kəşfiyyat dəstələrinin verdiyi məlumata görə ermənilər itirilmiş qüvvələrin yerinə yeni qüvvələr və texnika gətirirdilər. Məlumatı dəqiqləşdirmək üçün daha bacarıqlı dəstə göndərmək lazım idi. Qərargah rəisi bu məqsədlə leytenant Quliyevlə 7 nəfərlik kəşfiyyat dəstəsi yaratdı. Erməni quldurlarının qüvvələri haqqında məlumat əldə etmək üçün düşmən arxasına bu kəşfiyyat dəstəsini göndərdilər, onların arasında çavuş Anar

da var idi. Tapşırıq məlum idi, düşmənin mövqeyini öyrənib, qoşunun tərkibini və texnikasının sayını müəyyənləşdirməli idilər. Onlar gizli yol seçib plan üzrə hərəkət etməyə başladılar. Lakin əsas qüvvədən bir az aralanan kimi kəşfiyyatçılar qəflətən düşmən texnikası ilə üz-üzə gəldilər, heç kəs özünü itirmədi. Dəstənin komandiri döyüş əmri verdi. Anar 13 nəfərdən artıq döyüş yoldaşının cəsədini döyüş meydanından çıxarmışdı. Düşmənin bir ədəd PDM-1-i sürətlə əsgərlərimizə doğru yönəldi. Komandirin atdığı qumbara düz düşmən texnikasının üstünə düşdü. PDM-1 güclü partlayışla alışıb yandı. Bu vaxt komandiri vurdular. Başqa bir tankın irəlilədiyini, komandirinin vurulduğunu görən Anar qumbaraatan silahla tankı vurmaq, komandirini döyüş meydanından çıxarmaq istədi, ayağa qalxdı, silahı qarşıdan gələn texnikaya tuşladı. Erməni quldurlarının açdığı atəş Anarı yerə sərdi, düşmən onu sinəsindən vurmuşdu. Anar Vətən uğrunda şəhid oldu.

Ermənilər həm texnika, həm sursat, həm də canlı qüvvə baxımından güclü idilər. Onlar Şotlanlıya "Tiqranmeç" zirehli qrupu, 6-7 tank, bir neçə PDM ilə hücum etmişdilər. Bizimkilərin əllərində isə Qranatamyotlar və digər silahlar var idi, texnika yox idi, demək olar ki, canları ilə dirənirdilər, Hücum qanlı döyüşlərlə müşayət olunurdu. Bizim ordu döyüşlə ərazini tərk etməyə məcbur olurdu, çox sayda itkilər verirdilər. Üzərlərinə yeriyən texnikanın qarşısından şəhidləri çıxara bilmirdilər. Bu səbəbdən də erməni tərəfdə çoxlu şəhid cəsədləri qalmışdı, onlardan biri də şəhid Anarın cəsədi idi. Şotlanlı işğal olunduğu üçün onları oradan çıxarmaq mümkün olmadı.

Səhərə yaxın telefonun səsinə Faiq kişi yuxudan oyandı, dəstəyi qaldırdı:

- Alo.
- Anar Mürsəlovun ailəsidir?
- Bəli.

- Danışan Anarın əsgər yoldaşı Qabildir. Xahiş edirəm özünüzü ələ alasınız. Dünən Şotlanlı kəndi uğrunda döyüşlərdə Anar qəhrəmancasına...

Dəstək Faiq kişinin əlindən düşdü. Gözlərindən axan yaşlar paltarına tökülürdü. Bir az özünü toxdadıb, asta səslə:

- Qızbəs, ay Qızbəs...

- Nədi?

- Deyəsən, Anar dünənki döyüşdə yaralanıb, dur bir komissarlığa gedək.

Qızbəs hönkürtü ilə ağlamağa başladı. Faiq kişi onu sakitləşdirib:

- Ağlamağın yeri deyil, gedək komissarlıqdan öyrənək, bəlkə yalandır.

Saat 9-da ikisi də Hərbi komissarlığa gəldilər. Komissarlıqdan məlumat aldıqdan sonra Tərtərə yola düşdülər. Tərtərdə qərargah rəisini tapdılar, Anarın şəhid olduğunu öyrəndilər. Sonra Anarın döyüşə yollandığı mövqeyə qalxdılar, döyüş gedən ərazini gözdən keçirdilər. Durduqları səngərdən 3-4 km aralı zirehli texnika tüstülənirdi. O yerlər düşmən nəzarətində idi. Qərargahda onlara dedilər ki, o döyüşdə həlak olan əsgərlərin cəsədlərini hələ götürə bilməmişik. Orada çox əsgərimizin cəsədi qalıb, danışıqlar gedir, cəsədləri götürən kimi sizlərə təhvil verəcəyik. Faiq kişi ilə Qızbəs xanım rayona qayıtsalar da, öz evlərində belə qərar tuta bilmirdilər. Anarı öz əlləri ilə, bütün şəhidlər kimi, torpağa tapşıra bilmədikləri

üçün çox acı çəkirdilər...

Leyla bu xəbəri eşidəndə sanki, dünya başına fırlanmışdı, nə edəcəyini, nə deyəcəyini belə bilmirdi. İlk vaxtlar özünü öldürmək istəyirdi. Anarsız necə yaşayacağını, özü üçün hansı gələcəyi quracağını bilmirdi. Qəlbindən aldığı yaradan sarsılmışdı, göz yaşları dayanmırdı. Öz-özünə "mən bu acı ilə necə yaşayacam, Allahım, mənə kömək ol, mənə dözmək üçün güc ver, mənə səbr ver" - deyirdi.

Bir neçə gün sonra Leyla Anarın bacısı Tünzaləyə yaxınlaşıb hadisənin təfərrüatını öyrənmişdi. Həyatı ona bom-boş və mənasız görünürdü, həyatını onsuz təsəvvür edə bilmirdi, bircə onu bilirdi ki, Anar üçün ölənədək ağlayacaq. Könlünə kimsədən dərman olmayacağını, içindəki həsrət, kədər yükünü tək çəkəcəyini bilirdi. Öz-özünə Anarın xəyalına müraciətlə "ömrümün sonunadək sevgimizi yaşadacam, mənim şəhidim"- deyirdi. Amma içində bir ümid var idi ki, gec ya tez Anarın cəsədini gətirərlər, ürəyi istədiyi vaxt onun məzarı üstünə gedər, onunla istədiyi qədər söhbət edər. Leyla hiss edirdi ki, bir daha heç kimi sevə bilməyəcək, Anar onun əbədi sevgisidir. Amma aradan 22 il keçsə də Anarın məzarı olmadı, Leyla isə hələ də ərə getməyib, saçlarına vaxtsız dən düşüb. O, Anarın şəhidliyi ilə fəxr edir.

Anar cəmi 19 il yaşasa da, əbədi olaraq xalqın qəlbində yaşayacaq, çünki şəhidlərin qanı bu torpağa çökübdür. Şəhidlər üçün ömrün neçə il olmasının fərqi yoxdur, çünki müqəddəs "Quran"da yazıldığı kimi, "Şəhidlər Allah dərgahında diridirlər, lakin siz bunu dərk etmirsiniz" (Bəqərə surəsi, 154-cü ayə). "Şəhid olanları heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur. (Ali-İmran surəsi, 169-cu ayə).

Vətən öz şəhidləri ilə Vətəndir. Bu məzarsız şəhidin məzarını axtaran anası, sevgili yarı neyləsin, yanan ürəklərini necə sərinlətsin?

Indi Anarın kiçik qardaşı Emin onun arzusunu yerinə yetirərək H.Əliyev adına ali hərbi məktəbi bitirərək zabit olub, and içib ki, Anarın qanını yerdə qoymayacaq.

Qızbəs xanım Anar haqqında hər zaman toxtaq və qürurla danışır. Bu gün oxuduğu məktəb Anar Mürsəlovun adını daşıyır, məktəbin girişində, foyedə Anarın büstü qoyulub. Hər il aprel ayının 24-də, şəhid Anar Mürsəlovun şəhadəti günündə məktəbdə anım tədbiri keçirilir, Anarın qəhrəmanlığı yad edilir,

məktəbin şagird və müəllimləri onun haqqında qürurla danışırlar.

Qızbəs xanımla Leylanın təsəlli yerləri bu məktəbin foyesindəki şəhid Anarın büstüdür. Bu gün onlara demək istəyirəm ki, gözünüz yollarda qalmasın, Anarın ruhu hər zaman yanınızdadır. Vətənin şəhid oğlu Anarın dediyi kimi:

Torpağımız babalardan əmanətdir,
Torpaq üçün candan keçmək səadətdir,
Ömrümüzdən ömür vermək rəşadətdir,
Vətən üçün şəhid olmaq istəyirəm
Vətənimi istəyirəm.

29.06.2016.

# SON QƏRAR

Axşamdan yağan qar hələ də kəsməmişdi. Yanvarın axırları olsa da, hələ də bərk şaxtalar yox idi. Dağ rayonu üçün belə hava çox yumşaq sayılırdı. Günortadan sonra idi, saat 4-ə az qalırdı. Elnur pəncərənin qabağında dayanıb fikrə getmişdi, əlindəki siqaretin yanıb qurtardığının fərqində belə deyildi. 25yaşı olsa da, saçlarında ağ zolaqlar görü- nürdü. Dodaqları qətiyyətlə sıxılmışdı, bu gün Nərgizlə son dəfə görüşüb, danışmalı idi.

Elnur Daşkəsəndə doğulub, böyümüş, orta məktəbi burada bitirmişdi. Sonra Neft Akademiyasına daxil olub, dağ mühəndisliyi oxumuşdu. Ali məktəbi bitirdikdən sonra əsgərliyə getmişdi. Qarabağdakı döyüşlərin acı xəbərləri onun fikirlərinə bir istiqamət verdi. Bakı qarnizonlarının birində xidmət etsə də, komandirin yanına gedib, könüllü olaraq Qarabağa getmək istədiyini bildirdi. İki həftə sonra ona Qarabağa təyinat verildi.

Onunla bərabər daha on beş nəfər könüllü də var idi. Onlar axşamdan əşyalarını toplayıb yatdılar ki, səhər tezdən yola çıxsınlar.

Elnur Qarabağa gedəcəyini ailəsinə bildirmək, onları nigaran qoymaq istəmirdi. Evin tək oğlu idi, bir də bacısı Gülnar vardı. Səhər tezdən saat 7-də Bakıdan çıxdılar, avtobus Ağdama axşamtərəfi çatdı, onlar komissarlığa gələrək qeydiyyatdan keçdilər, hərbi hissəyə çatanda artıq qaranlıq düşmüşdü. Səhərisi onları təyinatı üzrə bölmələrə göndər- dilər, Elnur kəşfiyyat dəstəsinə düşmüşdü. Hər gün ölümlə üz-üzə gəlsələr də, geri dön- məyi heç kim düşünmürdü. Dağ rayonunda böyüdüyü üçün bu şərait ona çətin gəlmirdi. Amma bir dəfə növbəti əməliyyata getdikləri zaman üç dostu ilə bərabər minaya düşdülər, dostlarının ikisi orada şəhid oldular, bir dostu ilə Elnur isə yaralanmışdılar -Elnur ayağından, dostu isə başından. Gəldikləri ərazidən geriyə - hərbi hissəyə dağ cığırları ilə ən azı iki saatlıq yol var idi. Hər ikisi qan itirirdilər, dostu huşsuz idi, çox

düşünməyə vaxt yox idi. Elnur dostu Rəşadı dalına alaraq min əzabla geriyə yol aldı. Deyəsən ayağı dizdən sınmışdı, qolunda zədələr var idi. Bir ayağını sürüyə-sürüyə, tez-tez dayana-dayana bir təhər hərbi hissəyə qayıda bilmişdi. Çox qan itirdiyinə görə artıq heç nə hiss etmirdi, gözləri qaralır, başı hərlənirdi, çox sağlam olsa da, daha dözümü qalmamışdı. Uşaqlar bir anda onları əhatəyə alıb tibb məntəqəsinə götürdülər, sonra nələr olduğundan Elnurun xəbəri olmamışdı. Gözlərini açanda özünü Bakıdakı hərbi hospitalda gördü. Başının üstündə dayanan həkim və tibb bacıları onun ayıldığını görüb çox sevindilər, özünü necə hiss etdiyini soruşdular. Elnurun ilk sualı dostu Rəşad oldu. Həkimlər Rəşadın altı saatlıq əməliyyatdan çıxdığını, hələ ayılmadığını söylədilər. Bir də dedilər ki, əgər hərbi hissədə yoldaşlarınız sizə qan verməsəydilər, nə sən, nə də dostun heç Bakıya gəlib çatmazdınız.

Rəşadın başından və bədəninin müxtəlif yerlərindən kiçik qəlpələr çıxarmışdılar. Elnur Rəşadın sağ qaldığına çox sevinirdi, onu görmək istədiyini bildirdi, amma ona ayağa qalxmağa icazə vermədilər, ayağının dizdən kəsildiyini söylədilər və dedilər ki, əgər yaralandıqdan sonra geriyə tez qayıda bilsəydin, həm də dostunu kürəyinə alıb ayağına ağırlıq salmasaydın, yəqin ki, ayağını itirməzdin. Elnur onlara baxıb qətiyyətlə:

- Mən Rəşadın sağ qalması üçün ayaqlarımın ikisini də itirməyə razı idim, - dedi.

Ətrafdakı hər kəs onun bu böyük ürəyinə, bu qətiyyətinə qürurla baxırdı. Hospitalda Elnurun müalicəsi bir aydan artıq davam etdi, hələ də evdəkilərin heç nədən xəbəri yox idi. Bir də rayonda qoyub gəldiyi, ürəyində sevgisini, həsrətini daşıdığı Nərgizin bu hadisələrdən xəbəri yox idi.

Bu arada canından çox sevdiyi dostu Rəşadın da vəziyyəti artıq stabilləşirdi, amma onun hələ uzun müddət müalicə alması lazım idi. Elnur hər gün Rəşadın yanında saatlarla oturar, ona qulluq etməyə çalışardı. Onu çox yormamaq üçün az danışardı.

Bir gün həkimlər Elnura müalicəsinin daha bitdiyini söylədilər. Evə getmək zamanı çatmışdı. Həftə sonu Elnur hospitaldan çıxmalı idi, indi Rəşadın yanında daha çox vaxt keçirirdi. Söhbətarası Rəşada dedi:

- Hə, dostum, mənim müalicəm bitti, həftə sonu rayona gedəcəyəm.

Rəşad onun sağaldığına çox sevinsə də, Elnursuz darıxacağını bilirdi. Amma Elnur Rəşaddan nigaran deyidi, çünki anası ilə bacısı Şəkidən gəlib Bakıda ev tutmuşdular, tez-tez yanına gəlirdilər, atası isə rayonda işləyirdi.

Nəhayət, həftə sonu çatdı, Elnuru evə yazdılar, hərbi xidmətdən də azad etmişdilər. Elnur Rəşadla, palata yoldaşları, həkimlər və tibb bacıları ilə görüşüb hospitalın həyətinə düşdü, əlində çəlik var idi, ayağına protez düzəltmişdilər. 24 yaşlı, pəhləvan cüssəli bu gənc ağacların altındakı skamyaların birində oturdu, fikir onu götürmüşdü. Rayona qayıdıb, bütün bu olub-keçənləri ailəsinə, ürəyinin hakimi Nərgizə necə deyəcəyini düşünürdü. Beləcə bir saat da keçdi. Saat 11-ə işləyirdi, getmək vaxtı idi, çünki, Bakıdan Daşkəsənə altı saatlıq yol vardı. Əlində kiçik bir çanta avtovağzala gəlib Gəncə avtobusuna bilet aldı. Yol boyu 5-6 ay ərzində baş verənlər film kimi gözlərinin önündən

təkrar-təkrar keçirdi. Sanki, 5-6 ayda on il qocalmışdı, gördüyü saysız ölümlər, erməni vəhşiliyi, ev-eşiyini qoyub qaçan insanlar, yanan kəndlər onun hafizəsində silinməz izlər qoymuşdu. Arabir anasının sakit, ağıllı gözləri, bacısının şən gülüşləri, atasının ciddi üzü və Nərgizin sevgi dolu gözləri onun gözlərinə görünürdü.

Saat dörddə avtobus Gəncəyə çatdı. Elnur avtobusdan düşüb, Daşkəsənə gedən avtobusların dayandığı avtovağzala gəldi. Bir taksiyə minib ünvanı dedi, sürücü onu o saat tanıyıb:

- Ə, sən İsmayılın oğlu deyilsənmi, bu saat səni evinizə çatdıraram, - dedi.

Gəncə Daşkəsən yolu öz gözəl mənzərələri ilə adamı valeh edirdi. Elnur acgözlüklə bu doğma yerlərə, dağlara, Qoşqar çayına, meşələrə baxırdı. Buralar üçün nə qədər darıxdığını indi anlayırdı. Yuxarı qalxdıqca təmiz dağ havasını ciyərlərinə çəkməkdən doymurdu. Ürəyi az qalırdı köksündən çıxsın, döyüntüsü qulaqlarında eşidilirdi.

Bir də ayıldı ki, taksi yaşadığı üç mərtəbəli binanın qabağında dayanıb. Sürücü ondan qabaq qaçıb evlərinin qapısını döydü, qapını açan bacısı təəccüblə tanımadığı kişiyə baxırdı. Kişi isə uca səslə dedi:

- A qızım, ata-ananı çağır muştuluğumu versinlər, Elnuru gətirmişəm.

Gülnar bir an özünü itirib, çaşqınlıqla baxsa da, tez özünü ələ alıb anasını çağırdı və sürətlə pilləkənlərdən düşüb həyətə yüyürdü. Bir göz qırpımında Elnurun boynuna sarıldı, ardınca da anası. Sürücü isə bəxşişini alıb, sağollaşıb getdi.

Elnurgilin evləri ikinci mərtəbədə idi. Anası hələdə gözlərinə inanmırdı, çünki Elnurun əsgərlikdən gəlməsinə hələ bir neçə ay vardı. Nəhayət, anası özünə gəlib, soruşdu:

- Nə tez qayıtdın, bu nədir belə? - deyə, onun əlindəki əsanı göstərdi.

Elnur gülümsəyərək:

- Bəlkə, qoyasınız evə keçim, - dedi.

Yazıq ana indi özünə gəlib:

- Allah məni öldürsün, uşağı həyətdə saxlamışam.

Səs-küyə qonşular da çıxdılar, Elnurgili əhatəyə alıb, görüşməyə çalışırdılar. Axır ki, Elnur evə qalxdı, ətrafa göz gəzdirib, hər şeyin elə qoyub getdiyi kimi olduğunu gördü. Əl-üzünü yuyub, əynini dəyişib, divanda oturdu. Qonşular da başına yığışmışdılar, aramsız suallar verirdilər. Elnur gülümsəyərək:

- İmkan verin bu gün dincəlim, sabah hər şeyi danışaram, - dedi.

Anası ilə bacısı əlüstü masaya çay-çorək, yemək düzdülər. Qonşular sağollaşıb getdilər, yeyib, çayını içib divanda uzandı, nə qədər yatdığını özü də bilmədi. Gecənin yarısı gözünü açanda hələ də anası ilə bacısının, atasının stolun başında oturaraq ona baxdıqlarını gördü:

- Niyə gedib yatmırsınız? - dedi.

Atası onunla görüşüb, nələr olduğunu soruşdu. Elnur bütün olub-bitənləri başdan ayağadək danışdı. Anası içini çəkə-çəkə sakitcə ağlayır, bacısı ona bir qəhrəman kimi baxır, atasının üzündən isə oğlu ilə qürur duyduğu bilinirdi. Beləcə, səhəri açdılar, gələn-gedənin arası kəsilmirdi. Elnur hadisələri təkrar-təkrar danışmaqdan yorulmuşdu, indi də bacısı fəxrlə danışırdı. Bir neçə gün beləcə keçdi. Elnur isə səbirsizliklə Nərgizin görüşünə gedəcəyi günü gözləyirdi. Telefonla danışsalar da, hələ görüşmək fürsəti olma-mışdı. Ayağının dizdən kəsildiyini də telefonda qıza deyə bilməmişdi.

Elnur qərara gəldi ki, bu axşam qızla görüşsün. Nərgizgil şəhərin yuxarı tərəfində yaşayırdılar. Qızın ailəsi də onların münasibətini bilirdi və mane olmadıqlarına görə Elnuru bəyəndikləri bəlli idi. Hər iki ailə ziyalı ailə idi. Axşam Elnur geyinib evdən çıxdı, yavaş-yavaş görüşəcəkləri yerə tərəf gedirdi. Qızgilin evindən bir az aralı kiçik bir park vardı.

Elnur ora çatıb skamyaların birində oturdu, bir azdan Nərgiz də gəldi. Elnurun oturduğu yerə çatıb dayandı, sanki, Elnuru birinci dəfə görürmüş kimi baxırdı. Elnur ayağa qalxıb bu ağbənizli, gözəl gözlü qıza sehirlənmiş kimi baxırdı.

Baxışların söhbəti dilimizdən mənalı,
Oxunur baxışlarda sevgimizin hər halı.

Bir ildən artıq idi ki, bir-birlərini görmürdülər, ayrılıq, həsrət hər ikisini üzmüşdü. Nəhayət Elnur dilləndi:

- Sən daha da gözəlləşmisən.

Qız isə Elnura heyranlıqla baxaraq:

- Sən isə elə bil xeyli böyümüsən, kişiləşmisən, üzündə sərt cizgilər yaranıb, - dedi.

Oturdular, Elnur qızın əllərini buraxmaq istəmirdi, bu anların bitəcəyindən qorxurmuş kimi, ovuclarında saxlayırdı.

İndi qarşımdasan, baxıram gözlərinə,
Gözlərinin işığı düşübdü gözlərimə.

Qıza baxmaqdan doymurdu, ürəyində o qədər deyiləsi sözləri vardı ki, haradan başla- yacağını bilmirdi. Nərgiz isə bu qəfil gəlişin səbəbini bilməsə də, çox sevinirdi, sanki, dünyanı ona vermişdilər, gözlərindən bəxtəvərlik yağırdı. Heç dnışmaq istəmirdi, sadəcə Elnura baxırdı. Elnur asta səslə sözə başladı:

- Nərgiz, mənə diqqətlə qulaq as, sözümü kəsmə, axırda fikirlərini bildirərsən, - dedi.

Bütün olanları asta-asta danışdı, Nərgiz Elnurun skamyaya söykədiyi əsasını indicə gördü. Bir ayağının dizdən aşağı protez olduğunu eşidib, çox təsirləndi. O, indi Elnuru əvvəlkindən də çox sevdiyini, Elnurun onun gözündə daha da ucaldığını hiss etdi və dedi:

- Mən bir Qarabağ qazisinin həyat yoldaşı olmaqdan qürur duyuram, Elnur.

Beləcə xeyli söhbət etdilər, sonra Elnur onu evlərinə yola saldı, bir az da şəhərin içində gəzib evlərinə gəldi. Hər kəs onu gözləyirdi, masaya yemək düzülsə də heç kim süfrəyə əl uzatmamışdı. Deyə-gülə yeyib söhbət edirdilər, valideyinlərinə Nərgizlə görüşdüyünü söylədi, anasına:

- Nərgizə elçi getməni istəyirəm, - dedi.

Anasının sevincdən gözləri dolmuşdu:

-Əlbəttə oğlum, bu günlərdə mütləq gedərik.

Amma Elnur sabah nələr olacağını hələ bilmirdi, özünü çox xoşbəxt hiss edirdi, bu hisslərin təsiri ilə də yatmağa getdi.

Nərgiz evlərinə qayıdıb, Elnurun gəldiyini, onunla görüşdüyünü anasına söylədi. Elnurun qazi olduğunu, yaxınlarda elçi göndərmək istədiyini bildirdi. Anasının üzündən

sanki bir kölgə keçdi, qızına bir söz deməsə də, fikrə getmişdi. Nərgiz isə bunun fərqində olmadan yatmağa getdi. Amma xoş hisslərin bolluğundan gözünə yuxu getmədi. Atasıgilin otağından asta danışıq səsi gəlirdi, elə bil nəyi isə müzakirə edirdilər. Səhər Nərgiz yuxudan gec qalxdı, əl-üzünü yuyub süfrə arxasına keçdi və anasına:

- Elnurla zəngləşib görüşəcəyəm, - dedi.

Anası qızına baxaraq atasının fikirlərini necə deyəcəyini, qızının bu xoşbəxtliyini necə bərbad edəcəyini düşünürdü. Yemək səssiz başa çatdı, Nərgiz qalxmaq istəyəndə anası:

- Qızım, bir az daha otur, deyəcəklərim var, - dedi.

Nərgiz şən halda oturub:

- Ana, bir az tez de, tələsirəm.

Anası aramla söylədi:

- Gecə atanla bu məsələni danışdım, atan daha Elnurla evlənməyini istəmir, deyir nə çox sağlam oğlan, əngəlli birinə niyə getsin ki. Qızım, sən gəl bu məsələni bir daha düşün.

Nərgiz heyrətdən quruyub qalmışdı, dili söz tutmurdu, yalnız iri qara gözlərindən yaşlar süzülürdü. Sakitcə dönüb otağına keçdi, axşama qədər çıxmadı, anası nə qədər çağırsa da, danışsa da, elə bil eşitmirdi. İki gün belə keçdi, Elnur hər gün dəfələrlə zəng etsə də, telefona da cavab vermirdi. Nəhayət üçüncü gün Nərgiz anasına qəti bildirdi:

- Mən Elnurdan başqasına ərə getməyəcəm, istəyirsiniz verin, istəmirsiniz verməyin.

Elnurun nigarançılıqdan ürəyi sıxılırdı, bacısına dedi:

- Get gör nə baş verib, Nərgiz niyə zənglərimə cavab vermir.

Gülnar geyinib evdən çıxdı və Nərgizgilə gəldi. Qapını Nərgiz açdı, görüşdülər. Nərgiz xəstəlikdən qalxan adama bənzəyirdi. Gülnar hal-əhval tutub nə olduğunu soruşdu. Nərgiz olanları ona danışdı. Gülnar pərt olsa da Nərgizə:

- Mütləq Elnurla görüşüb bunları ona deməlisən, - dedi.

Nərgiz razılaşdı:

- Elnur axşam həmişəki yerə gəlsin.

Gülnar evə gəlib olanları anasına və Elnura danışdı, Nərgizin axşam onu gözləyəcəyini söylədi. Elnur ağır zərbə almış kimi stula çökdü, nə deyəcəyini, nə edəcəyini bilmirdi. Anası isə ona:

- Oğlum, sən axşam get qızla görüş, əgər ayrılacaqsa, edəcəyimiz bir şey yoxdur, əgər uca Allah onu sənə yazıbsa, mütləq bu sınaqdan üzü ağ çıxacaqdır, - dedi.

Elnur axşama qədər evdə kölgə kimi səssiz, düşüncəli gəzib-dolandı. Axşam geyinib Nərgizin görüşünə getdi, parka çatanda Nərgizin gözlədiyini gördü. Yaxınlaşıb salam verdi, qızın üzünə bir xəstəlik çökmüş kimi idi. Yanaşı otursalar da heç biri danışmırdı. Bir az sükutdan sonra Elnur soruşdu:

- Nə düşünürsən, ayrılaqmı?

Nərgiz yaşla dolu gözlərini ona zillədi:

- Məni səndən ancaq ölüm ayırar.

- Valideyinlərin axı razı deyillər.

- Mən onlara fikrimi bildirəcəm, ya razı olarlar, ya mən də ərizə verib ön cəbhəyə gedərəm.

Elnurun deyəcək sözü qalmamışdı, valideyinlərə də haqq qazandırırdı, sevdiyinə də. Bir az da söhbət edib ayrıldılar.

Axşam Nərgiz qərarını valideyinlərinə bildirdi, atası ona istehza ilə:

- Sən elə cəbhəyə get, beləsi daha yaxşıdır, - dedi.

Nərgiz tezdən durub komissarlığa getdi, ön cəbhəyə getmək istədiyini, tibb bacısı olduğunu bildirdi. Oradan çıxıb Elnura zəng edərək iki gün sonra valideyinlərindən xəbərsiz cəbhəyə gedəcəyini söylədi. Elnur onu nə qədər fikrindən daşındırmağa çalışsa da, qız qərarını vermişdi. Elnurun əlindən bir şey gəlmirdi, nə deyəcəyini bilmirdi.

İki gün sonra Nərgiz cəbhəyə getdi, valideyinlərinə məktub qoymuşdu. Hər kəs bu qərardan çaşqın idi. Günlər, aylar beləcə keçirdi, Nərgiz aradabir Elnurla danışsa da, evlərinə heç zəng etmirdi.

Aradan daha iki ay keçdi, atəşkəs elan olundu. Elnur da, Nərgizin ailəsi də Nərgizin

gəlməsini səbirsizliklə gözləyirdi. Bir gün eşitdilər ki, fərman verilib, cəbhədə olan könüllülər tərxis olunurlar. Bir neçə gün sonra Nərgiz Elnura zəng etdi ki, sabah rayona gəlirəm. 3-4 ayı səbrlə gözləyən Elnur bir gecəni gözləyə bilmirdi, bu gecə bitməz olmuşdu. Səhərə qədər otaqda var-gəl etdi. Səhərisi gün günorta Nərgiz zəng elədi:

- Evdəyəm, tezliklə görüşərik, öncə valideyinlərimlə danışmalıyam.

Nərgizin valideyinləri qızlarının sağ-salamat qayıtmasına çox sevinirdilər. Amma cəbhədə keçən aylar Nərgizin həm üzündə, həm xasiyyətində xeyli izlər qoymuşdu. Üzündəki məsum, uşaqsayağı təbəssümlərin yerini daha ciddi, daha dərin ifadələr əvəz etmişdi, baxışları sərtləşmişdi, xasiyyəti daha qətiyyətli olmuşdu.

Bir neçə gün gəlib-gedənlərlə məşğul olduqdan sonra Nərgiz anasına dedi:

- Elnurla görüşməliyəm.

Anası:

-Atan bu işə qətiyyən razı olmayacaq, - dedi.

Nərgiz bir az düşünüb:

- Atamla özüm danışaram.

Axşam yeməkdən sonra Nərgiz atasına onunla danışmaq istədiyini bildirdi. Atası ona axıradək qulaq asdıqdan sonra ya Elnur, ya ailən şərtini qoydu:

- Əgər Elnurla evlənərsən bir daha bu evə ayaq basa bilməzsən, get düşün, - dedi.

Nərgiz qolu-qanadı sınmış kimi oturub atasına baxırdı, düşünürdü ki, görəsən, atam da Elnurla mənim kimi, aylarla hər gün ölümün üzünə dik baxsaydı, ölümün gözlə-qaş arasında olduğunu anlasaydı, bu gün belə mənasız bir qərar verərdimi. Amma onu da başa düşürdü ki, izah etsə belə, atası onu başa düşməz. Sakitcə qalxıb otağına keçdi, Elnura zəng eləyib olan

söhbəti danışdı. Qəti bir qərara gələnədək fikirləşmək istədiyini bildirdi. Elnurun isə deyəcək sözü yox idi, tək çarəsi gözləmək idi. Bir neçə gün də belə keçdi, Elnur bu günlərdə daha bir neçə il qocaldı. Bir axşam Nərgiz ona zəng edib sabah son qərarını bidirəcəyini dedi. Havalar xeyli xoş keçirdi, asta-asta qar yağırdı, hər yer ağappaq ağarmışdı, heç sabaha da kəsəcəyi gözlənilmirdi.

Siqaretin közü barmaqlarını yandıranda fikirdən ayıldı, bu pəncərənin qabağında nə qədər dayandığını unutmuşdu. Olub-keçənləri təkrar yaşamış kimi idi. Telefonu götürüb Nərgizə zəng etdi, cavab yox idi, səbri lap tükənmişdi. Düşünürdü ki, Nərgiz yox desə buralardan çıxıb gedəcək Rusiyaya və bir daha da geri qayıtmayacaq. Evdə tək idi, vaxt da keçmirdi, bu son görüş onun taleyini həll etməli idi. Nəhayət ki, telefon zəng çaldı, xəttin o başında Nərgizin qətiyyət dolu səsi eşidildi:

- Elnur gəl nigah qeydiyyatı idarəsinə, gözləyirəm.

Bu ömrün yazını, qışını bölək,
Sevinci, fərəhi, kədəri bölək.
Birlikdə ağlayaq, birlikdə gülək,
Gəl həyat yolunu bərabər gedək.

25.01.2015.

ŞÖHRƏT PEŞİNDƏ

Hava toranlaşırdı, Şaiqlə Mələk sahildə yanaşı dayanıb Xəzərin xəfif ləpələrinə tamaşa edirdilər. Ətrafadakı rəngbərəng işıqların əksi suda bərq vururdu. Dəniz bu halında çox gözəl idi. Yay axşamı olsa da zəif meh əsirdi. Hər ikisi həftə sonu olacaq toyları barədə düşünürdülər.

Şaiqlə Mələk hələ universitetdə oxuyan vaxtlarında tanış olmuşdular, bir birlərini çox bəyənmişdilər. Paylaşa biləcəkləri bir çox ortaq xüsusiyyətləri, maraqları var idi. Amma Şaiqlə bağlı səbəblərdən universiteti bitirdikləri vaxtdan beş il keçməsinə baxmayaraq evlənə bilməmişdilər. Görünür qismətləri bu vaxta imiş, hər ikisinin bir çox sınaqlardan keçməsi lazım imiş.

Şaiq imkanlı bir məmur ailəsində doğulmuşdu, onu atası Əhməd kişi böyütmüşdü, 2-3 yaşlarından anasından ayrı düşmüşdü. Ağlı kəsən vaxtlarında atasından anasını soruşanda, atası demişdi:

- Bilirsənmi, oğlum, anan başqa birisini sevdiyi üçün bizi tərk etdi, o kişi ilə evlənib Rusiyaya köçdü və bir daha da bizi axtarmadı.

Şaiq atasına baxıb dedi:

- Ver şəkillərinə baxım, heç olmasa kim olduğunu tanıyım.

- Mən o zamanlar onun bütün fotoşəkillərini cırıb atdım, oğlum, evdə onun şəkilləri yoxdur.

Şaiq o zamandan sonra bir daha atasına anası barədə sual vermədi. Dərslərindən artıq qalan bütün vaxtını öz otağında rəsm çəkməklə, ya da sinif yoldaşı və yaxın dostu Raufla keçirərdi. Hər ikisi əlaçı idi, məktəbin fəxri idilər. Rauf fəhlə ailəsində böyümüşdü, təmiz ürəkli, mərd oğlan idi. Şaiqin rəsmlərinə baxıb deyərdi:

- Dostum, zaman gələcək sən çox böyük rəssam olacaqsan, gözəl qələmin və ürəyin var. Rəsmlərin çox canlı alınır, sanki ruhunu da onlara əlavə edirsən.

- Sən zarafat elə, mən doğrudan da böyük rəssam olmaq istəyirəm, istəyirəm ki, öz şəxsi qalereyam, sərgilərim olsun, hamı məni tanısın.

- İnşaallah, olarsan, biz də səninlə fəxr edərik.

Onlar orta məktəbi bitirdikdən sonra, Şaiq Azərbaycan Mədəniyyət və İncəsənət universitetinin Rəssamlıq fakultəsində, Rauf isə Azərbaycan Dövlət Neft Akademiyasında kompüter mühəndisliyi ixtisasında oxudular. Hələ tələbə ikən Şaiqin bir neçə qalereyalarda sərgiləri olmuşdu, müəllimləri onun əsərlərini çox bəyənirdilər. Elə Mələklə də bu sərgilərin birində tanış olmuşdular. Sonralar vaxtaşırı görüşürdülər, bərabər vaxt keçirər, müxtəlif sərgilərdə, tədbirlərdə olardılar. Universiteti bitirdikdən sonra Şaiqlə Rauf hərbi xidmətə getdilər. Mələk isə Azərbaycan Tibb unuversitetində təhsil alırdı, hələ bir il də oxumalı idi. Şaiqlə Rauf yarım il sonra hərbi xidmətdən məzuniyyətə buraxılmışdılar.

Şaiq məzuniyyətə gələndə qış idi, atası onun gəlişinə çox sevinmişdi, onların ev işlərinə yardımçı olan, Şaiqi öz balası kimi böyüdən qonşu Nərgiz xala sevindiyindən bilmirdi ki, neyləsin. Şaiqin sevdiyi müxtəlif cür yeməklər hazırlayirdı, tez-tez də deyirdi:

- Bunların hamısını ye, qadan alım, oralarda kim bişirəcək.

Bir gün Şaiq darıxdığından kitab rəfindən oxumağa maraqlı bir kitab axtarırdı, xarıci romanları çox maraqla oxuyardı. İndi də rus dilində olan qalın bir kitab götürdü, vərəqləyəndə kitabın arasından bir fotoşəkil düşdü. Şəkli yerdən qaldırıb baxdı ki, bir cavan və gözəl qadının ducağında öz uşaqlıq şəklidir. Hardasa 2-3 yaşlarındakı şəkli. Şaiq maraqla bu gözəl qadına baxırdı, içində anlamadığı bir həyəcan vardı, qadının siması ona çox doğma gəlirdi, gözlərini şəkildən ayıra bilmirdi, elə bil baxmaqdan doymurdu. Sanki, içindən bir səs bu qadının anası olduğunu deyirdi. O bir müddət şəklə baxdıqdan sonra mətbəxə keçib Nərgiz xalaya dedi:

- Nərgiz xala, səndən bir söz soruşacam, amma, bu söhbət ikimizin aramızda qalacaq, atam bilməsin.

- Soruş, qadan alım, sən necə istəyirsən.

Şaiq şəkli Nərgiz xalaya göstərib:

- Bu qadın mənim anamdırmı?

- Sən bu şəkli hardan tapdın, ay bala, o vaxtlar atan bütün şəkilləri cırmışdı. Mən o vaxtlar da sizin ailənin işlərində anana yardım eliyirdim.

- Bu kitabın arasından düşdü, amma, sən atama heç nə demə, bu şəkil ikimizin sirrimiz olsun.

- Demərəm, qadan alım, arxayın ol.

Şaiq otağına qayıdıb şəkli etibarlı bir yerdə gizlətdi. Bir neçə gün sonra iki dost yenidən hərbi xidmətə döndülər.

Hərbi xidmətlərini başa vurub qayıtdıqdan sonra, hər ikisi işə düzəldilər - Şaiq bir reklam şirkətinə rəssam-dizayner, Rauf isə başqa bir şirkətə kompüter mühəndisi. Maaşları elə də çox deyildi, amma, bilirdilər ki, zamanla öz şəxsi müştəriləri də olacaq. Şaiq atasından xaiş etmişdi ki, ona bir normal emalatxana açsın, qalan işləri zamanla özü həll edər. Atası da şəhərin mərkəzində ona gözəl mənzərəli bir yerdə, normal bir emalatxana açmağa kömək eləmişdi. Şaiq hər gün işdən çıxandan sonra bu emalatxanaya gələr, buranı istədiyi kimi səliqəyə salar, bir az da bir tablo üzərində işləyər, sonra evlərinə gedərdi. Bir gün Raufa dedi:

- Dostum, əgər öz şəxsi müştərilərin olsa mənim emalatxanamda qəbul edə bilərsən, yetəri qədər yer var, sənin üçün bir şkaf, bir masa qoyarıq işdən sonra işləyərsən. Onsuz da mən axşam saat 9-10-dək emalatxanada oluram, bərabər işləyərik, həm də darıxdırıcı olmaz.

Rauf onun bu təklifinə çox sevindi:

- Sağ ol, dostum, sənə necə təşəkkür edəcəyimi bilmirəm.

Beləcə, hər iki dost axşamlar bir neçə saat bərabər işləyirdilər. Amma Şaiq çəkdiyi tablonu ona göstərmək istəmirdi. Tablonu otağın o biri başında üzü pəncərəyə tərəf

qoyar, işləyər, sonra divardakı şkafa qoyar qapısını açarla bağlayardı. Bir dəfə Rauf ondan soruşdu:

- Şaiq, bu tablonu niyə məndən gizlədirsən, yoxsa sevgilinin rəsmidir?

- Rauf, bu tablo sirrdir, ona görə də sual vermə, bundan sonra nə çəksəm göstərəcəm.

Rauf da daha bu barədə sual vermədi. Şaiq tablonu bitirdi, bu anası ilə olan fotoşəklin surəti idi, amma, elə canlı çıxmışdı ki, elə bil doğrudan da bu saat danışacaqlar. Sonra Şaiq o tablonu harda isə gizlətdi. Ürəyi sıxılan, darılan vaxtlarında o tablonu çıxarar, anası ilə dərdini bölüşərdi.

Bu arada Mələk bir neçə dəfə emalatxanaya gəlmişdi, bir az Şaiqin işlərinə baxmışdı, sonra bərabər gəzməyə getmişdilər. Amma, Mələk nə zaman evlənməkdən söz salsa, Şaiq deyərdi:

- Hara tələsirik, evlənərik, qoy bir az işlərimi yoluna qoyum, ev, maşın, qalereya alım sonra, Mələk.

- Şaiq, onları bərabər də ala bilərik, mənim də maaşım pis deyil.

- Yox, Mələk, olmaz, sənətlə evlilik bir araya sığmaz, bir az gözləyək.

Mələk incisə də, üzə verməmişdi, amma, emalatxanaya daha az-az gəlirdi, sonralar daha gəlmədi. Elə bil, Şaiq də onu unutmuşdu, elə gərgin işləyirdi ki, elə bil hara isə tələsirdi. Çoxlu sifarişlər götürür, evlərə dizayn işləyir, tablolar çəkirdi, qazancı yaxşı idi. Tezliklə maşın da aldı, ev də aldı, qalereya da açdı. Amma emalatxanasını çox sevirdi, daha şirkətdən də işdən çıxmışdı, səhərdən axşamadək emalatxanada olurdu. Rəssam kimi xeyli məşhurlaşmışdı, tez-tez sərgiləri olurdu, xaricə də gedirdi.

Rauf da özünü düzəldə bilmişdi, aradan keçən iki ildə özünə ev ala bilmişdi. Artıq evlənmək barədə düşünürdü. Şaiq isə evlənmək istəmirdi, bu işi öz-özlüyündə o qədər böyüdürdü ki, elə bil evlilik onun bütün həyatını, karyerasını məhv edəcəkdi. Dostunun evlənmək fikri ona gülünc görünürdü,

axmaqlıq kimi gəlirdi. Rauf ona evlənmək istədiyini deyəndə, Şaiq demişdi:

- Sən çaşmısan, dostum, nə etdiyini bilmirsən, gəl bu fikrindən vaz keç, sonra peşman olarsan.

- Niyə ey, Şaiq, bəyəm evlənmək, ailə qurmaq pisdir?

- Bax, dostum, evlilik çox ağır və çəkilməz yükdür, sən bu gün hər çey üçün azadsan, indi kefin nə istiyir edirsən, gəzirsən, dolanırsan, istəsən evə də getmirsən. Ancaq evlənəndən sonra, əlvida azadlıq, ağlını başına yığ.

Rauf sakitcə ona qulaq asırdı. Şaiq isə dayanmadan danışırdı:

- Dostum, təsəvvür elə ki, sabah toydu, yemək-içmək, çalıb oynamaq və s. Sonra qonaqlar dağılışacaq, sənin sevincin də qonaqların bir axşamlıq nəşəsi kimi bitəcək. Başlanğıcda hər şey gözəl olacaq, bir az zamandan sonra bütün həvəsin sönəcək. Xanımın səni hər axşam gözləyəcək, səndən maddi və mənəvi təminat istəyəcək, sən ailədən asılı olacaqsan. Sonra uşaq, filan tələblər artacaq, sən də hər şeyə dözməyə məcbur olacaqsan. Xanımının könlündən min cür şeylər keçəcək, qazancın çatacaqmı? Heç indiki qızlarda da qızlıq qalmayıb, zəmanə qızları da xarab eləyib, ağlın əvvəlki vaxtlara getməsin. İndiki qızlar da işləmək istəyirlər. Bax bütün bunlara görə sənə evlənmə deyirəm.

- Şaiq, sən Allah, qanımı qaraltma, o qədər yaxşı qızlar var ki, o ki, qaldı dolanmağa, nə çətinliyi var, ikimiz də işləyib dolanarıq.

- Ayə, indiki zəmanədə arvadı işə qoyarlar? Bu qədər fırıldaqçı, hiyləgər, rüşvətxor adamlarla bir yerdə işləməsinə necə razı olacaqsan?

- Bu qədər camaatın arvadı necə işləyir, mənimki də elə.

- Qardaşım tezdən durub işə gedəcəksiniz, axşam gələcəksiniz ki, ev səliqəsiz, hazır yemək yox, hər ikiniz yorğun, bu da yaşamaqdır ki, arzulayırsan. Evin yaraşığı səliqəsində,

istiliyində, hay-küyündədir. Evə gəldin qarşında isti yeməyin, təzə dəm çayın, bir də qulluğunda duranın olmalıdır.

- Şaiq bir öz həyatına baxsana, bütün qazancın əyləncədə, içkidə, yüngül qadınlarda, belə də həyat olar, Mələyi də küsdürdün.

- Dostum, tək yaşamağın öz ləzzəti var.

Qısa bir müddətdən sonra Rauf Səadət adlı müəllimə bir qızla evləndi. Evlənəndən sonra Rauf daha emalatxanaya ancaq bazar günləri gələ bilirdi, onda da Şaiq olmurdu, xeyli vaxt idi ki, görüşmürdülər. Bir ildə cəmi 2-3 dəfə görüşüb söhbət edə bilmişdilər. Raufun bir oğlu da olmuşdu. Şaiq xaricə tez-tez gedirdi, amma daha yorulmuşdu, bir az dincəlmək istəyirdi. Son dəfə səfərdən gələndə qapını açıb evə girdi, otağın səliqəsizliyi, soyuqluğu, kimsəsizliyi onu daha çox sıxdı. Mələyə zəng elədi ki, görüşsün. Mələk telefonu açmadı, çünki, son dəfə xaricə gedəndə ona deməmişdi. Çox yorğun olduğu üçün yuyunub yatdı. Səhər durub aynaya baxanda özünü tanımadı, neçə gün idi ki, üzünü təraş etməmişdi, xaricdəki son sərgisindən sonra bir neçə gün qalıb əylənmişdi. Gözlərinin altı da şişmişdi. Həmişəki gülümsər baxışlarının yerini kədərli baxışlar əvəz eləmişdi.

Mətbəxə keçib çayı qazın üstünə qoydu, soyuducunu açdı, bir parça pendir və kolbasa var idi. Yadına düşdü ki, heç dünəndən çörək də almayıb. Elə bir stəkan kəmşirin çay içib otağa qayıtdı, əynini geyinib evdən çıxdı, emalatxanaya gəldi. Ətrafa göz gəzdirdi, bitirdiyi və bitirmədiyi tabloları pərakəndə halda ora-bura söykəmişdi. Otağın ortasındakı tablonun önündə dayandı, yadına düşdü ki, bir neçə günə təhvil verməlidi, pulunu əvvəlcədən alıb xərcləmişdi. Başı bərk ağrıyırdı. Yaxınlıqdakı əczaxanadan başağrısı dərmanı alıb içdi və bir kafedə oturub yemək yedi. Sonra emalatxanaya qayıdıb tabloya yaxınlaşdı, fırçanı götürüb çəkməyə başladı, işi bitirəndə gecə yarı olmuşdu, günün necə bitdiyini hiss etməmişdi. Şaiq belə gərgin işlədiyi vaxtlarda həyatını, tənhalığını unudurdu, bütün varlığı ilə əlindəki fırçaya bağlanırdı. Tablo gözlədiyindən də uğurlu

alınmışdı. Bir zamanlar bütün həyatını rəsmlərə həsr etmək, böyük rəssam olmaq istəyirdi. Ətrafına göz gəzdirdi, otaqdakı sükutdan ürəyi sıxıldı. Sonra emalatxanadan çıxdı, bir az yaxınlıqda gəzişdi, yorulduğunu hiss edib emalatxanaya qayıtdı və ordakı divanda yuxuya getdi. Səhər günortaya yaxın oyandı, bütün bədəni sızıldayırdı. Son vaxtlar xeyli bədbinləşmişdi, bütün arzularına çatsa da, həyat ona mənasız görünürdü, həyatındakı boşluq onu yorurdu.

Emalatxanadan çıxıb yaxınlıqdakı parka getdi, sakit bir küncdə oturub xəyallara dalmışdı, Raufla keçən şən, qayğısız günlərini xatırlayırdı. Birdən birə Raufu görmək istədi, Rauf evlənəndən bəri onunla görüşməmişdi. Maşına oturub Raufgilin yaşadığı binanın qabağına sürdü. Qapını Rauf açdı:

- Bay, Şaiq, sən hara, bura hara, nə zaman gəldin xaricdən?

- Dünən, bütün gecəni də işləmişəm, çox yorğunam. Səni görmək istədim.

- Keç-keç içəri, qapıda niyə dayanmısan.

Şaiq otağa keçdi, otaqda bir hərarət, səliqə, səhman var idi. Səadət xanım masaya yemək düzürdü, Şaiqi görəndə gülümsəyərək:

- Xoş gəlmisiz, Şaiq qardaş, buyurun süfrəyə, nahar vaxtıdır, çörək yeyək, sonra bizə xaricdəki təəssüratlarınızdan danışarsınız, dedi.

Şaiq onun səmimi və gülümsər üzünə baxıb:

- Hə, deyəsən qaynanam məni çox istəyəcək, yemək üstünə gəlmişəm, elə acam ki, çətin ki, masada sizə yemək çata, - deyə cavab verdi.

- O nə sözdür, nuş olsun, yeməyimiz boldur, hamıya çatar.

- Çox sağ ol, Səadət bacı, sizə danışacağım o qədər gözəl təəssüratlarım var ki, bu dəfəki səfərim çox uğurlu oldu.

Bu vaxt otağın künc tərəfindəki manejdə oynayan kiçik Rüfəti gördü, yaxınlaşıb qucağına aldı, üzündən öpüb:

- Nə şirin baladır bu, Allah saxlasın, neçə aylıqdır, adı nədir?

- 8 ayın içindədir, adı da Rüfətdir, - deyə Rauf cavab verdi.

- Maşallah, xeyli böyüyüb, elə bil toyunuz dünən olub, vaxt necə sürətlə keçir.

- Hə, qardaş, daha sənin də evlənmək vaxtındır, İnşaallah gün gələr sənin də belə şirin balan olar.

Onlar deyə-gülə nahar elədilər, sonra Səadət çay gətirdi, Rüfəti götürüb yatırtmağa apardı. Rauf Şaiqə baxdı:

- Şaiq, daha gəzib-dolandığın yetər, evlənmək vaxtıdır, Mələk səndən üz çevirsə sonrakı peşmanlığın fayda verməyəcək, məndən söyləmək, get qızla görüş, evlənmək istədiyini de.

Şaiq Raufa baxıb fikirli-fikirli dedi:

- Dünən Mələyə zəng eləmişdim, telefonu açmadı, xaricə gedəndə ona xəbər verməyi unutmuşdum, orada da başım işə-gücə qarışdı, bir az da səhlənkarlıqdan ona zəng edə bilmədim. İstəyirəm indi onun işlədiyi xəstəxanaya gedəm, Mələk indi özəl xəstəxanaların birində neyro cərrah işləyir.

- Hə, dostum, sənin vəziyyətin doğrudan da yaxşı deyil, qız səni çətin ki, bağışlayar, yenə də sən get üzürxahlıq elə, bəlkə yumşaldı. Bu qədər müddətdə qıza düz-əməlli bir ümid də vermədin, bəlkə də, başqa birisinə könül verib, xəbərin yoxdu.

Şaiq, yuxudan ayılmış kimi:

- Yəni Mələk məndən başqasını sevər ki, mən evlənmək istəməsəm də, o həmişə məni gözləyib. Rauf, sən məni lap narahat elədin ha, gedim qızı tapım.

Şaiq Raufgildən evlərinə qayıtdı, əynini dəyişib, yaxınlıqdakı tanış bərbərə getdi, özünü əməlli-başlı səliqəyə saldı, bir dəstə də qızıl gül alıb, öz maşını ilə Mələyin işlədiyi xəstəxanaya gəldi, qapıdakı gözətçiyə Mələk xanımı görmək istədiyini dedi. Gözətçi onun üzünə baxıb xəstə yanına gələnə oxşamadığını anladı və onu içəri buraxdı. Çünki, bu xəstəxanada xəstə ziyarətləri axşam saat 5-dən 8-dək idi. Şaiq sürətlə 2-ci mərtəbəyə çıxıb Mələyin kabinetinə yaxınlaşdı, qapını tıqqıldadıb azca araladı. Mələk nə isə yazırdı, başını qaldırıb

Şaiqi görəndə ayağa qalxdı. Şaiq təklif gözləmədən içəri keçib Mələyi öpdü, çiçəkləri ona verdi:

- Mənim küskün Mələyim daha mənimlə danışmaq istəmir deyəsən.

- Bu sualın cavabını sən məndən də yaxşı bilirsən, Şaiq, düşünürəm ki, daha danışılacaq bir məsələmiz yoxdur.

- Bu nə sözdür, Mələk, mən sənə evlənmək təklif etmək üçün gəlmişəm.

- Bunun üçün bir az gec deyilmi, Şaiq, nahaq əziyyət çəkmisən, mən daha səninlə evlənmək istəmirəm.

- Yoxsa, həyatında bir başqasımı var, Mələk?

- Bunun sənə dəxli yoxdur, gedə bilərsən, bir daha da məni axtarma.

Şaiq daha heç nə demədən kabinetdən çıxıb pilləkənləri düşdü, indi öz həyatının yarımçıqlığını daha kəskin hiss edirdi. Mələklə evli olmasa belə, onun sevgisi Şaiqin həyatındakı boşluqları bağlayırdı, birdən birə sanki, havada qalmış kimi hiss elədi özünü. Maşınını yolun qarşı tərəfində saxladığı üçün yolu keçmək istəyirdi, amma o qədər fikirli idi ki, sürətlə gələn maşını görmədən addımını yola atdı və nə olduğunu anlamadan səkiyə çırpıldı və huşunu itirdi.

Maşının sürücüsü maşını saxlayıb cəld ona yaxınlaşdı, ətrafdakı adamlar da yaxınlaşdılar. Şaiqin başından qan axırdı. Sürücü cəld Şaiqi qucağına alıb xəstəxanaya tərəf qaçdı, gözətçi olanları gördüyü üçün cəld qapını açıb Şaiqi ikinci mərtəbəyə qaldırmağa kömək elədi. Bir anda həkimlər yığıldılar, Mələk də onların arasında idi, Şaiqi görəndə gözünə inanmadı, tibb bacılarına qışqırdı:

- Biz xəstəni müayinə edənədək siz əməliyyat otağını hazırlayın, xəstənin kəllə sümüyü sınıb.

Əməliyyatdan sonra Şaiqi reanimasiyaya yerləşdirdilər, hələ narkozdan ayılmamışdı, tibb bacıları yanında idilər. Mələk cərrahiyyə şöbəsinin baş cərrahı Vaqif bəylə söhbət edirdi, əməliyyatı özü eləsə də, xəstənin vəziyyətini dəqiqliklə bilmək

istəyirdi. Baş cərrah dedi ki, beyin silkələnməsi var, ayıldıqdan sonra dəqiq bir söz deyərəm.

Mələk bu hadisədə özünü günahkar hesab edirdi, Şaiqlə sərt danışdığı üçün peşman olmuşdu, amma daha gec idi, olan olmuşdu. Onun gözləməkdən başqa çarəsi yox idi.

Bir saat sonra tibb bacısı gəlib xəstənin ayıldığını dedi, Mələk cəld qalxıb Şaiqin yatdığı palataya tərəf qaçdı. Palataya girib Şaiqə yaxınlaşdı, onun əlindən tutub, nəbzini yoxladı, tibb bacısının verdiyi məlimatları dinlədi, sonra qıza lazımı təlimatları verdi. Mələk Şaiqin üzünə baxıb soruşdu:

- Özünü necə hiss edirsən, ağrıların çoxdurmu?

- Yox, heç nə hiss etmirəm, həkim, deyəsən ağrıkəsici vurublar.

- Məni bağışla, Şaiq, mən belə olmasını istəmirdim, çox peşmanam.

- Həkim, siz nədən danışırsınız, mən bir şey anlamadım, tibb bacısı da dedi ki, qəza keçirmişəm.

- Bilirəm, Şaiq, günah məndədir, səninlə elə sərt danışmalı deyildim, uzaq yoldan gəlmişdin.

- Həkim, siz niyə günahkarsınız ki?

- Yetər, Şaiq, mənə həkim dediyin, daha adımı da çəkmək istəmirsən.

- Adınızı nə zaman dediniz ki, mən də çəkmədim.

Mələk təəccüblə Şaiqə baxdı, nə isə demək istəyirdi ki, Baş cərrah Vaqif bəy palataya gəldi, xəstənin vəziyyəti ilə maraqlandı. Mələk Şaiqin vəziyyətini izah edəndən sonra Vaqif bəyə dedi:

- Həkim, Şaiq mənim nişanlımdır, amma məni tanımadı.

Vaqif bəy Mələklə bərabər onun kabinetinə gəldilər, söhbəti burada davam elədilər:

- Mələk, qızım, mənə diqqətlə qulaq as, Şaiqin beyni silkələnib, olub-keçənlərin bir hissəsini, yəni həyatının bir dövrünü və bu dövrdəki insanları unudub. Biz müalicəni davam edəcəyik, amma onun yaddaşının nə zaman qayıdacağını heç

kim deyə bilməz, bunu həyat göstərər. Sənin isə onunla evlənməyini məsləhət görməzdim, bilirəm Şaiq çox məşhur bir rəssamdır, amma indiki durumda bu nəyə yarayar ki? Sən həkimsən, özün də yaxşı bilirsən ki, onun yaddaşı qayıda da bilər, qayıtmaya da bilər.

Mələk Vaqif bəyə diqqətlə qulaq asırdı, özü də bunları yaxşı bilirdi, amma heç cür günahkarlıq duyğusundan qurtula bilmirdi.

Bu vaxt Şaiqin atası da gəldi, Mələk bilərəkdən əməliyyatdan qabaq ona deməmişdi, kişinin son vaxtlar ürəyi tez-tez ağrıyırdı. O, Mələyə yaxınlaşıb hər şeyi öyrəndi, sonra Mələklə bərabər Şaiqin yatdığı palataya gəldilər. Şaiq atasını tanımasa da bu yaşlı, səliqəli geyimli kişini həkim hesab eləmişdi. Amma Əhməd kişi ona dedi ki, mən sənin atanam oğlum, qəza ilə əlaqədar yaddaşında problem yaranıb, zamanla müalicə olunarsan keçib gedər, lazım gələrsə müalicə üçün xaricə də aparacam səni. Şaiq ona diqqətlə qulaq asıb heç nə demədi. Mələk kədərdən başını itirmiş ataya ürək ağrısı ilə baxdı:

- Siz narahat olmayın, mən burada Şaiqə necə lazımdır baxacağam, 10 gündən sonra evə buraxacaqlar, evdə də gəlib özüm baxacağam.

Əhməd kişi minnətdarlıqla Mələyə baxıb təşəkkürünü bildirdi.

10 gün sonra Şaiqi evə buraxdılar, atası onu gətirdi, Nərgiz xala onları qapıda qarşıladı, Şaiqin boynunu qucaqlayıb ağladı. Şaiq evə girsə də heç nəyi xatırlamırdı. Mələk onu öz otağına apardı ki, bəlkə öz şəxsi əşyalarını tanıya. Şaiq otağa göz gəzdirib, gülümsədi, divardakı pəfə yaxınlaşıb oyuncaq bir maşın götürdü, hər tərəfinə baxıb Mələyə dedi:

- Bu mənim maşınımdır, bura kim gətirib?

- Bura sənin otağındır, o maşın da elə burada idi.

- Yox həkim, bura mənim otağım deyil, mən burada heç vaxt olmamışam.

Mələk dönüb qapının ağzında dayanan Nərgiz xalaya baxdı. Qadın dedi ki, Şaiqin uşaqlığı başqa evdə keçib, bu evə ikinci sinifdə oxuyan vaxtlarında köçüblər. Mələk başa düşdü ki, Şaiqin yaddaşında 20 illik bir vaxt unudulub. İndi Mələk onun sonrakı müalicəsini davam eləmək üçün sabah Vaqif həkimlə məsləhətləşməli idi. Bu haqda Əhməd kişi ilə Nərgiz xalaya da məlumat verdi.

Səhərisi gün xəstəxanada Vaqif həkimlə danışanda, o, dedi:

- Qızım, Şaiq bir az sağalandan sonra onu köhnə evlərinin olduğu məhəlləyə aparın, baxın görün nələri xatırlayacaq, sonra müalicəsinə bir istiqamət verərik.

Bu arada Mələk Raufa zəng edib Şaiqin başına gələnləri danışdı, Rauf elə o axşam Şaiqin yanına gəldi, amma Şaiq onu tanımadı. Buna baxmayaraq Rauf vaxtaşırı Şaiqə baş çəkirdi.

Şaiqin başındakı tikişlərin yeri tamam sağalandan sonra Mələklə Əhməd kişi onu köhnə məhəlləyə apardılar. Mələk ona dedi:

- Şaiq, xahiş edirəm, hər şeyə diqqətlə bax, çalış çox şey xatırlayasan.

- Baş üstə, həkim xanım, çalışaram.

Onlar maşından düşüb, ətrafı bir az piyada gəzdilər, aradan keçən 20 ildə bu məhəllə çox dəyişmişdi. Əhməd kişi yaşadıqları köhnə evin qarşısına gəldi, abadlıq işləri ilə əlaqədar buralarda söküntü işləri gedirdi. Şaiq yarı uçmuş evi, həyətlərini görən kimi tanıdı, bir anlıq evin pilləkənlərində oturan atasını da görər kimi oldu, Əhməd kişiyə tərəf dönüb:

- Hə, yadıma düşdü, sən doğrudan da mənim atamsan, bax burada oturmuşdun, əynində də sızıqlı köynək vardı, nə isə düzəldirdin. Bu tərəfdə skamya var idi, qonşularla oturub söhbət edərdiz.

Şaiq o dövrlə bağlı çox şeyləri bu günkü kimi xatırlayırdı. Bəlkə də normalda bunların heç yarısını da yadına sala bilməzdi. Mələk onun qoluna girib, maşına tərəf gətirdi:

- Şaiq, bəlkə sabah sənin qalereyana gedək, çəkdiyin rəsmlərə də bax, bəlkə bir şeylər xatırladın. Hərçənd ki, məni sevdiyini xatırlaya bilmədin.

Onlar evə qayıtdılar, Mələk bir az söhbət edib öz evlərinə getdi, evdə hamı vəziyyəti bildiyi üçün ondan heç nə soruşmurdular. Mələk yeməkdən sonra anasına yaxınlaşdı:

- Ana, Şaiqin yaddaşı qayıtsa da, qayıtmasa da bir müddət sonra mən onunla evlənəcəm, onun bu hala düşməyinə mən səbəb oldum. Həm də bilirsən, neçə ildi onu gözlədiyimi.

Anası heç nə deməsə də, gözlərindən yaş süzülürdü:

- Bilirəm, qızım, sən necə istəyirsən elə də olsun, mən atanla danışaram.

Səhərisi gün Mələk Şaiqi onun qalereyasına gətirdi, ordakı işçilər vəziyyəti bildikləri üçün, sadəcə yaxınlaşıb görüşdülər. Şaiq rəsmlərə baxa-baxa qalereyanı gəzdi, amma bunları nə zaman çəkdiklərini xatırlaya bilmədi.

Beləcə yarım ildən bir az artıq vaxt keçdi, Şaiqin vəziyyətində heç bir dəyişiklik yox idi. Əlini fırçaya atsa da heç nə çəkə bilmirdi. Mələk Şaiqlə nişanlanmışdı, amma hələ toyun vaxtını təyin etməmişdilər. Bir gün Mələk ona dedi:

- Şaiq, bu rəsmlərin ərsəyə gəldiyi emalatxanaya getmək istəyirsənmi, bəlkə bir şeylər xatırladın.

- Sənin buna hələ də ümidin var? Nə deyirəm, istəyirsən gedək.

Onlar emalatxanaya gəldilər, qapını açıb içəri girdilər, hər yeri toz basmışdı, hörümçəklər tor qurmuşdu. Mələk küncdəki süpürgəni götürüb hörümçək torlarını təmizlədi. Şaiq asta-asta emalatxananı gəzirdi, yad adam kimi yarımçıq qalmış tablolara baxırdı. Emalatxananın ayaq tərəfində xeyli tablo divara söykədilmişdi, hamısı hazır tablolar idi, amma nədənsə Şaiq onları sərgilərə çıxarmamışdı. Mələk bir-bir tabloları çevirib baxırdı, Şaiq də yanında dayanmışdı. Mələk lap arxadakı sonuncu tablonun üzünü özünə tərəf çevirəndə, Şaiq sanki inildədi. Mələk cəld ona tərəf döndü:

- Noldu, Şaiq, özünü pismi hiss elədin?

Şaiqin rəngi avazımışdı, astaca tablonu Mələyin əlindən aldı, dodaqları əsə-əsə:

- Bu mənim anamdır, - dedi. Qucağındakı da mənəm.

Mələk ehtiyatla onun üzünə baxıb, soruşdu:

- Sən bu emalatxananı tanıdınmı?

- Tanıdım, mən hər şeyi xatırladım, Mələk, onu burada hiss edirəm, sanki, yanımdadır, nəvazişli əllərini başımda hiss edirəm. Amma mən onu heç görməmişəm.

Mələk heyrətlə ona baxırdı, onu danışdırmağa çəkinirdi. Beləcə bir neçə dəqiqə dayandılar. Sonra Şaiq Mələyə baxıb:

- Doğrudan da, analar hər zaman, hər şeyi hiss edərlərmiş, elə bil, həyata yenidən doğuldum, Mələk.

Onlar evə çatanda gün günortanı keçirdi. Nərgiz xala yeməyi hazırlayıb onları gözləyirdi, üzündə dərin bir kədər var idi. Övladı kimi sevdiyi Şaiqin bu halı onu çox üzürdü.

Qapı açılanda onları qarşılamağa çıxdı. Şaiq onu görən kimi qucaqlayıb:

- Mən hər şeyi xatırladım, Nərgiz xala, - dedi.

Nərgiz xala çaşqınlıqla bir ona, bir də Mələyə baxdı. İçəri keçdilər, Mələk emalatxanada olanları ona danışdı. Yazıq arvad indi də sevindiyindən ağlayırdı. Mələk onu öpüb:

- Acından ölürük, Nərgiz xala, gedək yeməkləri gətirək.

Axşam Əhməd kişi işdən gələndə olanları ona da danışdılar. Yazıq kişi sevindiyindən ağlayırdı. Gah Şaiqi, gah da Mələyi qucaqlayırdı. Sonra Şaiqdən o şəkli haradan tapdığını soruşdu.

Şaiq şəkli hansı kitabın arasından tapdığını, sonra da tabloya köçürdüyünü dedi. Sonra Əhməd kişi onlara dedi ki, o kitab Şaiqin anasının ən çox bəyəndiyi bir əsərdir. Görünür ondan bir xatirə qalsın deyə qoyub.

Axşam yeməyindən sonra Şaiq Raufa zəng edib olanları ona da danışdı, sabah Mələklə onlara gələcəklərini dedi. Rauf

hələ də qulaqlarına inanmırdı, bir də Mələkdən soruşdu. Sonra dedi ki, sabah sizi səbirsizliklə gözləyəcəyik.

Bir neçə gün sonra hər ikisinin valideyinləri məsləhətləşib toy gününü təyin etdilər.

İndi dəniz kənarında yanaşı dayanıb yalnız ürəklərinin səsini dinləyən bu sevgililər çox xoşbəxt idilər. Şaiq Mələyə baxıb:

- Bilirsənmi, əzizim, əvvəllər elə bilirdim ki, həyatın mənası məşhur olmaqda, şöhrətdə, zirvədə olmaqdadır. Amma, indi anladım ki, heç bir şöhrət, məşhurluq ailə xoşbəxtliyinin yerini verməz. Həyatda ən önəmli olan ailə səadətidir, sevdiyinlə bir həyatı paylaşmaqdır.

22.09.2016.

# YASƏMƏNIN AMALI

Yasəməngil Bakıda yaşayırdılar. Ailələri beş nəfərdən ibarət idi: atası, anası, bacısı və qardaşı. Qardaşı Yasəməndən dörd yaş böyük idi. Yasəmən bu il Azərbaycan Pedaqoji universitetinin dil-ədəbiyyat fakultəsini bitirib, təyinatını dağ rayonuna -Daşkəsənə aldı. Evdə hamı Yasəmənin bu qərarından narazı olsa da, o, qərarında qəti idi. Yasəmən avqustun 20-də Daşkəsən rayonunun Təhsil şöbəsinə gələrək, sənədlərini təqdim etdi və bildirdi ki, ən ucqar kənddə işləmək istəyir. Müdir onun arıq, zəif cüssəsinə baxaraq, gülümsədi:

- Qızım, sən ucqar kənddə işləyə bilməzsən, qışı var, soyuğu var. Buralarda qış çox sərt keçir, dağ yolları qarla əlaqədar bağlanır, maşınlar ucqar kəndlərə gedə bilmirlər. Həm qız uşağı tək-tənha ucqar kənddə necə qalarsan, sən şəhərdə böyümüsən, kənd həyatı sənə çətin olar.

Yasəmən isə qətiyyətlə:

- Fikrim qətidir, gedəcəyəm, həm də qardaşım Raufla gəlmişəm, mən bir evə yerləşəndən sonra, o Bakıya qayıdacaq, - dedi.

Müdir bir qədər fikirləşib kadrlar şöbəsinə zəng etdi:

- Bax gör kəndlərin hansında azərbaycan dili və ədəbiyyati müəlliməsi üçün boş yer var.

Kadrlar şöbəsinin müdiri:

- Şahkərəm kəndində, - deyə cavab verdi.

Yasəmən düşünmədən:

- Razıyam, mənim üçün fərqi yoxdur,- dedi.

Yasəmənlə qardaşı o gün rayon mərkəzindəki mehmanxanada qaldılar. Rayonun avtovağzalından kəndlərə gedən avtobuslar günortadan sonra saat 3-4 arası rayondan çıxdıqları üçün, Yasəmənlə qardaşı tezdən Təhsil şöbəsinə gəlib, müdirdən soruşdular:

- Biz bu axşam kəndə çatan zaman, kimə müraciət edə bilərik?

Müdir Şahkərəm kənd məktəbinin müdirinin telefon nömrəsini verərək:

- Bu nömrəyə zəng edərsiniz, adı Rasimdir, haqqınızda məlumatı var, nə lazımsa edəcəkdir, - dedi.

Yasəməngil təşəkkür edərək, çıxdılar. Hələ saat 10 idi, avtobusun vaxtına çox vardı, saat 3-ə qədər rayonun içində gəzərək rayonla tanış oldulr.

Onlar kəndə çatanda saat 6-ya qalırdı, gün uzun olduğu üçün hər kəs çöldə-bayırda öz işi-gücü ilə məşğul idi. Kəndin mərkəzində avtobusdan düşdülər. Hər kəs onlara maraqla baxırdı ki, görəsən bu iki şəhərli gənc bu ucqar kəndə niyə gəlib. Bu vaxt 14-15 yaşlarında bir oğlan onlara yaxınlaşıb:

- Məni Rasim müəllim göndərib. Sizi onlara aparmalıyam, - dedi.

Bərabər Rasim müəllimin evinə gəldilər. Ev çox da böyük deyildi, bir mərtəbəli, kürsülü, aynəbəndli bir ev idi. Rasim müəllimlə ailəsi onları həyətdə qarşıladılar, içəri dəvət etdilər. Qısa müddətdə süfrə açıldı, yedilər, çaylarını içdilər, tanış oldular. Sonra Rasim müəllim Yasəmənə dedi:

- Sizin üçün qonşuda ev danışmışam, sahibi tək qadındır, yoldaşı rəhmətə gedib, uşaqları da Bakıda oxuyurlar, adı Sonadır. Gedək sizi tanış edim.

Elə bu vaxt içəriyə orta boylu, dolu, qara saçlı, göyçək bir qadın daxil oldu, salamlaşıb oturdu və hal -əhval tutdu. Bu qonşu qadın Sona xala idi, 50-55 yaşı olardı. Yasəməndən xoşu gəlmişdi, bir az sonra:

- Bilirsən də, qızım, bizim evdə qalacaqsan, durun gedək dincəlin, otağını rahatlamışam, - dedi.

Qalxdılar, ev əhli ilə sağollaşıb, Sona xalanın evinə getdilər. Sona xalanın evi adi bir mərtəbəli, kürsülü, daş ev idi. Bütün kənd evləri kimi, sadə amma çox rahat idi. Sona xala onlara Yasəmənin qalacağı otağı göstərdi. Otaq yetəri qədər işıqlı, təmiz və rahat idi. Otaqda bir çarpayı, dolab, stol, stul və

divan vardı. Yerə isə gözəl bir əl xalçası salınmışdı. Yasəməngil çox yorğun olduqları üçün tez yatdılar.

Yasəmən səhər çox tez durmuşdu, həyətə düşüb, əl-üzünü yudu, sonra həyətdəki taxtın üstündə oturub, ətrafı, dağları seyr etməyə başladı. Bu vaxt Sona xala tövlədən çıxaraq əlində yarım vedrə süd ona tərəf gəldi:

- İndi sizə təzə süd bişirərəm, içərsiniz, - dedi.

Sudu ocağa qoyub Yasəmənə tapşırdı ki, bax, daşmasın. Özü isə qayıdıb inəyi və balasını həyət qapısından çıxarıb kəndin naxırına qoşdu və qayıtdı. Rauf da dürmuşdu, eyvandan hər tərəfə baxaraq:

- Buraların nə gözəl mənzərəsi var, adam baxmaqdan doymur.

Sona xala həyətdəki stolun üstünə süfrə salaraq təzə çörək, yağ, pendir və süd gətirdi. Bərabər səhər yeməyini yedilər. Hələ məktəbin açılmasına 4 gün vardı. Yasəmən Raufa:

- Bakıya qayıtmağa tələsmə, gəl bu dörd günü kəndin hər tərəfini gəzək, sən də bir az dincəl, - dedi.

Rauf məmnuniyyətlə razılaşdı. Əyinlərini dəyişərək Sona xalaya:

- Sən bizi gözləmə, nə vaxt yorulsaq onda qayıdacağıq, - dedilər.

Bir az pendir, çörək, soyutma yumurta və s. götürərək evdən çıxdılar. Yavaş-yavaş kəndi gəzib tanış olurdular. Kənd camaatı onlara maraqla baxır, salamlaşır, kimə qonaq gəldiklərini soruşurdular. Yasəmən onlara müəllimə olduğunu, burada işləyəcəyini söyləyirdi. Gəzə-gəzə kənddən çıxdılar, dağlara, meşələrə tərəf getdilər. Kəndin kənarında kiçik çay axırdı. Mənzərə çox gözəl idi, baxmaqla doymaq olmurdu, hava isə o qədər təmiz idi ki, insanın ciyərləri sanki təmizlənirdi. Yamaclarda çobanlar qoyun- quzu, mal -heyvan otarırdılar, gənc bir çobanin çaldığı tütəyin səsi ətrafa yayılır, insanın ruhunu təzələyirdi. Yasəməngil çobanlara yaxınlaşıb salam verdilər, hal- əhval tutdular, tanış oldular, kənddə dolanışığın necə

olduğunu soruşdular. Uşaqlar isə onların suallarına həvəslə cavab verirdilər. Sonra balaca bir çoban:

- Sizin üçün bir Qarabağ şikəstəsi oxuyummu? - dedi.

Yasəmən həvəslə:

- Oxu, çox gözəl olar, biz səni məmnuniyyətlə dinləyərik.

Balaca Rüfət əlini qulağının dibinə qoyub, elə bir coşqu ilə Qarabağ şikəstəsi oxuyurdu ki, Yasəmənlə qardaşı sehirlənmiş kimi, onu dinləyirdilər. Bu 8 yaşlı uşağın saf, cingiltili səsi, şirin zəngulələri elə bil onları Qarabağa aparmışdı. Rüfət oxuyub qurtarsa da, Yasəmən bu səsin təsirindən çıxa bilmirdi. Rüfət ona baxaraq:

- Bəyəndinizmi, - dedi.

Yasəmən:

- Sənin nə gözəl səsin var, Rüfət, sənə belə gözəl oxumağı kim öyrədib?

- Özüm öyrənmişəm, radiodan, televizordan çox dinləmişəm. Diskini almışam Alim Qasımovun ifasında. Mən çox xalq mahnıları bilirəm.

Yasəmən gülümsəyərək:

- Sən də gələcəkdə Alim bəy kimi dünya şöhrətli xanəndə olmaq istəyirsənmi?

Rüfət qürurla ona baxaraq:

- Əlbəttə, - dedi, kim istəməz ki.

Yasəməngil bir az da bu gənclərlə söhbət edib, yollarına davam elədilər. Kəndə qayıdanda artıq şər qarışırdı, Sona xala onları görcək:

-Ay bala harada qaldınız, gəzməkdən yorulmadınızmı?

Yasəmən:

- Hə, Sona xala, çox yorulduq, amma ətraf elə gözəldir ki, adam gəzməkdən doymur. Hələ gənc çobanları demirəm, necə də istedadlı uşaqlardılar, gözəl tütək çalırlar, nəğmələr oxuyurlar. Hələ balaca Rüfəti demirəm, ifasından doymaq olmur, - dedi.

Sona xala çolpa kəsdirib bişirmişdi, aş süzmüşdü. Yeməyin xoş qoxusu ətrafa yayılmışdı. Sona xala cəld süfrəni hazırlayıb, yeməkləri düzdü. Yasəmənlə Rauf necə acmışdılarsa, yeməyi az qala çeynəmədən udurdular, aradabir:

- Ay Sona xala, əllərin var olsun, çox dadlıdır, - deyirdilər.

Sona xala isə:

- Nuş olsun, ay bala, hələ bu nədir ki, görün sizə nə yeməklər bişirəcəm, - dedi.

Onlar deyə-gülə yemək yedilər, üstündən samovar çayı xüsusi ləzzət elədi, elə bil bütün yorğunluqlarını çıxardı. Xeyli söhbət etdilər, çecənin nə zaman düşdüyünü hiss etməmişdilər. Sonrakı iki günü də Yasəmənlə Rauf hər tərəfi gəzib-dolandılar. Avqustun 25-i Yasəmən məktəbə, Rauf isə Bakıya getdi. Müəllimlər Yasəməni mehribanlıqla qarşıladılar, tanış oldular. Bu arıq qız onların xoşuna gəlmişdi. Bir az ordan-burdan söhbət elədilər. Yasəmən bu söhbətlərdən başa düşdü ki, aşağı siniflərin şagirdləri dərslərə müntəzəm gəlsələr də, yuxarı siniflərdə vəziyyət heç də yaxşı deyil. Yuxarı siniflərin oğlanlarını evlərindən müxtəlif işlərin dalınca göndərir, qızlarını isə ya ərə verir, ya da ev işləri ilə əlaqədar məktəbə buraxmırdılar.

Axşam Yasəmən bu vəziyyəti çox düşündü və qərara gəldi ki, necə olursa olsun, yuxarı sinif şagirdlərini məktəbə cəlb eləmək lazımdır.

Sentyabrın 15-i məktəbin həyəti səs-küylü idi. Məktəbin bütün şagirdləri tər-təmiz geyinərək məktəbə gəlmişdilər. Aşağı siniflərin bütün şagirdləri burada olsa da, 10-11-ci siniflərdən cəmi 5-6 şagird gəlmişdi. Məktəbin direktoru Rasim müəllim yeni dərs ilinin başlanması münasibəti ilə hamını təbrik etdi və şagirdlərə yeni dərs ilində uğurlar arzuladı. Zəng vuruldu, uşaqlar siniflərə keçdilər, müəllimlər isə müəllimlər otağına. Yasəmənin ilk dərsi 7-ci sinifdə idi. Dərs hissə müdiri Yasəməni sinfin şagirdlərinə təqdim edərək, - ədəbiyyat müəllimənizdir - dedi. Sinifdə cəmi 8 şagird vardi: üçü qız, 5-i oğlan. Uşaqlar bu arıq, orta boylu, gülər üzlü, qısa saçlı qıza maraqla baxırdılar.

Onun səliqəli geyimi, sərbəst danışığı onların çox xoşuna gəlmişdi. Yasəmən uşaqlarla tək-tək tanış oldu, hər kəslə ayrı-ayrı söhbət etdi, hansı fənləri sevdiklərini, dərsdən sonra nə işlə məşğul olduqlarını soruşdu. Sonra dərs kitablarını paylayıb, sabahdan dərsə başlayacaqlarını bildirdi. Müəllimlər otağında dərs hissə müdiri ona 6-cı sinifdən yuxarı bütün siniflərdə dərs deyəcəyini dedi və dərs cədvəlini verdi. Sonra:

- Hə birinci dərsin necə keçdi, uşaqlarla ünsiyyət qura bildinmi? - dedi.

Yasəmən:

- Əlbəttə, dərsə, oxumağa maraqları var, - deyə cavab verdi.

Sonra daha iki sinfə dərsə girdi, günortadan sonra evə gəldi. Sona xala:

- Gəl qızım, yemək hazırdır, bərabər nahar edək, - dedi.

Yasəmən onu öpərək masanın arxasına keçdi:

- Çox sağ ol, Sona xala, var olasan, yorulmayasan. Amma siz daha əziyyət çəkməyin, mən özüm hər işi görərəm, sizə yük olmaq istəmirəm.

Sona xala incik baxışlarla:

- Qızım, nə əziyyəti var, xoşdur, onsuz da bütün günü evdə oluram, sən də mənim balam, - dedi.

Yasəmən onu qucaqlayaraq:

- İnciməyin, sizi yormaq istəmirəm, amma belədirsə, mən hər ay kirayə pulu ilə bərabər, yemək pulunu da sizə verərəm, necə istəsəniz idarə edərsiniz.

- Bax belə, qızım, biz bu evdə iki nəfərik, ayrı-ayrı bişirib yemək olmaz ki, Allaha şükür həyətdə hər şey əkmişəm, bazara çox da ehtiyac yoxdur, özüm yola verərəm.

İlk vaxtlar şagirdlər məktəbə müntəzəm gəlsələr də, get-gedə dərsdən yayınma halları daha çox olurdu. Yasəmən bunun səbəbini müəllimlərdən soruşduqda, bilirsənmi kənddə hər kəsin bağ-bostanında, təsərrüfatında xeyli işləri var, dedilər.

Yasəmən direktorun kabinetinə gedərək, bildirdi:

- Mən dərsə gəlməyən uşaqların evlərinə gedib, valideyinləri ilə söhbət edəcəm, lazım olsa, gedib qızlara evlərində dərs keçəcəm, təki oxusunlar.

Direktor ona:

- Necə istəyirsən elə də et, qızım, amma sanmıram bir nəticəsi ola.

O gün dərsdən sonra Yasəmən dərsə gəlməyən uşaqların ünvanlarını götürüb, bir-bir evlərinə getdi. İlk döydüyü qapını açan qadın:

- Buyurun, müəllimə, xoş gəlmisiniz, xeyirdimi?
- Qızınız dərsə gəlmir, səbəbini bilmək istəyirəm.
- Qızım nişanlıdır, daha niyə gəlsin, yaxınlarda toyu olcaq.
- 16 yaşlı qızı niyə ərə verirsiniz ki, o hələ oxumalıdır.
- Qızım, sən özünü yorma, bu kənddə belədir, qızlar 10-11-ci sinifləri oxumazlar, ərə gedib ailə qurarlar.

Yasəmən daha danışmağın mənasız olduğunu görüb, başqa ünvana getdi. Burada da qızın anası bildirdi ki, oxuyub nə olacaq, yaxşısı budur ev-eşiyin işlərini görsün, həm atası da qoymaz. Yasəmən:

- İstəsəniz mən hər gün günortadan sonra gəlib dərsləri evinizdə keçərəm, təki oxusun, bəlkə ali məktəbə də daxil olar, oxuyar, həkim, müəllim, tibb bacısı və s. sənət sahibi olar, qayıdıb kəndinizdə işləyər.
- Atası ilə danışım, sabah sənə bir cavab verərəm.

Beləcə, Yasəmən daha 10-15 evə getdi. Səhərisi gün valideyinlərdən bir neçəsi ona dedilər ki, evdə qızımıza dərs keçməyinizə etiraz etmirik. Yasəmən bu xəbərə çox sevindi. Axşam evlərə gedəcəyi günlərin və dərslərin qrafikini hazırladı. Hər gün dərsdən sonra bir neçə evə gedib qızlara dərs keçirdi, lazım olan dərs kitablarını da onlara paylamışdı. Təkcə öz ixtisası üzrə yox, başqa fənlərdən də bildiyi qədər öyrətməyə çalışırdı. Onları inandırmağa çalışırdı ki, siz cəmiyyətə, xalqa, ən ümdəsi öz kəndinizə faydalı vətəndaş ola bilərsiniz. Yuxarı siniflərin oğlanları da qızların oxuduqlarını eşidib, bir gün

məktəbə gəldilər. Yasəməndən soruşdular ki, biz də axşamlar gəlib evdə dərs ala bilərikmi. Yasəmən sevincək:

- Əlbəttə, mən bacardığım qədər sizə dərs keçərəm, o birisi müəllimlərlə də danışaram, - dedi.

Səhərisi Yasəmən məktəbdə müəllimlərə uşaqların axşamlar dərslərinə davam etmək istədiklərini bildirdi. Dərs hissə müdiri təəccüblə:

- Evdə niyə, əgər oxumaq istəyirlərsə, həftənin müəyyən günləri elə məktəbdə onlara dərs keçmək olar, hansı müəllimin imkanı varsa, axşamlar onlarla məşğul olar, - dedi.

Yasəmən çox sevinirdi, axşam bu xəbəri uşaqlara bildirdi:

- Sabah məktəbə gəlin, müəllimlərlə danışaq, sizin üçün bir dərs cədvəli quraq.

Səhərisi günü günortaya yaxın yuxarı siniflərin oğlanları məktəbə gəldilər. Müəllimlər onlara hansı günlər saat 7-dən sonra məktəbə gələcəklərini dedilər və dərs cədvəlini verdilər. Sonra dərs hissə müdiri dedi:

- Siz gəlib tapşırıqları alıb, hazırlaşacaqsınız, növbəti gün cavab verəcəksiniz. Beləliklə həm işinizdən geri qalmazsınız, həm də dərslərinizdən.

Beləcə uşaqlar hər gün axşam dərsə gəlirdilər və çox həvəslə də oxuyurdular. Onlar artıq başa düşmüşdülər ki, ancaq oxumaqla irəli gedə bilərlər. Müəllimlər də uşaqların həvəsini görüb növbə ilə axşam dərslərinə gəlməyə çalışırdılar. Amma bilirdilər ki, axşam dərsləri üçün əmək haqqı almayacaqlar. Müəllimlərin çoxu kişi idi, üç nəfər qadın müəllimə var idi, onlar da ibtidai siniflərdə dərs keçirdilər.

Bir gün 11-ci sinfin qızlarında biri Yasəmənə dedi:

- Mən hazırlaşıb sənədlərimi Pedaqoji universitetə vermək istəyirəm, qəbul olsam valideyinlərim oxumağa icazə verəcəklər.

Yasəmən sevincindən qızı qucaqlayıb öpdü:

- Sən çox savadlı qızsan, əlbəttə qəbul olacaqsan, mən də əlimdən gələn qədər sənin hazırlaşmana kömək edəcəm.

Məktəbdə bir canlanma var idi, uşaqların məktəbə qayıtması hamını sevindirirdi.

Bir gün Yasəmənin tələbə yoldaşı Cavad ona zəng edərək yaxınlarda Daşkəsənə gələcəyini, onunla görüşmək istədiyini bildirdi. Cavad Yasəməni hələ tələbə vaxtlarından sevirdi. Yasəmən də ona qarşı laqeyd deyildi. Yasəmən ona:

- Nə vaxt gəlsən zəng et, əlbəttə görüşərik, - dedi.

Aradan bir həftə keçmişdi, axşamtərəfi Cavad zəng edərək:

- Mən Daşkəsəndəyəm, kəndə necə gəlim, - dedi.

- Saat 5-dir, bu vaxtlar kəndlərə avtobus olmur, sən avtovağzalın alt tərəfində kəndlərə gedən taksilər dayanır, onlara yaxınlaş.

Cavad takisələrə yaxınlaşıb, Şahkərəmə getmək istədiyini dedi. Taksi sürücülərindən biri:

- Qardaş mən gedərəm, amma görürsən ki, başqa müştəri yoxdur, pulunu ödəsən təkcə səni apararam.

Cavad pulu ödəyərək:

- Gedək, qaranlığa qalmayaq, - dedi.

Saat 7-8 arası Cavad Yasəmənə zəng edərək qaldığı evin yerini soruşdu, az sonra qapıda taksidən düşdü. Yasəmən onu həyət qapısının ağzında qarşılayıb, içəri dəvət etdi, Sona xala ilə tanış edib, həyətdəki taxtı göstərdi:

- Sən bir az dincəl, mən çay-çörək gətirim.

Cavad cox yorğun idi, səhər tezdəndən yol gəlirdi. Yeməkdən sonra Yasəmən:

- Sən hara, bura hara, nə yaxşı gəlmisən?

Cavad:

- Guya bilmirsən də, səninlə ciddi bir söhbətim var, amma bu gün cöx yorğunam, icazə versən dincələrəm, sabah danışarıq.

Yasəmən razılaşdı, Cavad Sona xalanın yer açdığı otağa keçib, uzandı və o saat da yuxuladı. Səhər Cavad qalxanda saat 10 olardı, Yasəmən məktəbdə idi. Əl-üzünü yuyub taxtın

üstündə oturdu, bu vaxt Sona xala mətbəxdən əlində padnos çıxıb ona tərəf gəldi:

- Sabahın xeyir, ay oğul, yaxşı yata bildinmi? Yasəmən işə gedib, günortaya gələr, sən yeməyini ye. Sonra da danış görüm kimsən, Yasəmənin nəyisən, nə yaxşı gəlmisən.

Cavad yeməkdən sonra həyətdə oturub Sona xala ilə söhbət edirdi:

- Yasəməni neçə ildir ki, sevirəm, amma cəsarət edib indiyə qədər deyə bilməmişəm. Anladığım qədər o da bilirdi, hiss etməmiş olmazdı. Həm də Yasəmən dəfələrlə deyirdi ki, institutu bitirib ən ucqar kəndə işləməyə gedəcəm. Bilirdim ki, onu fikrindən daşındırmaq mümkün deyil, ona görə fikirləşdim ki, qoy getsin bir az işləsin, şəhər qızıdır, kənd həyatına dözə bilməyib geri gələr. Amma bir neçə ay keçib, o isə göründüyü kimi buralara alışıb, işini də sevir. Daha onsuz yaşaya bilmədiyim üçün gəldim evlənmək təklif edəm.

Sona xala gülümsəyərək:

- Niyə razı olmasın, ay oğul, ağlın, savadın, yaraşığın yerində, səni buralara gətirəcək qədər sevgin ürəyində, daha Yasəmənə nə lazımdır ki.

Cavad ümidlə Sona xalaya baxaraq, - çox sağ olun, - dedi.

Günorta Yasəmən də gəldi, nahar etdilər, sonra Cavad Yasəmənə:

- Buraya niyə gəldiyimi yəqin ki, bilirsən, daha səndən ayrı yaşamaq istəmirəm, razı olsan elçi göndərərəm.

Yasəmən ona baxaraq:

- Cavad, mən buradan indi gedə bilmərəm, burdaki işlərimi yarıda qoya bilmərəm, - dedi və vəziyyəti izah elədi.

- Bilirsən ki, mən də riyaziyyat müəllimiyəm, əgər razı olsan evlənərik, mən də bura gələrəm, bərabər işləyərik, sən istədiyin zamanadək.

Yasəmənin gözləri qürurla parıldayırdı. Bu ucaboy, əsmər bənizli oğlanı sevməkdə yanılmadığını anlayırdı, indi onu kənddə işləmək qərarı ilə sınamış oldu və dedi:

- Nə deyirəm, olsun, qış tətilində Bakıda olacam, anangili göndərərsən.

Cavad sevincindən nə edəcəyini, nə deyəcəyini bilmirdi. Bir az özünə gələndən sonra anasına zəng edib, - Yasəmən razıdır, - dedi. Bir azdan Sona xala da gəldi:

- Danışıb bir qərara gəldinizmi?

Yasəmən gülərək:

- Hə, Sona xala, yanvarda nişanlanacağıq.

Səhər tezdən Cavad Bakıya, Yasəmən isə işə getdi. Cavad axşam Bakıya çatdı, evə girdiyi ilə anasını qucaqlayıb:

- Hə, anacan, indi nişana hazırlaşa bilərsən, Yasəmən yanvar tətilində gələcək.

Noyabrın axırı idi, Yasəmən iki növbə dərsə getdiyi üçün, axşamlar çox yorğun olurdu. Üstəlik, gecəyə qədər şagirdlərin yazı dəftərlərini yoxlayır, sabah keçəcəyi dərslərə göz gəzdirirdi. Amma işindən də xeyli razı idi, bacardığı çətin işlərlə qürür duyurdu. Kənddə hörməti çox idi. Bu arada rayon Təhsil şöbəsinin müdiri ilə danışıb, kənddə qızlar üçün xalçaçılıq kursu açmaq istədiyini bildirdi və izah elədi ki, kənddə nənələrindən xalça toxumağı öyrənən qızlar var. Əgər kurslar açıb, hanalar gətirə bilsək, o qızlar kursa gələnləri öyrədə bilərlər. Müdir Yasəmənə:

- İşindəki uğurların haqqında eşitmişəm, bacardığım qədər kömək eləyərəm, amma bir az vaxt lazımdır, - dedi.

10-15 gün sonra onu Təhsil şöbəsinə çağırdılar. Müdirin kabinetinə girib, salam verdi. Müdir Yasəmənə baxaraq dedi:

- Sənə şad xəbərim var, Gəncə xalçaçılıq zavodundan köhnə hanalardan bir neçəsini istifadə etmək üçün kirayə götürmüşəm. Maşın da verərəm kəndə aparарsan.

Yasəmən müdirə minnətdarlıqla baxaraq:

- Sizə necə təşəkkür edəcəyimi bilmirəm, qızlar çox sevinəcək, - dedi.

Hanaları kənd mədəniyyət evinin bir otağına yerləşdirdilər. Hər axşam saat 5-dən 8-dək kim istəsə kursa gələ bilərdi.

Səhəri gün Yasəmən müəllimlərdən xahiş etdi ki, dərs zamanı qızlara bildirsinlər ki, kim xalçaçılıq kursuna yazılmaq istəsə mənə müraciət etsin. Bir gün sonra həm aşağı, həm yuxarı siniflərdən 15 nəfər qız kursa yazılmışdı. Yalnız məktəbdə oxuyan qızlar yox, kəndin xeyli qız-gəlini də kursa yazılmağa gəlirdi. Qızların sayının çoxaldığını görüb, qərara gəldilər ki, tədris günortadan axşamadək iki növbədə olsun. Kəndin yaşlı qadınları da gəlirdilər ki, bildiklərini qızlara öyrətsinlər.

Axır ki, 1-ci yarım il başa çatırdı, yeni ilə 4-5 gün qalmışdı. Yasəmən anasına zəng edib, ayın 30-da Bakıda olacağını söylədi.

Yasəmən evlərinə axşamtərəfi çatdı, ailəsi üçün çox darıxmışdı. O, evin ikinci uşağı idi, bacısı institutda oxuyurdu, qardaşı isə dövlət işində işləyirdi. Evdə hamı ona qulluq etməyə çalışırdı. Yasəmən onlar üçün kənddən gətirdiyi balı, qaymağı, motal pendirini, nəhrə yağını, 2 beçəni zənbildən boşaltdı. Atası:

- Hə, bax bu başqa məsələ, ağzımızın dadı dəyişər, dedi.

O axşam o ki var dedilər-güldülər, Yasəmən kənddə gördüyü işlərdən danışdı, gecə yarı olsa da, heç kim yatmaq istəmirdi. Yasəmən anasının dalınca masada qalanları götürüb mətbəxə keçdi və anasına:

- Sabaha hər şey hazırdır, eləmi, ana, sabah Cavadgil gələcəklər.

Anası ona baxaraq:

- Hə qızım, narahat olma, hər şey hazırdır.

- Bilirsən də, elçiliklə üzük taxma bir yerdə olacaq, çünki, mən bir həftə sonra kəndə qayıdacam.

Səhəri gün günortadan sonra Cavadgil gəldilər, 5-6 nəfər idilər. Valideyinlər uzun zamandan bəri bir-birlərini tanıdıqları üçün, xüsusi rəsmiyyətə ehtiyac qalmamışdı. Cavadın anası

üzüyü çıxararaq Cavada verdi ki, Yasəmənin barmağına taxsın, sonra:

- İnşaallah, bu yay nişan-toy bir yerdə eliyərik, sentyabrda işə bir yerdə gedərlər, - dedi.

Bütün həftə Yasəmənlə Cavad həm bayram şənlikləri, həm ürəklərindəki şənliklə əlaqədar bir həftənin necə keçdiyini bilmədilər. Həftə sonu Yasəmən Daşkəsənə qayıtdı.

Məktəbin müəllimlər otağında onun gətirdiyi nişan şirniyyatından yeyənlər, onu təbrik edir, xoşbəxtlik arzulayırdılar.

Evdə Sona xalanın sevincinin həddi yox idi. Yasəmənə deyirdi ki, evlənəndən sonra da mənimlə qalacaqsınız, sənə öyrəşmişəm, tək qala bilmərəm. Yasəmən:

- Əlbəttə, Sona xala, sən necə istəsən, elə də edərik, - dedi.

Martın əvvəlləri idi, havalar bir az yumşalmışdı, hamı ev-eşiyində təmizlik işləri aparırdı. Bir gün Cavad zəng edərək Yasəmənə dedi ki, bəs Moskvada yaşayan dostum məni yanına çağırır ki, gəl toyuna qədər bizimlə işlə, pul qazan, sonra qayıdarsan. Orada  yaxşı iş qurublar, gəlirləri, qazancları çox yaxşıdır, istəyirəm gedəm. Yasəmən bir az düşünüb, - olsun – dedi - get işlə toya qədər.

Cavad Moskvadan Yasəmənə tez-tez zəng edirdi, skupe ilə danışırdı, işindən, qazancından çox razı idi. Novruz bayramında Yasəmən evlərində idi. Oğlan evi bayramlıq gətirmişdi. Cavadın anası ona brilyant dəst gətirmişdi, dedi ki, Cavadın hədiyyəsidir. Yasəmən sevinirdi ki, Cavadın işləri yaxşı gedir.

Məktəbdə və kursda hər şey qaydasında idi. Beləcə yay tətili də gəlib çatdı. Yasəmən hamı ilə görüşüb Bakıya yola düşdü. Yol boyu Cavadı düşünürdü, tez-tez skupe ilə danışsa da, çox darıxmışdı. Onunla görüşmək, bərabər vaxt keçirmək istəyirdi. Evdə hamı onun gəlişinə sevinirdi, anası:

- Axır ki, səni doyunca görə biləcəyik. Toya da 1-2 ay qalıb, ancaq hazırlaşarıq.

Bir gün Cavad Yasəmənlə söhbət əsnasında:

-Yasəmən, bəlkə evlənəndən sonra Moskvada yaşayaq, işim, qazancım çox yaxşıdır, maşın da almışam, bir iki ilə ev də alarıq, səni də işə düzəldərəm. Bir neçə il işləyək, Bakıda da ev alaq, sonra qayıdaq, - dedi.

Yasəmən təəccüblə:

- Bəs mənim kənddəki işlərim necə olsun, o uşaqlar mənə çox inanırlar, onların ümidlərini qıra bilmərəm. Mən kəndə qayıdacam, instituta hazırladığım uşaqlar var. Sən gəl, kəndə gedək.

- Yox, Yasəmən, burada bizim gələcəyimiz üçün yaxşı perspektivlər var, kəndə getməsək də olar, orada yetəri qədər müəllimlər var, dərs keçərlər.

Yasəmən qətiyyətlə:

- Mən kəndə qayıdacağam, bu vəziyyətdə toy eləməyin mənası yoxdur, dedi və telefonu söndürdü.

Sonraki günlər o, Cavadın zənglərinə cavab vermədi, anasına isə bu toy olmayacaq dedi və Cavadın dediklərini söylədi. Evdə hər kəs Yasəməni qınayır, səhv etdiyini, Cavadın haqlı olduğunu desə də, Yasəmən qərarından dönmədi. Bu arada hazırladığı iki oğlanın instituta, bir qızın isə tibb texnikumuna daxil olduğunu eşidib, fərəhlənirdi.

Yeni dərs ili başlayanda Yasəmən artıq kənddə idi. Sona xala:

- Qızım, bəs toyun olmadı? Cavad hanı?

Yasəmən bütün olanları ona danışdı. Sona xala:

- Qızım, yaxşı fikirləş, həyatdır, sonra peşman olmayasan. Başqaları üçün öz şəxsi həyatından keçmə.

Yasəmən:

- Əgər sevirsə, gələr.

Bir neçə ay sonra Yasəmən işdən gələndə Cavadı evdə gördü, görüşüb soruşdu:

- Niyə gəlmisən?

- Səninlə danışmaq istəyirəm. Mənim orada işlərim yaxşı gedir, qazancım çoxdur, gəl gedək.

- Cavad, yaxşı bilirsən ki, mən amalları ilə yaşayan biriyəm, sənə bir dəfə dedim ki, burada qalıram. Heç bir var-dövlət məni məqsədimdən döndərə bilməz.

Cavad danışmağın mənasız olduğunu görüb, susdu. Səhər tezdən durub, Yasəmənə:

- Mən gedirəm, amma unutma, səndən başqası ilə evlənməyəcəm, inşaallah görüşərik, - dedi və getdi.

Aradan 4 il keçirdi. Bu ərəfədə hər il kənddən ali məktəblərə neçə nəfər gənc qəbul olmuşdu. Bir il əvvəl tibb texnikumunu bitirən qız indi kəndin həkim məntəqəsində işləyirdi. Bu il isə iki oğlan institutu bitirib gəlməli idi. Biri müəllim, digəri kənd təsərrüfatı mütəxəssisi idi. İndi kənddə bir neçə evdə hana qurub xalça toxuyan qızlar vardı. Gəncədən gəlib evlərdən xalçaları alıb aparırdılar.

Cavad arabir Yasəmənlə danışsa da, evlənməkdən heç söz salmırdı. Bakıdan ev də almışdı. Bir gün Yasəmənə dedi ki, bu yay həmişəlik Bakıya gələcəm, görüşməliyik.

Yasəmən hər il olduğu kimi, bu yay da evlərində idi. Axşam Cavad zəng edərək onlara gəlmək istədiyini bildirdi. Yasəmənin anası:

- Qızlar, tez olun bir şeylər hazırlayaq, yəqin anasıgil də gələcəklər, - dedi.

Saat 8-də qapı döyüldü. Yasəmən çox həyəcanlı idi, uzun sürən ayrılıqdan sonra Cavadla necə görüşəcəyini bilmirdi. Qardaşı qapını açdı, Cavad valideyinləi ilə gəlmişdi. Görüşdülər, hal-əhval tutdular. Yasəmən gələnlərlə görüşsə də, mətbəxdən çıxmadı. Nəhayət Cavad mətbəxə gələrək:

- Otağa niyə gəlmirsən? - deyə soruşdu.

Yasəmən nə deyəcəyini bilmirdi, çiyinlərini çəkdi. Cavad onun əlindən tutaraq otağa gətirdi və - sənə sürprizlərim var, - dedi.

Hamı maraqla ona baxırdı. Cavad:

- Yasəmənin işlədiyi kənddə xalça sexi açmaq istəyirəm. Həm kəndin qızlarına, həm də oğlanlarına iş yeri olar. Toxunacaq xalçaları alacaq şirkətlə də danışmışam, onların çox mağazalarla əlaqələri var. Satışdan gələn qazancdan həm əmək haqqı alarlar, həm də işlərini davam etdirərlər. Sexin rəisindən tutmuş fəhlələrinə, sürücüsünə qədər bütün işçilər kənd camaatından olacaq, - dedi.

Yasəmənin heyrətdən dili söz tutmurdu, Cavada necə təşəkkür edəcəyini bilmirdi. O, indi Cavadın onu nə qədr çox sevdiyini anladı. Cavad ona:

- Gələn ay toyumuzdur, sanıram sənin o kənddə daha bir işin qalmayıb, səni əvəz edən müəllimlər gəliblər. O gözəl səsli çoban oğlanı isə mütləq Bakıdakı musiqi gimnaziyalarının birinə düzəldəcəyəm, oxumaq xərclərini də mən çəkəcəm. Eşitdiyimə görə bu il kənddə H. Əliyev fondunun tikdiyi məktəbin də açılışı olacaq.

Yasəmənin daha deyəcək bir sözü yox idi. O, ucqar kəndin gəncləri üçün az da olsa nələrsə edə bildiyi üçün xoşbəxt idi. Yasəmən amalına çatmışdı.
02.02.2015.

# VƏTƏN ÜLVİYYƏTİ
(Esse)

Cəmi 20 bahar yaşadın, Ülvi.
Bilmədin həyatın haraya axar.
Sən ülvi hisslərlə yaşadın, Ülvi.
Demədin güllələr sinəmə axar.

Ülvi Bünyadzadə 20 Yanvar şəhididir. Bu gün onun əsərləri – şeirləri, hekayələri, povesti, poeması, məqalələri oxucular tərəfindən maraqla qarşılanır. Onun fədakarlığı haqqında şeirlər, məqalələr, hekayələr və s. yazılır.

Ülvi Yusif oğlu Bünyadzadə 1969-cu il sentyabrın 23-də Göyçə mahalının Kəsəmən kəndində anadan olub. İbtidai təhsilini Kəsəməndə aldıqdan sonra ailəsi Daşkəsənə köçdüyü üçün, 4-cü sinifdən, 6-cı sinfin yarısınadək təhsilinə Daşkəsən şəhər A.S.Puşkin (indiki A.Mürsəlov) adına orta məktəbdə, 6-cı sinfin yarısından sonra Daşkəsən şəhər İ.Nəsimi adına orta məktəbdə davam edib.

Mən onun oxuduğu Daşkəsən şəhər İ.Nəsimi adına orta məktəbə getdim və Ü.Bünyadzadə haqqında yazmaq istədiyimi məktəbin direktoru Sevil xanım Ələskərovaya bildirdim. Sonra məktəbdə Ülvinin xatirəsinə yaradılmış guşəni gəzdim, Ülviyə aid olan portretlə, fotoşəkillərlə, onun haqqında qəzetlərdə yazılmış məqalələrlə, Ülvinin əl yazmaları və kitabları ilə tanış oldum. “Ülvi duyğularım” kitabını vərəqlədim, bir şeiri diqqətimi çəkdi:

Atama oğul deyiləm,
Anama oğul deyiləm.
Bu ocağın kor çırağı,
Yanmayacaq işığıyam.
Atam-anam zəmanədir;
Mən zəmanə uşağıyam.

O, öz vicdanı qarşısında and içmişdi: “Bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam, Azərbaycan torpağımın qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacağam,...nəyin bahasına olursa-olsun öz azərbaycanlı “Mən”imi təsdiq edəcəyəm.... 10.09.89.”

Kitabın giriş hissəsində oxuduğuma görə, Ülvi bir neçə xarici dil bilib - ingilis, rus, ərəb, fars, latın, özbək dillərini özü öyrənib.

Mən onun müəllimləri ilə tanış oldum, Ülvi haqqında qürurla danışdıqları xatirələri maraqla dinlədim. Bütün müəllimlər onun digər şagirdlərdən tərbiyəsinə, səliqəsinə, savadına, elini-obasını, vətənini sevən bir şagird olmasına görə fərqləndiyini dedilər.

Onları dinlədikcə gözlərim qarşısında Ülvi bütün insani gözəllikləri ilə canlanırdı. O xatirələrin bir hissəsini sizlərlə bölüşmək istəyirəm:

İ.Nəsimi adına orta məktəbin riyaziyyat müəllimi Həsənov Saləddin:

“Ülvi iti düşüncəli, sadəcə deyilənləri qəbul etməyən, öz düşüncə süzgəcindən keçirən, şeirə maraqlı gənc olmuşdur. Belə gənclər romantik olur, yaşıdlarının düşünə bilmədikləri, maraq göstərmədikləri məsələlərdə onlar fərqli münasibət göstərirlər.

Ülvi sanki özündə, öz düşüncələrində qəhrəmanlıq xarakterləri axtarırdı. Bu da onun vətənpərvər övlad kimi tərbiyə olunmasında müəyyən təsirlər buraxmışdır. Ona görə də, o, xalq hərəkatına qoşulmaqla, öz azadlığı üçün mübarizəyə qalxmış xalqı ilə həmrəy olmuş və həyatını sevdiyi Vətəninə qurban vermişdir”.

A.Mürsəlov adına orta məktəbin müəllimi Əbdülova Nərminə:

“Mən onun sinif rəhbəri və Təbiətşünaslıq müəllimi olmuşam. Ülvi 5-ci sinifdə oxuyanda məktəbimizə Təhsil Nazirliyindən nümayəndələr gəlmişdilər. Təhsilin keyfiyyətini və nizam-intizamı yoxlayırdılar. Ülvigilin sinfində Coğrafiya

dərsi idi, nümayəndələr sinfə daxil oldular. Müəllimdən icazə aldılar ki, uşaqlara sual vermək olarmı? Verilən suala ilk Ülvi əl qaldırdı və 2 suala dolğun, düzgün cavablar verdi. Nümayəndələr onun cavablarından çox razı qalmışdılar. Sual verən dedi ki, bu uşağın parlaq gələcəyi var, savadlı uşaqdır. Onu bütün kollektiv və sinif yoldaşları çox sevirdilər”.

Daşkəsən şəhər İncəsənət məktəbinin qarmon müəllimi Verdiyev Arif:

“ Mən Ülvi ilə həmişə söhbət edirdim, deyirdim ki, yaxşı musiqiçi ola bilərsən. O isə deyirdi ki, mən musiqiçi olmayacağam, sadəcə hobbi kimi, özüm üçün öyrənmək istəyirəm. Məktəbdə dərslər həmişə günortadan sonra olurdu, o, dərsə həmişə saat 4-5 arası gəlirdi. Evləri məktəbə yaxın idi. Mən digər uşaqlara 45 dəqiqəyə öyrədə bilmədiklərimi ona 10-15 dəqiqəyə öyrədirdim. Bir mahnını bircə dəfə çalmaqla öyrənirdi”.

İncəsənət məktəbində Ülvinin sinif yoldaşı olmuş Əliyev Sabir:

“Biz rəhmətlik Ülvi ilə 1974-1975-ci illərdə Daşkəsən şəhər musiqi məktəbində, Arif müəllimin sinifində qarmondan təhsil almışıq. Bir yerdə musiqi ədəbiyyatı və nəzəriyyə dərslərində olmuşuq. Məndən iki yaş böyük idi. Çox gözəl qarmon və piano çalırdı. İngilis dilində sərbəst danışırdı. Arıq, hündür oğlan idi. Təhsil müddəti 7 il olsa da, Ülvi musiqi məktəbində 5 il təhsil aldı, yaxşı oxuduğu üçün 1-ci sinifdən 3-ə, 3-cü sinifdən isə 5-ci sinfə adlamışdı. Şərəf lövhəsində şəkli vardı”.

İ.Nəsimi adına orta məktəbin Fizika müəllimi Gülümcanov Qabil:

“Mən Ülviyə 7-ci sinifdən orta məktəbi bitirənədək dərs demişəm. Qabiliyyətli oğlan idi, dərs prosesində mütləq sual verirdi. Cavab onu qane edənədək mübahisəni davam etdirirdi, mütləq nə isə öyrənirdi. İki il dalbadal Fizika üzrə rayon olimpiadasının qalibi olmuşdu. Güclü analiz etmə qabiliyyətinə

malik bir oğlan idi. Yadımdadır, rus dilində bir məqalə vardı "Fiziki vo vremya Vtoroy Mirovov voynı", Ülvi o məqaləni Azərbaycan dilinə əsl tərcüməçi kimi tərcümə etmişdi. Ülvi riyaziyyatı da güclü bilirdi. Mən onun texniki institutlarda oxumasını məsləhət görmüşdüm. Sonradan isə özü ingilis dilini seçdi. Xarici dillərə böyük marağı vardı, humanitar fənləri də sevirdi. Hərtərəfli oğlan idi. Məktəbin poeziya bülleteni vardı, Ülvi hərdən orada şeirlərlə çıxış edirdi. Bu şeirlər uşaqların böyük marağına səbəb olmuşdu. Hətta uşaqların o şeirləri bülletenin qabağında oxuyaraq bir-birləri ilə mübahisə etdiklərinin də şahidi olmuşdum. Mənim özümün təşkil etdiyim Gənc Fiziklər Klubu vardı. Hər ay uşaqlarla birlikdə "Kvant" jurnalındakı məsələlərin həllini araşdırırdıq. Ülvi klubumuzun fəallarından idi. "Foton" divar qəzetinin redaktoru olduğundan Fizika sahəsindəki yenilikləri müntəzəm olaraq işıqlandırırdı. Çünki, o, Moskvada nəşr olunan "Наука и жизнь", "Мир Науки" jurnallarının oxucusu idi. Ülvi məktəb kollektivində böyük nüfuz sahibi idi".

A.Mürsəlov adına orta məktəbin müəllimi Şərifova Solmaz:

"Ülvi əlaçı şagird olmaqla bərabər, idman, musiqi, rəsm və şahmatla da məşğul olurdu. Bütün musiqi alətlərindən istifadə edə bilirdi. O illərdə mən məktəbdə həm müəllimə işləyirdim, həm də pioner baş dəstə rəhbəri idim. Məktəbimizdə radio qovşağı var idi. Böyük tənəffüslərdə məktəbdə olan hadisələr haqqında gündəlik məlumatlar verilirdi. Əlaçı şagirdlər ayrı-ayrı şairlərin şeirlərini söyləyirdilər, o cümlədən də Ülvi. O, hərdən öz şeirlərini də radioda səsləndirirdi. Məktəbin şagirdləri onu "balaca şair" kimi tanıyırdılar".

İ.Nəsimi adına orta məktəbin Kimya müəllimi Xədicə Məmmədova:

"Ülvi çox mütaliə edirdi, çox axtarışda olurdu, mübariz insanların həyatından olan əsərləri oxuyur və təhlil edirdi. Ədəbiyyatı çox sevirdi. Sərbəst mövzularda inşaları sinifdə

ancaq o yazardı. Ədəbiyyatdan buraxılış imtahanında "Mənim ən çox sevdiyim surət" adlı sərbəst inşa yazmışdı və İrland yazıçısı Voyniçin "Ovod" romanından Artur surətini çox gözəl təhlil etmişdi. Ədəbiyyat müəllimi Zaman müəllim o inşanı mənə göstərmişdi və çox bəyəndiyini söyləmişdi".

Müəllimlərinin danışdıqlarına görə, bütün məktəb həyatı boyunca Ülvi vaxtaşırı şeirləri, müxtəlif səpkili bədii və publisistik yazıları ilə "Daşkəsən" qəzetində çıxış etmişdir. Rayonda fəaliyyət göstərən "Qoşqar" ədəbi birliyinin üzvü olmuşdur.

1986-cı ildə orta məktəbi bitirdikdən sonra Ülvi sənədlərini ADU-nun Şərqşünaslıq fakültəsinin Fars dili şöbəsinə vermiş, imtahanlarını müvəffəqiyyətlə versə də, müsabiqədən keçməmiş, Daşkəsən şəhərinə qayıdaraq rayon Təmir-tikinti idarəsində rəngsaz işləmişdir.

1987-ci ildə Ülvi APXDİ-nun İngilis dili fakultəsinə daxil olmuşdur. Qrup nümayəndəsi seçilmiş, dərs əlaçısı və fəal ictimaiyyətçi kimi bütün institutda tanınmışdır. Yazıları institutun qəzetində mütəmadi çap olunmuşdur. Bir illik təhsildən sonra hərbi xidmətə getmişdir. Onun hərbi xidmətdə olduğu vaxtlar ölkəmiz, xalqımız üçün həyəcanlı günlər idi.

Ülvi 1989-cu ilin sentyabr ayına kimi Krasnoyarsk vilayətinin Kansk şəhərində hərbi xidmətdə olmuşdur. Qulluq etdiyi hərbi hissədə "Xətai" adlı dərnək-şura yaratmış, onun proqram və nizamnaməsini hazırlamış, həmin dərnəyə 20-dən artıq üzv cəlb etmişdir. Məqsədi həmin hərbi hissədə və yerli əhali arasında kütləvi təbliğat aparmaq, xalqımızın müstəqillik uğrunda mübarizəsi və Dağlıq Qarabağın tarixi barədə müəyyən təsəvvür yaratmaq olub. Bu barədə bibisi Almaz xanıma yazdığı məktubunda da məlumat verib. Ülvi əsgəri xidmətini yüksək səviyyədə yerinə yetirdiyinə görə hərbi hissədə Sov.İKP üzvlüyünə qəbul edilmişdir.

1989-cu ilin sentyabr ayında SSRİ Müdafiə Nazirinin qərarına əsasən o, tələbə olduğu üçün vaxtından 9 ay əvvəl hərbi

xidmətdən tərxis olunmuş və qayıdıb II kursda təhsilinə davam etmişdir. Həmin vaxtlar Bakıda mitinqlər keçirilirdi. Ülvi də mitinqlərdə iştirak edirdi. Sov.İKP-nin bütün sovet xalqlarının həyatında oynadığı mənfi rolu başa düşərək Azadlıq meydanında mitinq zamanı kommunist biletini yandırmışdı.

Bakının Nəsimi rayonunda törədilən qətllərin və qarətlərin qarşısını almaq məqsədilə yanvarın 18-də həmin ərazi AXC-nin rayon şöbəsinin idarə heyəti tərəfindən dayaq dəstələri arasında bölüşdürülmüşdü. İV mikrorayondakı "Pioner" kinoteatrında yerləşdirilmiş APXDİ-nin dayaq dəstəsinin qərargahına rəhbərlik Ülviyə tapşırılmışdı. Dəstənin fəaliyyət proqramının hazırlanmasında onun xüsusi rolu olmuşdur. O, Şimali Azərbaycan Azad Tələbə İttifaqı idarə heyətinin üzvü idi.

1990-cı il yanvarın 19-da gecə saat 12-də müasir silahlarla silahlanmış sovet ordusu Bakıya daxil olub yalın əllə torpağını müdafiə etmək istəyən əhaliyə qarşı misli görünməmiş qətliam törətdi. Ən böyük qırğın Bakının girəcəyində, XI Qızıl Ordunun şərəfinə ucaldılmış "Qızıl Ordu" abidəsinin ətrafında olmuşdur.

Yanvarın 19-da saat 23-30 radələrində Ülvi "Pioner" kinotetrındakı Cəbhə dostlarına deyib ki, XI Qızıl Ordu meydanındakı piketə baş çəkib tez də qayıdacaq. Amma o, bir daha geri qayıtmamış, həmin meydanda həlak olmuşdur. Yanvarın 20-də axşamüstü dostları, tələbə yoldaşları və müəllimləri onun cəsədini Semaşko adına xəstəxanadan tapmışdılar.

Ü.Bünyadzadə Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Ona "20 Yanvar Şəhidi" fəxri adı verilmişdir.

Ülvinin son illər yaşadığı küçəyə "Ülvi Bünyadzadə küçəsi" adı verilib. Yaşadığı evin divarına "Burada 20 yanvar şəhidi, şair Ülvi Bünyadzadə yaşamışdır" yazılı barelyef-lövhə vurulmuşdur.

Bir müddət sonra M.F.Axundov adına respublika dövlət kitabxanasında Ü.Bünyadzadənin xatirəsinə həsr edilmiş gecə keçirilmişdir. Orada onun adına yazılmış 20 nömrəli "Fəxri

oxucu” bileti qrup yoldaşlarına təqdim edilmişdir. İnstitut elmi şurasının qərarına əsasən Ü.Bünyadzadə “Fəxri tələbə” kimi öz qrup yoldaşları ilə birlikdə “oxumuş” və axırda onun adına “Fəxri diplom” yazılmışdır.

Şəhadətindən 8 ay sonra Ülvinin ilk kitabı “Ülvi duyğularım” çapdan çıxmış və onu sevənlərə təqdim edilmişdir.

Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının Daşkəsən rayon komitəsinin qərarı ilə İ.Nəsimi adına orta məktəbin pioner drujinasına Ü.Bünyadzadənin adı verilmişdir. Bəstəkar Rəşid Şəfəq Ü.Bünyadzadənin “Həyat üçün doğulmuşuq” şeirinə mahnı bəstələyib.

O şənbə gecəsi xalqımız min illik qəhrəmanlıq tarixini Dünyaya yenidən göstərdi. Sübut etdilər ki, bu xalq azadlığı uğrunda ölümə hazırdır. O gün 147 nəfər şəhid oldu. Təqvimlərimizdə 20 Yanvar qara hərflərlə yazıldı və hər il Ümumxalq Hüzn Günü kimi qeyd olunur.

Şəhidlər ölmürlər və heç vaxt unudulmurlar, onların adları xalqımızın ürəyində hər zaman yaşayır və hörmətlə yad edilir. Bu gün Şəhidlər Xiyabanı xalqımızın daimi ziyarət, gənclərimizin isə and yeridir.

31.10.2019.

TƏRCÜMEYİ - HAL

Həsənzadə Etibar Oktay oğlu 07 iyun 1992- ildə Azərbaycan Respublikasının Daşkəsən şəhərində anadan olmuşdur.

2010-cu ildə Daşkəsən şəhər Anar Mursəlov adına 2 saylı orta məktəbi bitirmişdir.

2016-cı ildə Bakı Slavyan Universitetinin Yaradıcılıq fakultəsini bitirib.

Azərbaycan Yazıçılar Birliyinin, İstedadlı Əlillər İctimai Birliyinin fəxri üzvü, Avrasya Sanat Kültür, Edebiyat və Bilim Federasyonunun (ASKEF) və Türkmen Edebiyatçı və Yazarlar Birliyinin üzvüdür.

"Könlümlə söhbət", "Duyğular dinsin", "Gecikmiş etiraf ", "Bir həyat romanı", "Sevgi bəstəsi" və “Nurla gəldi, Nurla Yaşadı, Nurla getdi” adlı kitabların müəllifidir.

2019-cu ilin may ayından Prezident təqaüdçüsüdür.

"Avrasiya Şairleri Antolojisi"-ndə, "Qarabağnamə" (4 cilddə), "Unutulmayan Hocalım", "Sevirəm, sevmişəm, sevəcəyəm də"(3 cilddə), "Ziya", "Bölgələrdən səslər", "Anasız, atasız dünyam", "Xocalı harayı və Əsirlikdən gələn səs","Zirvə", "Şairlər seçkisi 9,10 və 11-ci cildlər", “Bir yandan boşalıb dolan dünyadır”, “Karabağdan, Kerkükden Çanakkaleye şiir seçkisi”, “Türk Dünyası şiir seçkisi 3-cü cild”, “Xarı bülbül”, “Sirli, sözlü Daşkəsən”, “Aprel döyüşləri”,

“Dünya yalan Dünyadır”, “Türk illerinde çocukluk günleri”, “Qarabağ həsrəti”, “Vətən-şəhid əmanəti” antologiyalarında və "Hər könüldən bir soraq", “Nəsimi-650”(1və 2-ci cild) almanaxlarında şeirləri və hekayələri dərc olunub.

Şeirlərinə mahnılar bəstələnmişdir.

Eşitmə və danışma əngəlli insanlar üçün şeirlərinə və mahnısına İşarət dilində 3 klip çəkilmişdir.

2015-ci ilin sentyabr ayında Az.Res. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən "İstedad Sorağında" layihəsi çərçivəsində keçirilmiş müsabiqədə seçilmiş əsərləri qalib olub.

Azər.KİVİHİ-nin rəyasət heyətinin qərarı ilə “Qızıl qələm” media mükafatı laureatı, “İlin Vətənpərvər Şairi” media mükafatçısı, ASKEF və Qafqaz-Media İB tərəfindən verilən “Vicdanlı qələm” mükafatçısıdır.

“Qafqaz-Media” İB və "Tedua" Productionun təşkilatçılığı ilə keçirilən "Musical fires of Baku" nun mükafatlandırma mərasimində “İlin gənc şairi və sayt rəhbər” diplomuna, “Qafqaz-Media”İB və Qafqaz-Media.Az İnformasiya Agentliyinin keçirdiyi sorğuya əsasən “İlin fəal yazarı-Best of the Best” diplomu, “Heydər zirvəsi” diplomu, “İlhamlı Azərbaycanım” və sair diplomlarla təltif olunmuşdur.

“Uluslararası İdeal Barış Vakfı” tərəfindən “Uluslararası Barış Elçisi” statusuna layiq görülüb.

Professional yaradıcılığa başladığı 6 il ərzində Daşkəsən rayon İcra Hakimiyyəti tərəfindən 4 təqdimat tədbiri, Bakı şəhərində müxtəlif birliklərin təşkilati dəstəyi ilə 2 böyük təqdimat tədbiri keçirilmişdir.

tel. +994 051-724-4547,
salmanov_etibar@mail.ru

## KİTABIN İÇİNDƏKİLƏR

ŞEİRLƏR

Azərbaycan----------------------------------------------------------1
Böyük zəfərin başlanğıcı-------------------------------------------2
Zəfər marşı----------------------------------------------------------3
Gözlə bizi, Qarabağım------------------------------------------------4
Şanlurfa---------------------------------------------------------------5
Azərbaycan---------------------------------------------------------6
Daşkəsən------------------------------------------------------------7
Vətənimi istəyirəm------------------------------------------------8
Üzeyir dünyası-----------------------------------------------------9
Dedin ahəstə-------------------------------------------------------10
Talan---------------------------------------------------------------11
Sənin deyilmi------------------------------------------------------12
Səndən ötəri-------------------------------------------------------13
Aldatma------------------------------------------------------------14
Aç gözlərin--------------------------------------------------------15
Dustaq-------------------------------------------------------------16
Eşqim--------------------------------------------------------------17
İncə yarım---------------------------------------------------------18
İncə-incə----------------------------------------------------------19
Mənim dünyam-----------------------------------------------------20
Nə gözəl-----------------------------------------------------------21
Sən mənim eşqimsən, sevdiyim deyil--------------------------22
Şeir bağçası-------------------------------------------------------23
Bəlkə qalasan-----------------------------------------------------24
Bənzəyirsən-------------------------------------------------------25
Dinlə məni---------------------------------------------------------26
Gedər--------------------------------------------------------------27
Gülə-gülə----------------------------------------------------------28
Həsrətim mənim---------------------------------------------------29

Xəbərin yox--------------------------------------------------------30
Xəyalımla söhbət---------------------------------------------------31
Küləklər--------------------------------------------------------------32
Küsən gözəl--------------------------------------------------------33
Məni ara-------------------------------------------------------------34
Ömidlərimə----------------------------------------------------------35
Yay sevgisi----------------------------------------------------------36
Yarım-----------------------------------------------------------------37
Ayrılıq----------------------------------------------------------------38
Bağlayasan---------------------------------------------------------39
Düşüncələrim------------------------------------------------------40
Getdin------------------------------------------------------------------41
Görüşümə gəlmisən-----------------------------------------------42
Gözəl qız-------------------------------------------------------------43
Gözləyirəm---------------------------------------------------------44
Gülər--------------------------------------------------------------------45
Həsrət------------------------------------------------------------------46
Xəyallarım---------------------------------------------------------47
Xəbəri yoxdur-----------------------------------------------------48
İki sevgi---------------------------------------------------------------49
Könlümlə söhbət--------------------------------------------------50
Kamanın səsi--------------------------------------------------------51
Leyla--------------------------------------------------------------------52
Məsafə------------------------------------------------------------------53
Nazlı gözəl-----------------------------------------------------------54
Neyləyim--------------------------------------------------------------55
Niyə sevdim---------------------------------------------------------56
Sevgi etirafı----------------------------------------------------------57
Sevgi harayı---------------------------------------------------------58
Sevgimə inam------------------------------------------------------59
Səbəbsiz ayrılıq----------------------------------------------------60
Şam işığında--------------------------------------------------------61

Ürək--------------------------------------------------------------------62
Təbiəti sevirəm---------------------------------------------------------63
Yağışlar------------------------------------------------------------------64
Sevgi---------------------------------------------------------------------65
Çəkil duman-------------------------------------------------------------66
Duyğular dinsin-----------------------------------------------------------67
Eşq------------------------------------------------------------------------68
Gəl------------------------------------------------------------------------69
Nəsimi-------------------------------------------------------------------70
HEKAYƏLƏR
Eşqin heykəli-------------------------------------------------------------73
Sevgi bəstəsi--------------------------------------------------------------87
Lənət---------------------------------------------------------------------97
Mənim hekayəm-----------------------------------------------------------97
Məzarsız şəhid-----------------------------------------------------------111
Son qərar----------------------------------------------------------------119
Şöhrət peşində-----------------------------------------------------------129
Yasəmənin amalı--------------------------------------------------------139
Vətən ülviyyəti----------------------------------------------------------170
Tərcümeyi-hal----------------------------------------------------------177

**ETİBAR HƏSƏNZADƏ**

# SON QƏRAR



**Texniki redaktor: Əlvan Cəfərov**

**Korrektor: Nihad Cəfərzadə**



HƏSƏNZADƏ ETIBAR OKTAY oğlu 07 iyun 1992-ildə Azərbaycan Respublikasının Daşkəsən şəhərində anadan olmuşdur.

2010-cu ildə Daşkəsən şəhər Anar Mursəlov adına 2 saylı orta məktəbi bitirmişdir.

2016-cı ildə Bakı Slavyan Universitetinin Yaradıcılıq fakultəsini bitirib.

Azərbaycan Yazıçılar Birliyinin, İstedadlı Əlillər İctimai Birliyinin fəxri üzvü, Avrasya Sanat Kültür, Edebiyat və Bilim Federasyonunun (ASKEF) və Türkmen Edebiyatçı və Yazarlar Birliyinin üzvüdür.

"Könlümlə söhbət", "Duyğular dinsin", "Gecikmiş etiraf ", "Bir həyat romanı", "Sevgi bəstəsi" və “Nurla gəldi, Nurla Yaşadı, Nurla getdi” adlı kitabların müəllifidir.

2019-cu ilin may ayından Prezident təqaüdçüsüdür.

"Avrasiya Şairleri Antolojisi"-ndə, "Qarabağnamə" (4 cilddə), "Unutulmayan Hocalım", "Sevirəm, sevmişəm, sevəcəyəm də"(3 cilddə), "Ziya", "Bölgələrdən səslər", "Anasız, atasız dünyam", "Xocalı harayı və Əsirlikdən gələn səs","Zirvə", "Şairlər seçkisi 9,10 və 11-ci cildlər", “Bir yandan boşalıb dolan dünyadır”, “Karabağdan, Kerkükden Çanakkaleye şiir seçkisi”, “Türk Dünyası şiir seçkisi 3-cü cild”, “Xarı bülbül”, “Sirli, sözlü Daşkəsən”, “Aprel döyüşləri”, “Dünya yalan Dünyadır”, “Türk illerinde çocukluk günleri”, “Qarabağ həsrəti”, “Vətən-şəhid əmanəti” antologiyalarında və "Hər könüldən bir soraq", “Nəsimi-650”(1və 2-ci cild) almanaxlarında şeirləri və hekayələri dərc olunub.

İKSAD®
Publishing House

978-625-7954-37-2